**Əllamə Məhəmməd Hüseyn Təbatəbai**

# İSLAMDA QURAN

***(Şiə nöqteyi-nəzərindən)***

**Bakı - 2003**

**Əllamə Məhəmməd Hüseyn Təbatəbai «Islamda Quran»**

Bakı, «Qələm» - 2003, 122 səh.

Tərcümə edən: **Heybət Heybətov**
Redaktor: **Kamran Nəcəfov**

*Kitabda Qurani-Kərimin bəşər həyatında rolu, Qurani-Kərimin*

*bütün dünya xalqlarına məxsus olması, zahiri və batini ayələr, möhkəm və mütəşabih ayələr, nasix və mənsux ayələr, təfsir elmi, Quranın, Quran vasitəsilə təfsir olunması və s. mövzularda geniş və maraqlı materiallar verilmişdir.*

$T\ \frac{0905040000-634}{\text{H}-098-2003}$

**DK – 979/d**

**© «Qələm» - 2003**

## BİRİNCİ FƏSİL

### Qur'ani-Kərimin müsəlmanlar üçün qiymət və əhəmiyyəti

**1.Qur’ani-Kərim bəşər həyatının proqram toplusunu əhatə edir.**

**2.Qur’ani-Kərim nübüvvəti təsdiq edən sənəddir.**

1.Qur’ani-Kərim bəşər həyatının proqram toplusunu əhatə edir.

Bu onunla izah olunur ki, insan xoşbəxtliyini başqa dinlərlə müqayisədə daha gözəl tə’min edən İslam dini Qu’ran vasitəsilə müsəlmanlara çatdırılmışdır. İslamın əqidə bilikləri silsiləsindən, əxlaqi və əməli qanunlardan ibarət olan dini materialın əsasında məhz Qu’ran dayanır. Allah-təala buyurur: “Həqiqətən, bu Qur’an (bütün bəşəriyyəti) ən doğru yola (İslama) yönəldir[1].Başqa bir ayədə isə buyurur: “Biz Qur’anı sənə hər şeyi(dini hökmləri,halal-haramı,günahı və savabı) izah etmək üçün nazil etdik.”[2]

[1] əl-Isra-9.
[2] əl-Nəhl-89.

Aydın məsələdir ki, Qur'anda dini əqidələrin əsasları, əxlaqi fəzilətlər və əməli qanunlar toplusu bir çox ayələrdə öz əksini tapmışdır.

Şərh: Aşağıda qeyd etdiyimiz bir neçə müqəddiməni nəzərdən keçirməklə, "Qur'ani-Kərim insanın həyat proqramını (tərzini) əhatə edir" -məfhumunu tam mə'nası ilə dərk etmək mümkündür.

1.İnsanın həyatda səadət, xoşbəxtlik və istədiyinə nail olmaqdan başqa heç bir hədəfi yoxdur (xoşbəxtlik və səadət insanın arzu etdiyi, vurğunu olduğu həyat formasına deyilir. Məsələn, azadlıq, rifah, yüksək məvacib və s).

Bə'zi hallarda intihar edərək həyatına son qoyan, dolanşığına e'tiraz edən şəxslər kimi öz səadətindən üz döndərənlərin şahidi oluruq. Belə insanların psixologiyası ilə yaxından tanış olduqda aydın olur ki, onlar xüsusi amillərin tə'siri nəticəsində səadət və xoşbəxtliyi məhz, həyata keçirdikləri işdə bilirlər. Buna misal olaraq, xoşagəlməz hadisələrin tə'siri nəticəsində öz rahatlığını ölümdə görən insanı, həmçinin, zahidlik edərək maddi ne'mətlərdən kənarlaşan və səadətini bu yolda görən insanı göstərmək olar. Deməli, insanın həyat fəaliyyəti,

səadət yolunu düzgün seçib-seçməməsindən asılı olmayaraq, bu yolda xoşbəxtliyə çatmaq üçündür.

2.Aydın məsələdir ki, insanın fəaliyyəti müəyyən proqrama əsaslanır. Bu fikrin şübhə altına alınması da onun tam aydınlığından irəli gəlir. Çünki, bir tərəfdən insan hər bir işi öz iradəsinə əsasən həyata keçirir və nəticədə, hansısa işin yaranmasını tələb edən şəraiti müəyyənləşdirməyincə, onu yerinə yetirmir. Yə’ni, insan hansısa işi görərkən, onu öz daxili aləminin istək və tələbinə əsasən həyata keçirir. Digər tərəfdən isə, insanın gördüyü işlər onun ehtiyaclarını tə’min etməklə, bilavasitə onun özünə xidmət edir. Beləliklə aydın olur ki, insanın həyata keçirdiyi işlər arasında bir bağlılıq mövcuddur. Yemək, içmək, yatmaq, durmaq, oturmaq, qalxmaq, getmək, gəlmək və digər işlərin hər birinin öz yeri və ölçüsü vardır. Onlar bir sıra vaxtlarda insana lazım, bə’zən isə qeyri-lazım olur, bə’zi hallarda insana xeyir, bə’zən isə zərərli olur. Nəticə e’tibarilə belədir ki, hansısa işin həyata keçirilməsi, şüurda toplu halında arxivləşdirilmiş daxili iradə (istək) vasitəsilə görülür və onu yerinə yetirmək lazım

gəldikdə bu toplunun kiçik hissələri formalaşaraq meydana çıxır.

Insan, öz şəxsi işlərində əhalisinin fəaliyyəti müəyyən qayda-qanun vasitəsilə nəzarət edilən bir ölkə rolunu oynayır. Bu ölkənin işçi qüvvəsi borcludur ki, öz işlərini onun həyata keçirilməsi lazım olan fərmanlarına aid etdikdən sonra yerinə yetirsin.

Bir cəmiyyətin ictimai fəaliyyəti də bir fərdin fəaliyyət xüsusiyyətlərini daşıyır. Ardıcıl olaraq əksəriyyətin tabe olduğu bir sıra qayda-qanunlar onların hər ikisində hakim mövqedə durmalıdır. Belə olmadığı təqdirdə ən qısa zamanda cəmiyyət daxilində hərc-mərclik və parçalanma baş verəcəkdir.

Söylədiklərimizdən aydın oldu ki, insan fərdi və ictimai fəaliyyətində müəyyən məqsəd güdməlidir. O, qarşısına qoyduğu hədəfə çatmaq üçün heç vaxt ona uyğun olan yoldan və bu işin proqramı olan qayda-qanunlardan istifadəyə ehtiycasız deyil. Qur'ani-Kərim də bu fikri təsdiq edərək buyurur: "Hər kəsin (hər ümmətin) üz tutduğu bir qibləsi vardır. (Ey müsəlmanlar!) Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın!"[1].

---

[1] əl-Bəqərə-148-ci ayə.

Din dedikdə Qur’ana əsaslanan həyat tərzi nəzərdə tutulur. Mö’minlər, kafirlər, hətta Allahın mövcudluğunu inkar edənlər belə dinsiz deyil. Çünki, insan həyatı istər nübüvvət və vəhy, istərsə də fitri yolla müəyyənləşməsinə baxmayaraq, heç bir zaman qayda-qanunsuz formalaşmır. Qur’ani-Kərim hansı təbəqədən olmalarına baxmayaraq, Allah dininə qarşı düşmənləri təsvir edərək onlar haqda belə buyurur: “O kəslər ki, insanları Allah yolundan döndərər, onu (Allah yolunu) əyri hala salmaq istəyər və axirəti də inkar edərlər.”[2]

3.Ən yaxşı və davamlı həyat tərzi fərd yaxud cəmiyyət hissiyyatından qidalanan həyat tərzinə deyil, insan yaranışının sövq etdiyi həyat tərzinə deyilir. Yaranışın hansısa hissəsini, predmetini diqqətlə nəzərdən keçirdikdə görəcəyik ki, onun öz varlığında müəyyən məqsəd və hədəfi vardır. Bu varlıq yarandığı ilk gündən, onu öz məqsədinə aparan ən yaxın və münasib yolla hədəfinə tərəf yönəlmişdir.

O, daxili və xarici quruluş e’tibarilə elə yaradılmışdır ki, onun bu forması hədəfinə uyğundur və müxtəlif fəaliyyətlərinin mənşəyidir. Canlı və ya cansızlığından asılı

---

[2] Əl-Ə’raf-45-ci ayə.

olmayaraq, hər bir varlıqda yaranış görüntüsü məhz, qeyd etdiyimiz formada olur. Məsələn, buğda dənəsi torpağın qoynunda olduğu ilk günlərdən inkişaf edərək, böyük və çoxsaylı sünbül koluna çevrilməyə başlayır. Buğda dənəsi onun inkişafına lazım olan bir sıra ünsürləri özünəməxsus tərzdə havadan və yerdən öz orqanizminə əlavə edir, zaman keçdikcə böyüyür və günbəgün formasını dəyişib çoxsaylı sünbülü olan buğda koluna çevrilir. Bu zaman o, artıq son mənzilə çatmış olur.

Habelə, bir qoz ağacını da diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, o yarandığı ilk gündən hədəfi (məqsədi) istiqamətində hərəkət edərək böyük qoz ağacına çevrilmişdir. O, hədəfinə çatmaq üçün münasib yolla hərəkət etməklə, ixtiyarındakı vasitələrdən istifadə edir. Keçdiyi bu yaşayış tərzi qoz ağacının ayrılmaz hissəsidir. O, hədəfinə doğru hərəkət etdikdə heç vaxt başqasının yolunu, məsələn, buğda kolunun yolunu keçmir. Habelə, buğda kolu da öz məqsədinə çatmaq üçün keçdiyi inkişaf yolunda qoz ağacının yollarından istifadə etmir.

“Müşahidə olunanlar” dünyasını təşkil edən məxluqatın bütün növləri bu ümumi qaydaya məhkum edilmişdir. Məxluqatın əşrəfi olan

insanın bu ümumi qaydadan məqsədi vardır və onun səadəti bu hədəfə çatmaqdır. Hər növün hədəfinə çatması üçün öz quruluş və formasına uyğun yolu vardır. Istisna edə biləcək heç bir sübut yoxdur. Əksinə, insanın bədən quruluşu onun başqa məxluqat növləri kimi müəyyən hədəf və məqsədə malik olduğunu sübut etmək üçün ən gözəl dəlildir. Bu hədəf insan xoşbəxtliyini əhatə edir və ona çatmaq üçün insan bədən quruluşuna uyğun bir yola malikdir.

Deyilənlərdən aydın oldu ki, yaranış insana və insanın ayrılmaz hissəsi olan kainata məxsusdur. O, insanı həqiqi səadətinə doğru hidayət edir səadəti əhatə edən bir sıra ən mühüm və əsaslı qayda-qanunları insana xatırladır. Allah-təala müzakirə etdiyimiz bu mövzunu təsdiqləyərək buyurur: "Rəbbiniz hər şeyə öz xilqətini verən, sonra da ona doğru yol göstərəndir![1]".

Yenə buyurur: "O Rəbbin ki, (hər şeyi) xəlq etdi və nizama saldı. O Rəbbin ki, (hər şeyin keyfiyyətini, xüsusiyyətini, davam müddətini) əzəldən müəyyən etdi və (hamıya) yol göstərdi."[2] Yenə buyurur: "And olsun nəfsə və

[1] Taha-50-ci ayə.
[2] Əl-Ə'la 2-3-cü ayələr.

onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır (əş-Şəms 7,8,9,10-cu ayələr)".

Başqa bir ayədə isə buyurur: "(Ya Məhəmməd! ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi )üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti (haqq dinin Islam olduğunu) bilməz" (ər-Rum, 30-cu ayə). Qur'ani-Kərimin başqa bir yerində isə deyilir: "Allah yanında (haqq olan) din, əlbəttə, Islamdır" (Ali-Imran-19-cu ayə). Kim Islamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!" (Ali-Imran-85-ci ayə).

Qeyd etdiyimiz ayələrin məzmunu bundan ibarətdir ki, Allah-təala yaratdığı bütün məxluqatını, o cümlədən, insanı özünün yaranış yolu vasitəsilə özünəməxsus yaranış hədəfinə və səadətinə doğru hidayət edir. Həyat yolunda

insan üçün ən düzgün yol məhz, onun özünəməxsus yaranışının də’vət etdiyi yoldur. Habelə, insan özünün fərdi və ictimai həyatında subyektiv hisslərinin quluna çevrilmiş insanın deyil, fitri və təbii insanın ona tərəf sövq etdiyi (çağırdığı) qanunlardan istifadə etməlidir .

Fitri-təbii dinin tələbi bundan ibarətdir ki, insan vücudunun ixtiyarına verilmiş bir sıra vasitələr aradan getməməlidir və onların hər birinin hüququ qorunaraq yerinə yetirilməlidir. Həmçinin, insan bədənində mövcud olan müxtəlif duyğu və hissetmə qüvvələri kimi çoxsaylı vasitələrin hər birindən lazım səviyyədə istifadə olunmalıdır. Bir sözlə, insan varlığında nəfsani istək, məhəbbət və hissiyyat deyil, məhz ağıl hakim mövqedə durmalıdır. Habelə, cəmiyyət daxilində də bir şəxsin diktəsi, həqiqi mənafenin əksi olan əksəriyyətin diqtəsi deyil, cəmiyyətin həqiqi hüquq və mənafeyi hakim mövqedə durmalıdır.

Haqqında danışdığımız mövzudan başqa, bir nəticə də əldə olunur. O, bundan ibarətdir ki, şəriətdə qanunu müəyyənləşdirmək yalnız Allahın iradəsindən aslıdır və Ondan başqa heç kim qanun müəyyənləşdirərək vəzifə tə’yin etməyə layiq deyil. Çünki aydın olduğu kimi,

həyat yolunda insana yalnız yaranış yolu vasitəsilə onun üçün müəyyən edilmiş qayda-qanunlar yararlıdır. Yə'ni, insanın daxili və xarici amilləri onu bu qanunlara tərəf sövq edərək onları tələb edir. Bu o deməkdir ki, insan üçün məhz, Allahın sevdiyi qanunlar yararlıdır. Çünki Allah hər hansı şeyi sevir dedikdə Onun həmin şeyin həyata keçməsi üçün reallaşdırdığı şərait nəzərdə tutulur. Bə'zən, bu şərait elə bir formada təzahür edir ki, hər hansı şeyin məcburi surətdə həyata keçməsini zəruri edir. Buna misal olaraq, gün ərzində baş verən təbii hadisələri göstərmək olar. Belə olduqda, bu iradə, təkvini (təbii yolla yaranan) iradə adlanır. Bə'zən isə şərait və amillər tələb edir ki, insan hər hansı işi (məsələn, yemək, içmək və s.) azad və ixtiyari surətdə həyata keçirsin. Belə olduqda bu iradə təşri'i (ixtiyari) iradə adlanır. Allah-təala bir neçə yerdə buyurur: "Hökm yalnız Allahındır" (Yusif, 67-40-cı ayə).

Bu müqəddimələri qeyd etdikdən sonra bilməliyik ki, Qur'an insanın həyatda hədəfi (xoşbəxtliyi) olduğunu, bu hədəfə çatmaq üçün onun çalışaraq fəaliyyət göstərməsini, bu fəalliyyətin müəyyən proqram əsasında həyata keçirilmədiyi təqdirdə nəticəsiz olacağını və bu

proqramın Allahın fitrət və yaranış kitabından, başqa sözlə, ilahi tə'limdən götürülməsinin zəruriliyini qeyd edərək, həyat proqramının əsasını aşağıdakı formada müəyyənləşdirir:

O, Allahı tanımanı öz proqramının əsası olduğunu bildirir, Onun birliyinə inamı isə dinin birinci əsası olduğunu qeyd edir. Allahı tanıtdırdıqdan sonra məadı tanıtdırdı (Qiyamət gününə inam). Həmin gün insanın yaxşı və pis əməlləri Allah tərəfindən qiymətləndiriləcəkdir. Bunu alaraq ayrıca bir əsasa çevirdi. Sonra isə peyğəmbərtanımanı məadtanımanın nəticəsi kimi müəyyənləşdirdi. Çünki, yaxşı və pis əməllərin qarşılığı, əvvəlcədən nübüvvət və vəhy yolu vasitəsilə günahı, itaəti, pisi, yaxşını təbliğ etmədən verilərək həyata keçmir. Bu haqda gələcəkdə söhbət açacağıq.

Beləliklə, Peyğəmbəri tanımanı da bura əlavə edərək, Allahın birliyinə inanmağı (tövhidi), məadı və nübüvvəti Islam dininin əsası müəyyən etdi. Növbəti mərhələdə qeyd etdiyimiz üç əsasa münasib (uyğun) olan və hər həqiqəti sevən imanlı insanın daşımalı olduğu müsbət əxlaqi keyfiyyətləri qeyd edir. Bundan sonra isə insan xoşbəxtliyini tə'min edən, bəyənilmiş əxlaqı formalaşdıran, bundan əlavə,

ilkin əsasların və həqiqi əqidələrin inkişaf amili olan əməli qanunları izah edir. Çünki, heç cür mümkün deyil ki, hər hansı şəxs oğurluq, xəyanət, başqasının malını mənimsəmək, cinsi əlaqə kimi bir sıra məsələlərdə heç bir sərhəd gözləmədiyi təqdirdə, iffətli nəfsə malik olsun. Başqa sözlə, camaatın ödənilməsi vacib olan haqqını ödəməyərək, var-dövlət toplamağa başı qarışmış hansı şəxsin səxavətli olması qeyrimümkündür. Həmçinin, Allaha ibadət etməyən, Onu aylarla xatırlamayan bir şəxsin imanlı və Qiyamət günü mö'min bəndələrdən olacağını desək, yanılmış olarıq. Gözəl əxlaqi keyfiyyətlər əqidə əsasları ilə münasibətdə həmişəyaşar olduğu kimi, bu əxlaqi keyfiyyətlərin özü də bir sıra münasib əməllər vasitəsilə mövcudluğunu davam etdirir. Məsələn, təkəbbürlük, qürur, eqoistlik, başqasını bəyənməmək və s. mənfi keyfiyyətləri daşıyan şəxsin Allah qarşısında xüzu (təvazökarlıq qorxu ilə) və xüşuya (təvazökarlıq ümidilə) malik olmasını düşünmək yanlış fikirdir. Habelə, heç cür mümkün deyil ki, ömür boyu insafın, rəhmin, mərdliyin, məhəbbətin mə'nasını anlamayan şəxs Qiyamət gününə inanaraq ona iman gətirsin.

Allah-təala həqiqi əqidənin və onun bir növü olan bəyənilmiş əxlaqın insan əməli ilə bilavasitə əlaqədar olduğu haqda belə buyurur:

“Pak söz (tövhid kəlməsi, zikr, həmd-səna) (və bunları özündə birləşdirən Allaha əqidə) Ona tərəf yüksələr və pak sözü də (Allah dərgahına) yaxşı əməl qaldırar (Allah pak sözü eşidər , saleh əməli də qəbul edər)”. Əqidənin əməl ilə bağlılığı haqda isə belə buyurur: “Sonra da Allahın ayələrini yalan hesab edib onları məsxərəyə qoymaqla pislik edənlərin aqibəti lap pis oldu!” (ər-Rum, 10-cu ayə).

Bir sözlə, Qur’ani-Kərim üç ümumi bölmədən ibarət olan Islamın əsaslarını tam mə’nası ilə əhatə edir. Bu bölmələr aşağıdakılardan ibarətdir:

1. Islami əqidələrin əsasları. Dinin əsasları tövhid, nübüvvət və məad onun bir növüdür.

2. Bəyənilmiş əxlaq.

3. Şər’i hökmlər və əməli qanunlar. Qur’ani-Kərim bu qanunları ümumi şəkildə qeyd edərək, onların təfsilatı ilə izah olunmasını öz Peyğəmbərinin öhdəsinə qoymuşdur. Peyğəmbər də öz növbəsində, bütün Islam firqələrinin nəql etdiyi “Səqəleyn” hədisi vasitəsilə Əhli-beytin

bəyanını, öz bəyanı ilə eyni hüquqa malik olduğunu bildirmişdir.

## Qur'ani-Kərim nübüvvəti təsdiq edən sənəddir

Qur'ani-Kərim bir neçə yerdə açıq surətdə qeyd edir ki, o, Allahın kəlamıdır. Bu o deməkdir ki, Qur'ani-Kərim özünün məhz, bu sözləri ilə Allah tərəfindən nazil olmuş, və Peyğəmbər də onu həmin sözlərlə vəhy vasitəsilə qəbul edərək insanlara çatdırmışdır. Qur'anın bəşər kəlamı deyil, Allah tərəfindən nazil edildiyini, Allah kəlamı olduğunu sübut etmək üçün müxtəlif ayələrdə Qur'ani-Kərimin mö'cüzə olduğu və bəşər qüdrətinin fövqündə durduğu qeyd olunur. Buna misal olaraq, aşağıdakı ayələri göstərmək olar: "Yoxsa, onlar: "Onu (Qur'anı) özündən uydurmuşdur!"- deyirlər. Xeyr, onlar (həsədləri, təkübbürləri və inadları üzündən) iman gətirmirlər. Əgər doğru deyirlərsə, qoy onlar bunun (bu Qur'an) kimi bir kəlam gətirsinlər!"[1].

---

[1] Ət-Tur-33-34.

“(Ya Peyğəmbər!) De: “Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qur’ana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər”.[2]

“Yoxsa (müşriklər): “Onu (Qur’anı) özündən uydurdu!”-deyirlər. (Onlara) de: “Əgər doğru deyirsinizsə, onun kimi özünüzdən on surə uydurub gətirin və (bu işdə) Allahdan başqa, kimi bacarırsınızsa, onu da köməyə çağırın” (Hud-13-cü ayə).

“Yoxsa, “(Peyğəmbər) onu özündən uydurdu!”- deyirlər. De: “Əgər doğru deyirsinizsə, ona (Qur’ana) bənzər bir surə gətirin və Allahdan başqa, kimə gücünüz çatırsa, onu da (köməyə) çağırın!” (Yunus-38-ci ayə).

Qur’an yenə də Peyğəmbərlə(s) mübarizə aparmaq istəyənlərə xitabən buyurur:

“Əgər bəndəmizə (Mühəmmədə) nazil etdiyimiz (Qur’ana) şəkkiniz varsa, siz də (fəsahətdə və bəlağətdə) ona bənzər bir surə gətirin və əgər siz (bu, bəşər kəlamıdır iddianızda) doğrusunuzsa, onda Allahdan savayı (bütün şahidlərinizi, bütlərinizi, şair və alimlərinizi bu işdə köməyə) çağırın! (əl-Bəqərə –23cü ayə).

---

[2] Əl-Isra-88.

Yenə də, Qur’an özünün ziddiyyət və uyğunsuzluqdan kənar olduğunu vurğulayaraq, ona şəkk edənlərə qarşı çıxır:

“Onlar Qur’an barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar” (ən-Nisa-82-ci ayə).

Ona şəkk edənlərə qarşı çıxmaqla özünün Allah tərəfindən göndərildiyini deyən və özünü sübut edən Qur’an bir çox ayələrdə aydın şəkildə Mühəmmədin (s) Allahın rəsulu olduğunu qeyd edir. Beləliklə, Qur’an və Rəsuli-Əkrəmin peyğəmbərliyini təsdiq edən sənəd kimi çıxış edir. Elə buna görə də, Allahın kəlamında dəfələrlə Rəsuli-Əkrəmə əmr olunur ki, öz nübüvvətini sübuta yetirmək üçün Allahın şahid olmasına, yə’ni, Qur’anda onun peyğəmbərliyinin açıq-aydın qeyd olunmasına istinad etsin:

“(Ya Mühəmməd!) Kafirlər: “Sən Peyğəmbər deyilsən!” -deyirlər. (Onlara) belə cavab ver: “Mənimlə sizin aranızda (doğruluğuma) Allahın və kitabı bilənlərin (Tövratı, Incili bilən mö’min yəhudi və xaçpərəstlərin yaxud Qur’ana bələd olan mö’min

müsəlmanların və ya lövhi-məhfuzdan xəbərdar olan Cəbrailin) şahid olması yetər!” (ər-Rə’d-43-cü ayə).

Başqa bir yerdə isə Allahın şahid olmasından əlavə, mələklərin də şahid olduğu qeyd edilir:

“Lakin (ya Mühəmməd!) Allah sənə nazil etdiyi (Qur’anı)  Öz elmi ilə (özünə xas olan elm və hikmətlə) nazil etmişdir. Mələklər də buna şahidlik edirlər. Təkcə Allahın şahid olması yetər! (ən-Nisa –166-cı ayə).

# IKINCI FƏSIL

## Qur'ani-Kərimin tə'limi

1. Qur'ani-Kərim bütün dünya xalqlarının kitabıdır.
2. Qur'ani-Kərim kamil bir kitabdır.
3. Qur'ani-Kərim əbədi bir kitabdır.
4. Qur'ani-Kərim öz dəlalətində müstəqildir.
5. Qur'ani-Kərimin zahiri və batini vardır.
6. Nə üçün Qur'an zahir və batin haqda söhbət açır.
7. Qur'an ayələri möhkəm və mütəşabih olaraq iki yerə bölünür.
8. Müfəssirlərin (təfsirçilərin) möhkəm və mütəşabih haqda fikirləri.
9. Əhli-beytin (ə) Qur'anın möhkəm və mütəşabih ayələri barəsində söylədiyi fikirlər.
10. Qur'ani-Kərim tə'vil və tənzilə malikdir.
11. Müfəssirlərin tə'vilin hansı mə'na daşıdığı haqda söylədiyi fikirlər.
12. Qur'an terminalogiyasında tə'vilin mə'nası nədir?

13. Qur'ani-Kərimdə nasix və mənsux ayələr vardır.
14. Qur'anda cəry və intibaq.
15. Qur'ani-Kərimin təfsiri, onun yaranması və növbəti nəsillərə ötürülməsi.
16. Təfsir elmi və müfəssirlərin təbəqələri.
17. Şiə müfəssirlərinin özünəməxsus təfsir üslubu, onların təbəqələri.
18. Qur'ani-Kərimin özü hansı təfsiri qəbul edir ?
19. Bəhsin nəticəsi.
20. Qur'anın, Qur'an vasitəsilə təfsir olunmasına dair bir neçə nümunə.
21. Peyğəmbərin(s) və Əhli-beytin (ə) söylədiklərinin hüccət (əsas, sübut, dəlil) olmasının mə'nası.

## Qur'ani-Kərim bütün dünya xalqlarının kitabıdır

Qur'ani-Kərim əhatə etdiyi mövzular baxımından ərəblər kimi yalnız bir millətə yaxud müsəlmanlar kimi yalnız bir qrup insana aid deyil. Əksinə, Qur'an müsəlmanlara müraciət

etdiyi kimi qeyri-müsəlmanlarla da söhbət edir. Bu, onunla izah olunur ki, Qur'an bir çox ayələrdə müşriklərə, kitab əhlinə, nəsranilərə (məsihilərə ) yəhudi və bəni-israililərə qarşı çıxaraq onları haqqa doğru səsləyir. Qeyd etmək lazımdır ki, Qur'an dəlil və sübutlarla adlarını çəkdiyimiz qruplara qarşı çıxaraq, onları Islama də'vət edir və öz müraciətini heç bir zaman onların ərəb olması ilə məhdudlaşdırmır. Məsələn, Qur'ani-Kərim bütpərəstlər haqqında buyurur:

"Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələrimizi anlayıb-bilən bir tayfa üçün belə ətraflı izah edirik" (ət-Tövbə–11).

Yenə də Qur'an kitab əhli barədə buyurur:

"(Ya Mühəmməd) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! (O kəlmə budur:) Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub, bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək !"(Ali-Imran-64-cü ayə).

Ayələri nəzərdən keçirdikdə görürük ki, Qur'an "Əgər ərəb müşrikləri tövbə etsələr"-

buyurmayıb”. Həmçinin, “Ey ərəb millətindən olan kitab əhlidə deyə buyurmayıb.

Düzdür, Islamın yarandığı ilk dövrlərdə, yə’ni, Islama də’vətin Ərəbistan yarımadasının hüdudlarından kənara çıxmadığı bir dövrdə, təbii ki, Qur’an müraciətləri yalnız ərəb millətinə yetişirdi. Lakin hicrətin 6-cı ilindən e’tibarən, artıq Islam Ərəbistan yarımadasından kənarda təbliğ olunmağa başlandıqda, onun yalnız ərəblərə məxsusluğunu iddia etmək üçün heç bir əsas yoxdur. Islama də’vətin ümumi olduğunu Qur’ani-Kərimin ayələri də sübut edir. Məsələn: “Bu Qur’an mənə sizi və Ona (gələcəkdə) yetişəcək kimsələri (Qiyamətə qədər) xəbərdarlıq edib, qorxutmağım üçün vəhy olundu.” (əl-Ən’am-19-cu ayə).

“Halbuki, bu (Qur’an) aləmlərə (insanlara və cinlərə) ancaq bir öyüd-nəsihətdir!” (Sad-87-ci ayə).

“Həqiqətən, bu ayə insanları qorxudan ən böyük ayələrdən biridir. (əl-Müddəssir-36-cı ayə).

Tarixi qaynaqları araşdırdıqda da görürük ki, Islam bütpərəst, yəhudi, nəsrani kimi müxtəlif məzhəblərin nümayəndələri, həmçinin, salman Farsi, rumlu Səhib və həbəş Bilal kimi

müxtəlif millətlərin nümayəndələri vasitəsilə təbliğ edilmişdir.

## Qur'ani-Kərim kamil bir kitabdır

Qur'ani-Kərim insaniyyətin kamil hədəfini əhatə etməklə yanaşı, onu ən düzgün və ən mükəmməl metodlarla izah edir. Çünki, həqiqəti görüb onu sevməklə əsası qoyulmuş insaniyyət hədəfi  düzgün dünyagörüşünə malik olmaq, bu dünyagörüşünə münasib olan, habelə, onun ayrılmaz hissəsinə çevrilmiş əməli və əxlaqi keyfiyyətlərdən istifadə etməkdir. Qur'ani-Kərim toxunduğumuz bu məsələni ətraflı şəkildə şərh edərək buyurur:

"Onlar dedilər: "Ey qövmümüz! Biz Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri (Tövratı, Incili, Zəburu və səhifələri) təsdiq edən, (Allahın bəndələrini) haqqa və düz yola (Islam dininə) yönəldən bir kitab dinlədik!" (əl-Əhqaf-30 ayə).

"(Ya Mühəmməd!) Biz (Qur'anı) sənə haqq olaraq, özündən əvvəlki kitabı (bütün ilahi kitabları) təsdiq edən və onu qoruyan (və ya

onların doğruluğuna şahid) kimi endirdik" (əl-Maidə-48-ci ayə).

Qur'an keçmiş peyğəmbərlərin şəriətini əhatə etməsi haqda belə buyurur: "(Ya Peyğəmbər) Allah: "Dinini doğru tutun (qoruyub saxlayın) onda ayrılığa düşməyin!"- deyə, Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, Ibrahimə, Musaya və Isaya tövsiyə etdiyini dində sizin üçün də qanun etdi" (əş-Şura-13-cü ayə).

Başqa bir ayədə isə Qur'an ümumi surətdə buyurur: "Biz Qur'anı sənə hər şeyi (dini hökmləri, halal-haramı, günahı və savabı) izah etmək üçün nazil etdik!" (ən-Nəhl-89-cu ayə).

Qeyd olunmuş ayələr bir daha sübut edir ki, həqiqətən, Qur'an bütün səmavi kitabların əhatə etdiyi mövzulara şamil olmaqla yanaşı, bəşər övladının səadət və xoşbəxtlik yolunu keçməsi üçün ona lazım olan bütün əməli və əqidəvi prinsipləri tam mə'nası ilə əhatə edir.

## Qur'ani-Kərim əbədi bir kitabdır

Keçən fəsildə danışdıqlarımız bunu sübut etmək üçün kifayətdir. Çünki, hər hansı

mövzuya və ya məqsədə nisbətən, mütləq şəkildə daha üstün və kamil hesab olunan bəyanın düzgünlüyü zamanla məhdudlaşmır. Bunu nəzərə alaraq qeyd etmək lazımdır ki, Qur'ani-Kərim öz bəyanının kamil olduğunu buyurur.

Allah-təala ət-Tariq surəsinin 13-14-cü ayələrində buyurur: "Bu (Qur'an haqla nahaqı) ayırd edən kəlamdır! O, oyun-oyuncaq (əyləncə) deyildir!"

Qeyd etmək lazımdır ki, e'tiqad prinsiplərini özündə birləşdirən əqidə inamı tam bir həqiqətdir. Əxlaqi normalara və əməli qanunlara gəldikdə isə, bütün bunlar bu dəyişməz həqiqətlərin məhslu kimi ortaya çıxır. Həqiqətlər üzərində zaman heç bir tə'sirə malik deyil. Onlar heç vaxt batil olmur, başqası ilə əvəz edilmir. Allah-təala buyurur:

"Biz (Qur'anı) haqq olaraq nazil etdik, o da haqq olaraq (heç bir dəyişikliyə uğramadan) nazil oldu" (əl-Isra-105 ayə).

Başqa bir ayədə buyurur: "Artıq haqdan sonra zəlalətdən başqa nə qalır?!" (Yunus-32-ci ayə).

“O (Qur’an), şübhəsiz ki, çox dəyərli (qiymətli) bir kitabdır. Nə öncə, nə də sonra batil ona yol tapa bilməz” (Füsulət-41-42-ci ayələr).

Qur’an hökmlərinin əbədiliyi haqda çoxsaylı tədqiqatlar aparılmışdır. Bu haqda ətraflı danışırıq, əlinizdəki kitabın mövzusundan kənar olduğuna görə bununla kifayətlənirik.

Qur’ani-Kərim öz dəlalətində müstəqildir. Kəlamın bir növü olan Qur’ani-Kərim sair adi kəlamlar kimi müstəqil mə’nanı ifadə edir və öz mə’nasını ifadə etməkdə naqis deyil. Qur’anın hərfi tərcümədən anlaşılan mə’nanı deyil, başqa bir mə’nanı ifadə etməsi haqda isə heç bir sübut yoxdur. Bu onunla izah olunur ki, ərəb leksikologiyası ilə yaxından tanış olan hər bir şəxs Qur’an ayələrinin mə’nasını tam aydınlığı ilə başa düşür. Həmçinin, Qur’anda bir çox ayələrə rast gəlirik ki, burada insanlara “Əgər, Qur’anın Allah kəlamı olmasına inanmırsınızsa, onda buna bənzər bir kəlam gətirin!”-deyə, müraciət olunur. Aydındır ki, insanlarla ünsiyyətdə olmaq, müraciət etmək o zaman məntiqə uyğun sayılır ki, bu danışıq başa düşdüyü onların tərzdə aparılsın. Bundan başqa Allah-təala Məhəmməd surəsinin 24-cü ayəsində buyurur: “Onlar Qur’an barəsində

düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur?”.

Həmçinin, buyurur: “Onlar Qur’an barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar” (Əl-Nisa-82-ci ayə).

Bu ayələrdə Qur’an insanları onda düşünməyə səsləyir və ilk baxışdan insana ixtilaflı görünən ayələr üzərindəki şübhə bu düşünmə vasitə ilə aradan qalxır. Mə’lum məsələdir ki, əgər ayələr öz mə’nalarını aydın şəkildə ifadə etməsəydi, onlar üzərində düşünərək qarışıq nəzərə çarpan məsələlərin bu vasitə ilə həll olunmasının mümkünlüyü fikri də qeyri-məntiqi olardı.

Qur’an ayələrini düzgün başa düşmək üçün “Peyğəmbərin (s) və Əhli-beytin (ə) izahına müraciət olunmalıdır”-fikrindən başqa, Qur’anın zahiri mə’nasının hüccət olmaması haqda heç bir dəlil yoxdur. Lakin bu fikri düzgün hesab etmək olmaz. Çünki Peyğəmbərin (s) və Əhli-beytin (ə) izahının hüccət olmasını Qur’an vasitəsilə əsaslandırmaq lazımdır. Buna görə də Qur’anın mə’nasını, hüccət olmasını yalnız onların

izahına aid etmək düzgün deyil. Əksinə, nübüvvəti, imaməti sübut etmək üçün nübüvvətin sənədi  Qur'andan istifadə etmək lazımdır. Lakin bu o demək deyil ki, Peyğəmbər (s) və Əhli-beyt (ə) Qur'anın zahiri mə'nasından anlaşılmayan bir sıra şər'i qanunlara aid olan cüz'i məsələləri izah etməkdə mə'sul deyillər. Bunu sübut edən bir neçə ayəni nəzərdən keçirək.

"Sənə də Qur'anı nazil etdik ki, insanlara, onlara göndəriləni (hökmləri, halal-haramı) izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr!" (ən-Nəhl-44-cü ayə).

"Peyğəmbər sizə nə verərsə, onu götürün; nəyi qadağan edərsə, ondan əl çəkin" (əl-Həşr-7-ci ayə).

"Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik" (ən-Nisa-64-cü ayə).

(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur. (Bu Peyğəmbər) əvvəllər haqq yolundan açıq-aşkar azsalar da onlar (Allahın) ayələrini oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyir, onlara kitabı və hikməti (Qur'anı və şəriəti) ayələri" (əl-Cumuə-2-ci ayə).

Qeyd olunmuş ayələr bir daha sübut edir ki, Rəsuli-Əkrəm Qur'anın Allah tərəfindən göndərilmiş Ilahi müəllimidir. Peyğəmbər(s) də öz növbəsində, mütəvatir yolla nəql olunmuş "Səqəleyn" hədisində Əhli-beytin (ə) onun canişini olduğunu qeyd edir. Yə'ni, Peyğəmbərdən (s) sonra Qur'anın mə'na dərinliklərinə baş vurmaq adi şəxslərə deyil, yalnız mə'sum imamlara xas olan bir xüsusiyyətdir. Lakin bununla yanaşı, xüsusi tə'lim almış hər bir şəxs ayələrin zahiri mə'nasını anlamaq imakanına malikdir.

## Qur'ani-Kərimin zahiri və batini vardır

Allah-təala buyurur: "Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın" (ən-Nisa-36-cı ayə).

"Murdar (başdan ayağa murdarlıq olan) bütlərdən qaçın, yalan sözlərdən də (Allaha şərik qoşmaqdan da) çəkinin" (əl-həcc-30-cu ayə).

Qeyd olunmuş ayələrin zahiri mə'nası insanları bütə ibadət edərək Allaha şərik qoşmaqdan çəkindirir. Lakin bu ayələri təhlil etdikdə aydın olur ki, bütpərəstlik Allahdan

başqası qarşısında boyun əyərək ona bəndəçilik etmək olduğuna görə Allah tərəfindən qadağan edilmişdir. Allah-təala öz kəlamında insanlar tərəfindən bütün mə'buda çevirilməsini pisləyərək buyurur: “Ey Adəm övladı! Məgər, Mən (dünyada) sizə: “Şeytana ibadət etməyin, o sizin açıq düşməninizdir!”-deyə, buyurmadımmı?!”.

Bu təhlilə yöndən yanaşdıqda mə'lum olur ki, başqasına ibadət etməklə, insanın öz nəfsani istəklərinə ibadəti arasında heç bir fərq yoxdur. Yə'ni, Allahdan başqasına itaət etmək düzgün olmadığı kimi nəfsani istəklərinə də itaət düzgün deyil. Allah-təala  əc-Casiyə surəsinin 23-cü ayəsində buyurur: “(Ya Peyğəmbər!) Nəfsini özünə tanrı edən kimsəni gördünmü?”.

Bu ayənin təhlilində daha dərinliklərə baş vurduqda aydın olur ki, insan Allahdan başqasına həddən artıq diqqət yetirərək, ondan qəflət etməməlidir. Çünki, Allahdan başqasına həddən artıq diqqət yetirmək onun qarşısında kiçilmək və ona bəndəçilik etmək deməkdir. Allahdan başqasına iman gətirmək (ifrat bağlılıq), insan ibadətinin özəyini təmsil edərək, getdikcə onu zəlalətə sürükləyir. Bunu təsdiqləyən Allah kəlamını nəzərdən keçirək:

“Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) anlamazlar. Onların gözləri vardır, lakin onunla (Allahın mö’cüzələrini) görməzlər. Onların qulaqları vardır, lakin onunla öyüd-nəsihət eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!” (əl-Ə’raf-179 ayə).

Göründüyü kimi, “Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın!”[1] -ayəsindən öncə, Allaha şərik qoşmamaq, bütlərə sitayiş etməmək məfhumu anlaşılmır. Bu ayəyə ətraflı nəzər saldıqda anlaşılır ki, insan Allahın izni olmadan başqasına itaət etməməlidir.

Qeyd etməliyik ki, Qur’ani-Kərim ayələrinin mə’nası bir-birini izləyir və birinci mə’nadan anlaşılan məfhum növbəti mə’nalara zəmin yaradaraq, sanki bir körpü rolunu oynayır. Beləliklə, bir ayənin ilkin (zahiri) mə’nasından başqa, müxtəlif mə’na çalarlığı, batini mə’nası (daxili məzmunu) formalaşmış olur. Peyğəmbərdən (s) rəvayət olunan bir hədisdə bu barədə deyilir: “Qur’anın zahiri və batini (daxili

---

[1] Ən-Nisa-36.

məzmunu) vardır. Batinin bir batini, ondan sonra isə yeddiyə qədər batini vardır”.[2] Mühüm məsələlərdən biri də budur ki, işarə etdiyimiz bu iki mə’na, bir-biri ilə ziddiyyət təşkil etmir, əksinə, onlar biri-digərinin tamamlayıcısı rolunu oynayaraq, ayənin mə’nasını daha da düzgün əks etdirir. Yə’ni, heç bir zaman zahiri mə’nadan anlaşılan məfhum batini mə’nadan anlaşılan məfhumun əksinə çıxaraq onu inkar etmir. Həmçinin, batini mə’nada da bu uyğunluq mövcuddur.

## Nə üçün Qur’an zahir və batin haqda söhbət açır?

1.Insan həyatının ilkin mərhələsi dünyəvi həyatın müvəqqəti olması ilə yanaşı, maddiyat dənizinin dalğaları üzərində dolaşaraq, bu aləmlə sıx bağlı olan körpüyə bənzəyir. Onun daxili və xarici hissiyyatı maddi aləmlə bağlı olduğu kimi, fikirləri də bilavasitə onun hissiyyatı ilə əlaqədardır. Insanın yemək, içmək, oturmaq, qalxmaq, getmək və gəlmək kimi bütün işləri maddə üzərində formalaşır və bundan başqa heç

---

[2] Səfinətül-bihar, Batanə maddəsi.

bir fikri yoxdur. Insan dostluq, düşmənçilik, ucalıq və s. kimi mə'nəvi proseslər haqqında düşündükdə də onların məzmununu, xarici formalarını təsəvvür etməklə qavrayır. Məsələn; Qələbə şirinliyini şəkər şirinliyi ilə, dostluq cazibəsini maqnit cazibəsilə, insan ucalığını dağ ucalığı ilə müqayisə edir. Lakin buna baxmayaraq, insan fəhmi maddiyyat dünyası ilə müqayisədə, daha geniş dairəni əhatə edən mə'nəvi aləmə aid prosesləri dərk etməkdə müxtəlif qruplara (təbəqələrə) bölünür. Məsələn: Mə'nəvi dəyərlərin dərkində bə'zi insanların düşüncəsi sıfıra bərabər olduğu halda, digər insanlar bu dəyərlərin dərkində ən yüksək məqamlardan birini tutur. Insanın mə'nəvi dəyərləri dərk etmək bacarığı nə qədər artarsa, bir o qədər də maddi dünyaya və onun aldadıcı görünüşlərinə münasibəti azalacaqdır. Həmçinin, bu dəyərləri dərk etmək bacarığı məhdud olduqca, maddi dünyaya əlaqə daha da artacaqdır. Qeyd etmək lazımdır ki, bütün insanlar mə'nəvi dəyərləri dərk etmək iste'dadına malikdir. Onlar bu iste'dadı batil etməyincə, daha da inkişaf etdirmək mümkündür.

2.Belə alınır ki, insan fəhmində mövcud olan müxtəlif mərtəbələrin mə'lumatlarının hər birini, nisbətən aşağı mərtəbəyə məhkum etmək (məcbur etmək) mümkün deyil. Bunu etməyə çalışdıqda isə heç bir nəticə verməyəcək, xüsusilə də mə'nəvi proseslərin dərkində əgər onlar ümumi səviyyə nəzərə alınmadan təqdim olunarsa, tamamilə səmərəsiz qalacaq və məqsədini tam dolğunluğu ilə ifadə etməyəcəkdir. Buna misal olaraq bütpərəstliyi, məsələn, Hindistanda yayılmış bütpərəstlik məzhəblərindən birini özündə əks etdirən "Opanişad" (Upanishad[1]) kitabını göstərmək olar. Bu kitabın əhatə etdiyi mövzularla yaxından tanış olaraq, onları müqayisəli şəkildə mənimsəyən şəxsə aydın olacaqdır ki, bu kitab xalis tövhiddən və vahidpərəstlikdən başqa heç nəyi təbliğ etmir. Lakin təəssüflə qeyd etməliyik ki, bu kitab öz məzmununu elə bir formada təbliğ edir ki, artıq praktikida öz əksini bütpərəstlik kimi tapır. Maddə və təbiət fövqündə duran sirrləri maddi aləmlə bağlı olan insanlara çatdırdıqda onların səviyyəsi nəzərə

[1] Dünyanın ən qədim dinlərindən olan hinduizm dininin müqəddəs kitabı. Bu dinin sanskrit dilində yazılmış bir neçə fəlsəfi və dini kitabı vardır.

alınmalıdır və bu dəyərlər onlara sanki bir pərdə arxasından söylənilməlidir.

3.Bir sıra başqa dinlərdə bə'zi insanlar, məsələn, məsihi, kəlimi, brahma məzhəblərində qadın-sinfi, bütpərəstlik və məsihi dinində müqəddəs kitabların maarifinə ümumxalq müdaxiləsinin qeyri-mümkünlüyü kimi bir sıra dini məziyyətlərdən məhrumdur. Islam dini isə məzhəbi məziyyətlərdə heç bir sinif üçün məhrumiyyət müəyyən etməmişdir və dini imtiyazlardan istifadə də sünnilər, şiələr, qadınlar, kişilər, qaradərililər, ağdərililər, bir sözlə, bütün insanlar bərabər hüquqa malikdir.

Allah-təala Ali-Imran surəsinin 195-ci ayəsində buyurur: "Istər kişi, istərsə də qadın olun, Mən heç birinizin əməlini puça çıxarmaram. Siz (hamınız) bir-birinizdənsiniz (dində kişi, qadın eynidir).

Həmçinin, buyurur: "Ey insanlar! Biz sizi bir kişi və bir 5qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir)" (əl-Hucurat-13-cü ayə).

Bu müqəddimələri nəzərdən keçirdikdən sonra deyirik: Qur'ani-Kərim öz tə'limində bəşəriyyəti, onun dərketmə qabiliyyətini, fəhmini və səviyyəsini nəzərə almışdır. Yə'ni, Qur'an hər bir insanın insanlıq baxımından tərbiyə olunaraq kamala çatmasının mümkünlüyünü deyərək, tə'limini bəşəriyyət dünyasına təqdim edir. Qur'an mə'nəviyyatın dərkində insanların fəhminin kəskin surətdə fərqli olmasını nəzərə alaraq (qeyd etdik ki, yüksək mə'nəvi dəyərlər insanlara təqdim olunarkən onların səviyyəsinə uyğun gəlmədikdə, başqa cür (səhv) anlaşıla bilər) öz tə'limini onlara ən sadə formada, yə'ni, bütün insanların başa düşəcəyi formada təqdim etmişdir.

Belə fikir vurğulana bilər ki, yüksək mə'nəvi dəyərlər hamının başa düşə biləcəyi sadə dildə ifadə edilərək, elə vəzifələri onlara çatdırsın ki, zahiri mə'nalarından anlasınlar. Həmçinin, müəyyən pərdə arxasındakı mə'nəvi dəyərlər elə formada əks olunmalıdır ki, hər bir insan öz düşüncə səviyyəsinə uyğun olaraq bəhrələnə bilsin. Allah-təala buyurur: "Biz, onu anlaya biləsiniz deyə, ərəbcə Qur'an qərar verdik. Şübhəsiz ki, o, dərgahımızdakı əsl

kitabda (lövhi-məhfuzda) mövcuddur. O çox ucadır (bəşər fəhmi ona yetişmir), çox hikmətlidir (yaxud ayələri baxımından güclüdür), (yə'ni, fəhmlərin ona yolu yoxdur) (əz-Zuxruf-3-4-cü ayələr).

Başqa bir ayədə buyurur: "Allah göydən bir yağmur endirdi, vadilər öz tutumlarına görə onunla dolub daşdı" (əl-Rə'd-17).

Rəsuli-Əkrəmdən rəvayət olunan hədisdə deyilir:[1] "Biz peyğəmbərlər insanlarla, onların ağıl və düşüncə səviyyəsinə uyğun olaraq söhbət edirik."

Belə anlaşılır ki, Qur'anın mə'na və məzmunu, onun batini mə'naları ilə müqayisədə, sanki bir misal rolunu oynayır. Yə'ni, adi düşüncə səviyyəsinin fövqündə duran ilahi maarifi dərk etmək üçün (onları mə'na baxımından insan dərkinə yaxınlaşdırmaq) həmçinin, bu yüksək dəyərlərə mə'na körpüsü salmaq üçün insan fəhminə Allah tərəfindən hansısa məsələni başa düşməkdə misal çəkib (mə'nasını) onlara izah etdik. Lakin onların əksəriyyəti küfrdən başqa bir şeyə razı olmadı (ne'mətimizə nankor olub, yalnız küfrü seçdi).

---

[1] Biharul-ənvar, 1-35.

Habelə, buyurur: “Biz bu məsəlləri insanlar üçün çəkirik. Onları yalnız (haqqı) bilənlər anlayırlar” (əl-Əlkəbut-43-cü ayə).

Qur’ani-Kərim “məsəllər” haqda bir çox yerlərdə söhbət açır. Lakin bu iki ayə ilə kifayətlənirik. Sonda qeyd etməliyik Qur’anın söylədikləri, onun həqiqi məqsədi olan ali maarifə nisbətən, “məsəllərdən” ibarətdir.

## Qur’an ayələri möhkəm və mütəşabih[1] olaraq iki yerə bölünür

Allah-təala buyurur: “Bu, ayələri hikmət sahibi, (hər şeydən) agah olan (Allah) tərəfindən təsbit olunmuş bir kitabdır” (Hud-1-ci ayə).

Başqa bir ayədə buyurur: “Allah sözün ən gözəlini (Qur’anı, ayələri) bir-birinə bənzər, (xəbərləri və hekayətləri, əmrləri və qadağanları, və’dləri və təhdidləri) təkrarlanan bir kitab şəklində nazil etdi. Ondan (Qur’anın təhdidlərindən) Rəbbindən qorxanların tükləri biz-biz olar” (əz-Zusər-23-cü ayə).

[1] Mütəşabih-oxhar, bənzər deməkdir. Möhkəm-mə’nası aydın, hökmü bəlli olan.

Həmçinin, buyurur: “(Ya Mühəmməd!) Sənə kitab (Qur’anı) nazil edən Odur. Onun (kitabın) bir hissəsi (Qur’anın əslini, əsasını təşkil edən) möhkəm (mə’nası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (mə’naca bir-birinə oxşar, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi mə’na vermək məqsədilə mütəşabih ayələrə uyarlar. Halbuki, onların həqiqi izahını Allahdan (yaxud, Allahdan və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: “Biz onlara iman gətirdik, onların hamısı Rəbbimiz tərəfindəndir.”-deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər (Ali-Imran-7-ci ayə).

Aydın olduğu kimi, birinci ayə Qur’ani-Kərimin ayələrinin “təsbit olunmuş”-möhkəm olduğunu bildirir. Bu o deməkdir ki, Qur’an ayələri toxunulmazdır və onlara heç bir vasitə ilə xələl gətirmək olmaz. Ikinci ayədə, Qur’an ayələrinin mütəşabih (bir-birinə bənzər, oxşar) adlandırılması onların üslub gözəlliyi, ifadə tərzinin qeyri-adiliyi, fəsahət və bəlağət baxımından eyni biçimliliyi ilə izah olunur. Qeyd etməkdə əsas məqsədimiz olan üçüncü ayə isə, Qur’an ayələrini möhkəm və mütəşabih

olaraq iki yerə bölünür. Bu üç ayənin məzmununu nəzərdən keçirdikdə, aşağıdakılar anlaşılır:

1.Öz mə'nasını ifadədə möhkəm olan, habelə, ifadə etdiyi mə'nanın başqa bir mə'na ilə qarışıq salınması mümkün olmayan ayələrə möhkəm deyilir. Mütəşabih ayələr isə bunun əksinədir.

2.Hər imanlı şəxs borcludur ki, möhkəm adlandırılmış ayələrə iman gətirərək əməl etsin. habelə, mütəşabih adlandırılmış ayələrə də iman gətirsin. Lakin, onlara müstəqil surətdə əməl etməkdən çəkinməlidir. Yalnız yolunu azmış bir sıra şəxslər xalqı aldatmaq məqsədilə bu ayələrdən anladıqları mə'naya əsaslanaraq onlara əməl edirlər.

## Müfəssirlərin möhkəm və mütəşabih barədə fikirləri

Möhkəm və mütəşabihin mə'nası haqda Islam alimləri arasında ziddiyyətli fikirlər vardır. Belə ki, bu barədə iyirmiyə yaxın müxtəlif fikir mövcudluğunu müşahidə etmək olar. Ilk dövrlərdən başlayaraq bu günümüzədək,

müfəssirlər arasında özünə e’timad qazanmış fikir bundan ibarətdir:

Nəzərdə tutduğu mə’nanı aydın şəkildə ifadə edən və başqa bir mə’na ilə qarışıq düşməyən ayələrə möhkəm ayələr deyilir. Bu ayələrə iman gətirib əməl etmək lazımdır. Mütəşabih adlandırılmış ayələr o ayələrə deyilir ki, onların zahiri mə’nası əsas məqsəd olaraq nəzərdə tutulmayıb. Bu ayələrin ifadə etmək istədiyi mə’na tə’vil-izah (bu haqda ətraflı söhbət açacağıq) vasitəsilə müəyyənləşir. Qur’ani-Kərimin mütəşabih ayələrinin tə’vilini isə Allahdan başqa heç kim bilmir. Belə ayələrə hər bir şəxs iman gətirməlidir. Lakin onlara bilavasitə əməl etməkdən çəkinməlidir.

Bu fikir sünnilər tərəfindən qəbul olunmuş ən məşhur nəzəriyyədir. Şiələr də bu fikri qəbul edir. Lakin şiələr mütəşabih ayələrin tə’vilini (geniş izahını) Peyğəmbərin (s) və Əhli-beytin (ə) də bildiyini qeyd edirlər. Mütəşabih ayələrin izahına yolu olmayan amma mö’minləri (sünnilər) də, bu ayələrin tə’vilini Allaha, Peyğəmbərə(s) və Əhli-beytə aid etməlidir.

Faktiki şəkildə, bu fikrin müfəssirlərin əksəriyyəti tərəfindən e’timad qazanmasına baxmayaraq, bir neçə cəhətdən: “(Ya

Məhəmməd!) Sənə kitabı (Qur'anı) nazil edən Odur. Onun (Kitabın bir hissəsi (Qur'anın əslini, əsasını təşkil edən) möhkəm....."[1] ayəsinin mətninə, habelə, digər Qur'an ayələrinin mə'na üslubuna uyğun gəlmir. Bunu sübut edəcək aşağıdakı dəlilləri nəzərdən keçirək:

1.Qur'ani-Kərimdə elə bir ayə yoxdur ki, onun ifadə etdiyi mə'nanı müəyyənləşdirmək üçün heç bir vasitə-yol olmasın. Bundan başqa, Qur'ani-Kərim özünün nur, hidayət edən, bəyan edən kimi bir sıra sifətlər daşıdığını qeyd edir. Göstərir ki, nəzərdə tutduğu mə'nanı ifadə etməkdə naqis deyil.

"Onlar Qur'an barəsində düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar"[2]-ayəsi, "Qur'an barəsində düşünməyi" hər cür ixtilafı aradan qaldıran kimi təqdim edir.

Burada müfəssirlər tərəfindən qəbul olunmuş "məşhur fikirlə", qeyd etdiyimiz ayə arasında ziddiyyət yaranır. Çünki, "məşhur fikir"-dən doğan mə'naya görə, mütəşabih ayələrdə düşünmək onların ixtilafını həll etmir.

---

[1] Ali-Imran-7-ci ayə.

[2] Ən-Nisa-82-ci ayə.

Belə fikir deyilə bilər ki, mütəşabih ayələr hələ indiyədək hansı mə'nanı ifadə etməsi mə'lum olmayan müqəttəə[1] hərflərindən ibarətdir. Qeyd etməliyik ki, göstərilən ayədə mütəşabih ayələr, möhkəm ayələrin qarşılığı olaraq mütəşabih adlandırılmışdır. Bu "adlandırma", mütəşabih ayələrin hansı mə'nanı ifadə etməsi zərurətini, habelə, onun nəzərdə tutulan mə'nasının qeyri-həqiqi mə'na ilə qarışıq düşməsi zərurətini doğurur. Yə'ni, mütəşabih ayələrə verilən tə'rifdən aydın olur ki, onlar müəyyən leksik mə'naya malikdir. Müqəttəə hərfləri isə heç bir leksik mə'nanı ifadə etmir (mütərcim). Bu baxımdan, müqəttəə hərflərinin mütəşabih ayələr sırasına daxil edilməsi fikri yalnışdır. Həmçinin, ayədə (Ali-Imran-7) göstərilir ki, ürəklərində əyrilik olanlar fitnə-fəsad salmaq və istədikləri kimi mə'na vermək məqsədilə mütəşabih ayələrə uyar, onlardan istifadə edərlər. Bu söz (fitnə-fəsad məqsədilə istifadə etmək) müqəttəə hərfləri haqda deiylməmişdir. Öz məqsədlərinə uyğun şəkildə Qur'anı tə'vil (izah) edənlər, nəinki tək müqəttəə hərflərindən, habelə, bütün Qur'andan istifadə etmişlər.

[1] Bir sıra surələrin əvvəlində ihlənmih hərflər.

Bir sıra müfəssirlərin fikrincə ayədə mütəşabihin izah olunması Peyğəmbər(s) dövründə baş vermiş hadisəyə[2] işarə edir. Bu hadisənin məzmunu belədir ki, bir qrup yəhudi müqəttəə hərflərindən istifadə etməklə, Islamın nə qədər davam edəcəyini müəyyənləşdirmək istəyirdilər. Peyğəmbər (s) onların bu hiyləsini puç etdi.

Bu fikir də əsassızdır, çünki bu hadisənin həqiqətən baş verdiyini qəbul etdiyimiz təqdirdə belə, bu fikir bir neçə yəhudi tərəfindən irəli sürülmüşdür və onlar dərhal lazımi cavabı aldılar. Ümumiyyətlə, bu hadisə çox böyük əhəmiyyət kəsb etmir. Habelə, yəhudilərin bu sözü heç bir təhlükə yaratmırdı. Çünki, hər hansı bir dinlə əvəz olunma ehtimalı, heç də onun həqiqiliyini şübhə altına almır. Buna misal olaraq, Islamdan qabaqkı haqq dinləri göstərmək olar.

Bu sözün tələbinə əsasən işlənmiş tə'vil (izah) sözü yalnız mütəşabih ayələrə məxsusluqla yanaşı, zahiri mə'nanın əksi olmalıdır. Lakin, bu fikir yanlışdır və biz gələcəkdə tə'vil haqda ətraflı danışarkən aşağıdakıları izah edəcəyik:

---

[2] Əyyami təfsiri 1/16. Nurus-Səqəleyn 1/22.

1.Tə’vil (izah) hansısa sözün leksik yolla ifadə etdiyi mə’naya deyilir.

2.Nəinki mütəşabih ayələrin, ümumiyyətlə, bütün Qur’an ayələrinin tə’vili (geniş izahı) vardır.

Qeyd etmək lazımdır ki, (Ali-Imran surəsi, ayə 7) möhkəm ayələrin Qur’anın əsasını təşkil etməsi göstərilir. Bu o deməkdir ki, möhkəm ayələr Qur’anın əsas mövzularını əhatə edir və digər ayələrin mövzuları məhz, möhkəm ayələrə əsaslanaraq onlardan yaranır. Yə’ni, mütəşabih ayələrin mə’nasını aydınlaşdırarkən (mütləq) onları möhkəm ayələrlə müqayisə etməli və möhkəm ayələrin yardımı ilə onların mə’nasını müəyyənləşdirmək gərəkdir. Beləliklə, Qur’anda elə bir ayə yoxdur ki, onun həqiqi mə’nasını müəyyənləşdirmək mümkün olmasın. Qur’an ayələri möhkəm ayələr kimi ya bilavasitə möhkəmdir, ya da mütəşabih ayələr kimi müəyyən vasitə ilə möhkəmdir. Müqəttəə ayələrinə gəldikdə isə qeyd etmək lazımdır ki, onlar leksik mə’na daşımadıqlarına görə bu iki bölgüyə daxil deyil.

Bütün bu dediklərimiz: “Onlar Qur’an barəsində düşünməzlərmi? Yoxsa, ürəklərinə

kilid vurulmuşdur?”[1] -ayəsindən, habelə: “Onlar Qur’an barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu zidiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar”[2]-ayəsindən anlaşılır.

## Əhli-beytin (ə) Qur’anın möhkəm və mütəşabih ayələri barəsində fikirləri

Əhli-beytin (ə) bu barədə fikirlərindən mə’lum olur ki, Qur’anda mə’nasının tapılması mümkün olmayan mütəşabih ayə yoxdur. Əgər hansısa ayə öz həqiqi mə’nasını ifadə etməkdə müstəqil deyilsə (bilavasitə onu ifadə etmirsə), başqa ayələrin köməkliyi ilə onun həqiqi mə’nasını müəyyən-ləşdirmək lazımdır. Bu özü mütəşabihin möhkəm ilə müqayisəli şəkildə açıqlanması deməkdir. Məsələn, Taha surəsinin

---

[1] Məhəmməd-24 ayə.
[2] Ən-Nisa-82.

5-ci ayəsinin, habelə, Fəcr surəsinin 22-ci ayəsinin hərfi tərcüməsindən anlaşılan mə'na Allahın cism və maddə olduğunu əks etdirir: "Allah öz taxtında qərar tutmuşdur" (Taha-5-ci ayə). "Allahın gəldi". (Əl-Fəcr-22-ci ayə)". Lakin bu ayələri əş-Şura surəsinin 11-ci ayəsi ilə: "Ona bənzər heç bir şey yoxdur" müqayisə etdikdə mə'lum olur ki, ayələrdə Allaha aid edilən "qərar tutmaq" və "gəlmək" sözlərindən məqsəd heç də hansısa məkanda yerləşmək və ya bir məkandan digərinə keçmək deyil. Çünki, bu xüsusiyyətlər yalnız insana məxsusdur və onları Allaha aid etmək: "Ona bənzər heç bir iş yoxdur"-ayəsindən anlaşılan mə'naya ziddir (Mütərcim).

Peyğəmbər (s) Qur'an haqqında belə buyurur: "Qur'an buna görə nazil olmamışdır ki, onun bə'zi ayələri bir sıra başqa ayələrini təkzib etsin. Qur'an bunun üçün nazil olmuşdur ki, onun ayələri bir-birini təsdiq etsin. Beləliklə, Qur'an ayələrindən baş düşdüklərinizə əməl edin və sizə mütəşabih olan ayələrə isə iman gətirin." Əmir-əl-mö'minin Əli (ə) buyurur: "Qur'anın bir hissəsi digər bir hissəsini təsdiqləyir."[1]

[1] Nəhcül-bəlağə, 131-ci xütbə.

Altıncı Imam Cə'fəri Sadiq (ə) buyurur[2]: "Qur'anın möhkəm ayələri o ayələrə deyilir ki, onlara əməl etmək olar. Mütəşabih ayələr isə bilməyənlər üçün mütəşabihdir." Rəvayətdən aydın olur ki, möhkəm və mütəşabih anlayışı nisbidir. Yə'ni, bir ayə hansısa bir şəxsə nisbətən möhkəm olduğu halda, digər şəxsə nisbətən isə mütəşabih olur. Səkkizinci Imamdan nəql olunan aşağıdakı rəvayətə[1] nəzər salaq: "Qur'anın mütəşabih ayələrini möhkəm ayələrlə müqayisəli şəkildə öyrənən şəxs düzgün yola hidayət olunar." Sonra isə buyurur: "Qur'anda mütəşabih ayələr olduğu kimi, bizim hədislərdə də mütəşabih olanlar vardır. Bu mütəşabihləri onların möhkəmləri ilə müqayisəli şəkildə öyrənin. Mütəşabihin özünə itaət etməyin ki, yolunu azmışlardan olarsınız."

Rəvayətlər bir daha sübut edir ki, mütəşabih ayələr öz mə'nasını müstəqil surətdə ifadə etməyən, möhkəm ayələr vasitəsilə açıqlanan, izah olunan ayələrə deyilir. Bu o demək deyil ki, onların mə'nasını əldə etmək üçün heç bir vasitə yoxdur.

---

[2] Əyyahi-təfsiri 1/162.

[1] Uyunu-əxbarir-Rza 1/290.

## Qur'ani-Kərim tə'vil[2] və tənzilə[3] malikdir

"Qur'anın tə'vili" ifadəsi, Qur'anın üç yerində qeyd olunmuşdur:

1.Ali-Imran surəsi, 7-ci ayə (ayənin tərcüməsini qeyd etdik).

2.Əl-Ə'raf surəsi, 52-53-cü ayələr.

"Həqiqətən, Biz onlara (Məkkə müşriklərinə və kafirlərinə) elmlə müfəssəl izah etdiyimiz, inanan bir qövm üçün hidayət və mərhəmət olan (dini vəzifələrini öyrətmək üçün mükəmməl) bir kitab (Qur'an) gətirdik. Onlar (kafirlər) ancaq aqibətimi (kitabın xəbər verdiyi aqibətimi) gözləyirlər? Onun xəbər verdiyi aqibət (Qiyamət) gəlib çatdığı gün əvvəllər onu unutmuş olanlar deyəcəklər: "Doğrudan da Rəbbimizin peyğəmbərləri haqlı (doğru xəbərlərlə) gəlmişlər".

3.Yunus surəsi, 39-cu ayə.

"Xeyr, o kafirlər elmini qavaraya bilmədikləri və hələ yozumu (müşriklərə, kafirlərə və'd edilmiş əzab) onlara gəlib çatmamış Qur'anı yalan hesab etdilər. Onlardan

---

[2] Izaha ehtiyacı olan mə'na.

[3] Tə'vilin əksinə olaraq, zahiri mə'nadan anlahılan mə'na.

əvvəlkilər də (Allahın əmrlərinin, ilahi kitabları, öz peyğəmbərlərini) təkzib etmişdir. Bir gör, zalimlərin axırı necə oldu!”.

Tə’vil sözünün “ilk baxışda” mə’nası, rücu-qayıdışdır. Tə’vil dedikdə o mə’na nəzərdə tutulur ki, ayə həmin mə’naya qayıdır (həmin mə’nanı dolayısı ilə ifadə edir). Tənzil sözünün mə’nası isə tə’vilin əksinə olaraq, hərfi tərcümədən anlaşılan “aydın mə’na” deməkdir.

## Müfəssirlərin tə’vilin mə’nalarına fikirləri

Bu haqda bir çox ziddiyyətli fikirlərin olmasına baxmayaraq, ən əsasları aşağıdakılardır:

1. **Qədim müfəssirlərin fikri**. Onlar tə’vil sözünün mə’nasının “təfsir” olduğunu qeyd edirlər. Bu təbəqənin fikrincə, bütün Qur’an ayələri tə’vil-təfsir olunur, lakin mütəşabih ayələrə gəldikdə isə onların tə’vilini Allahdan başqa heç kəs bilmir. Elə buna görə də qədim bir qismi müqəttəə hərflərini Qur’ani-Kərimin mütəşabih ayələri kimi qələmə vermişlər. Çünki, Qur’anda müqəttəə hərflərindən başqa elə bir ayə yoxdur ki, onun ifadə etmək istədiyi mə’na

insanlara məchul qalsın. Bu fikrin düzgün olmadığını artıq sübut etmişik. Müqəttəə hərflərinin mütəşabih ayələr sırasına daxil edilməsinin qeyri-düzgünlüyünü, habelə, Qur'anda anlaşılmaz ayənin mövcud olmadığını nəzərə almaqla, bu fikir mütəəxxirin (son dövr müfəssirləri) tərəfindən qəbul olunmur.

2. **Mütəəxxirin** son dövr müfəssirlərin fikri. Bu cərəyanın fikrincə, tə'vil, deyilən kəlamdan nəzərdə tutulmuş zahiri mə'nasının əksi deməkdir. Buna görə də bütün Qur'an ayələri deyil, yalnız mütəşabih ayələr tə'vilə, zahiri mə'nanın əksi olan mə'naya malikdir ki, Allahdan başqa heç kəs onları (tam mə'nası ilə) açıqlaya blməz. Bu ayələrə misal olaraq, mə'sum-günah etməyən peyğəmbərlərin günah etdiyini qeyd edən, habelə, Allaha getmək, gəlmək, razı olmaq, təəssüflənmək və s. kimi maddəyə (cismə) xas olan bir sıra sifətləri aid edən ayələri göstərmək olar. Bu fikir nisbətən məşhur olsa da, onu Qur'an ayələrinə aid etmək olmaz. Bunu aşağıdakı dəlillərlə sübut etməyə çalışacağıq:

1.Əl-Ə'raf surəsinin 53-cü, Yunus surəsinin isə 39-cu ayəsi yuxarıdakı fikrin əksinə olaraq

sübut edir ki, təkcə mütəşabih ayələr deyil, bütün ayələr tə'vilə malikdir.

2.Həmin fikrin tələbinə əsasən, Qur'anda elə ayələr olmalıdır ki, onların mə'nasını Allahdan başqa heç kəs bilməməlidir, yə'ni bu ayələrin ifadə etmək istədiyi mə'na insanlara məchul qalmalıdır. Belə olduğu təqdirdə, kəlamın bəlağətli və fəsahətli olduğunu söyləmək məntiqə uyğun deyil.

Qur'ani-Kərim isə bəlağətin ən yüksək zirvəsində olduğu-"belə bir Qur'an yaradın"-deyə bütün dünyanı mübarizəyə səsləməsi ilə, (və bir çox digər dəlillərlə) sübuta yetirilmişdir.

3.Bu fikrə əsasən, Qur'anın insanlar üzərindəki hüccəti tamamlanmış olur. Çünki: "Onlar Qur'an barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar"[1]-ayəsinin sübut etdiyi kimi, Qur'anın bəşərin kəlamı olmamasının dəlillərindən biri də budur ki, onun ayələri müxtəlif zaman və şəraitlərdə nazil olmasına baxmayaraq, onda heç bir mə'na ixtilafı yoxdur. Qarşıya çıxan və subyektin özü tərəfindən olan hər bir

---

[1] Ən-Nisa-82 ayə.

anlaşılmazlıq isə, onda “düşünmək” vasitəsilə aradan qaldırılır.

Mütəşabih ayələrin bir çoxunun möhkəm ayələrlə ixtilafa malik olduğunu fərz edərək, bu ixtilafın onların zahiri mə’nanı deyil fikri ilə heç bir ziddiyyəti yoxdur. Həmçinin, bu uyğunsuzluğu aradan qaldırarkən möhkəm ayələrin məzmununa uyğun gəlməyən hər bir mütəşabih ayəni tə’vil vasitəsilə zahiri mə’nanın əksinə aid etdikdə də vəziyyət eynilə təkrar olunur.

4.Ümumiyyətlə, mütəşabih və möhkəm ayələrdə “tə’vildə məqsəd zahiri mə’nanın əksidir” fikrini sübut edəcək hansısa dəlil yoxdur və tə’vilin qeyd olunduğu digər Qur’an ayələrində belə bir mə’na nəzərdə tutulmayıb. Məsələn, Yusif Peyğəmbərin[1] (ə) əhvalatında üç yerdə yuxu yozumu tə’vil adlandırılmışdır. Aydındır ki, yuxu yozumu yuxunun zahiri mə’nasının əksi deyil və o, insana özünəməxsus tərzdə görünən bir həqiqətdir. Buna misal olaraq, Yusif (ə) atasının, anasının və qardaşlarının torpağa düşməsini, Günəşin, Ayın, ulduzların ona səcdə etməsi formasında, Misirdəki 7 illik aclığı 7 arıq inəyi, 7 kök inəyin yeməsi

[1] Yusif Peyğəmbərin(ə) yuxusu Yusif surəsinin 3-cü ayəsində qeyd olunub.

formasında görməsini və s. göstərmək olar. Həmçinin, Musa və Xızır peyğəmbərlərin(ə) hekayəsində[2] Xızır Peyğəmbər(ə) gəmini deşdikdən, oğlanı öldürdükdən, sökülmüş divarı tikdikdən (hər dəfə də Musa peyğəmbər(ə) ona e'tiraz edirdi) sonra Allahın əmri ilə həyata keçirdiyi işləri tə'vil (izah) etməyə başladı. Mə'lum məsələdir ki, "iş" formasında meydana çıxan "əsas məqsəd və həqiqi qayə" zahiri mə'nanın əksi deyil, tə'vil adlanır.

Allah-təala ölçü haqqında belə buyurur: "Ölçəndə ölçüdə düz olun, (çəkidə) düzgün tərəzi ilə çəkin. Bu sizin üçün daha xeyirli və nəticə e'tibarı ilə (tə'vil cəhətdən) daha yaxşıdır!" (əl-Isra-35-ci ayə). Aydındır ki, burada "çəkinin" tə'vilində məqsəd, "ədalət" bazarında insan həyatının ehtiyaclarını tə'min edən zaman yaranmış xüsusi iqtisadi bir vəziyyətdir. Ayədə işlənmiş tə'vil sözü çəki və ölçünün zahiri mə'nasının əksi deyil, çəki daxilində yaranaraq "nəticə e'tibarı ilə" özünü göstərən xarici bir həqiqətdir. Tə'vil sözünün işləndiyi başqa bir ayəyə nəzər salaq: "Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və

[2] Əl-Kəhf, 71-82.

Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və (tə'vil cəhətdən) nəticə e'tibarilə daha yaxşıdır" (ən-Nisa-59-cu ayə).

Göründüyü kimi, mübahisənin Allaha və Peyğəmbərə(s) həvalə edilməsinin tə'vili (nəticəsi) cəmiyyət daxilində həmrə'yliyin yaranması deməkdir. Bu özü-özlüyündə mübahisənin həvalə olunmasının zahiri mə'nasının əksi deyil, bir həqiqətdir.

Ümumiyyətlə, tə'vil sözü Qur'anda 16 yerdə işlənmişdir. Bu yerlərin heç birində (yuxarıda göstərdiyimiz kimi) tə'vilin "zahiri mə'nanın əksi" olduğunu göstərmək olmaz. Əksinə (növbəti fəsildə bu aydın olacaq), tə'vil elə bir mə'nanı ifadə edir ki, onun bu mə'nası möhkəm və mütəşabih ayələr haqda qeyd olunmuş "tə'vil" sözünə uyğun gəlir. Lakin buna baxmayaraq, qeyd etdiyimiz ayələrdə tə'vilin "zahiri mə'nanın əksi" olduğunu söyləmək üçün əlimizdə heç bir əsas yoxdur.

## Qur'an terminologiyasında tə'vilin mə'nası yoxdur?

Tə'vil sözünün işləndiyi ayələrdən mə'lum olur ki, onun mə'nası hərfi tərcümənin ifadə etdiyi mə'na deyil. Habelə, Yusif surəsində qeyd olunmuş yuxulardan aydın olur ki, burada yuxunu izah edən sözün, yuxunun tə'vilinə (yozumuna) heç bir aidiyyatı yoxdur (yə'ni, yuxu və onun tə'vil adlanan yozumu tamamilə bir-birindən fərqlənir-mütərcim). Musa(ə) ilə Xızırın(ə) hekayəsində də hekayənin sözləri Xızırın(ə) Musaya(ə) etdiyi tə'vilə (izaha) dəlalət etmir. Qeyd etdiyimiz ayələrdə də vəziyyət eynilə təkrar olunur. Məsələn: "Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!"-ayəsində hərfi tərcümə onun tə'vili (izahı, nəticəsi) olan "müsəlmanların birliyinə" dəlalət etmir. Başqa ayələri də diqqətlə nəzərdən keçirdikdə vəziyyətin bu formada olmasının şahidi oluruq.

Bəlkə də yuxunun tə'vili (yozumu), yuxunu görən şəxsə xüsusi formada cilvələnmiş xarici bir həqiqətdir. Habelə, Musa(ə) ilə Xızırın(ə) hekayə-sində, Xızırın (ə) tə'vili onun gördüyü bütün işlərin qidalandığı, başlanğıc götürdüyü bir həqiqətdir və burada işin özü, öz tə'vilini əhatə edir. Çəkinin düzgünlüyünü əmr edən

ayənin tə'vili bu əmri formalaşdıran, onu əsaslandıran ümumi bir həqiqət və məsləhətdir. Mübahisələrin Allaha və Peyğəmbərə (s) həvalə olunmasını buyuran ayədə də bunun şahidi oluruq.

Beləlikə, hər şeyin başlanğıc götürdüyü həqiqətə onun tə'vili deyilir. Bu həqiqət onu formalaşdıraraq, onun nişanəsinə çevrilir. Tə'vilin yaranması bilavasitə onun "sahibi" ilə əlaqədardır. Qeyd etdiyimiz bu mə'nanı Qur'ani-Kərimə də aid etmək olar. Çünki bu müqəddəs kitab öz başlanğıcını insan hissiyyatının fövqündə duran mə'nəvi keyfiyyətlərdən və həqiqətlərdən götürür. Bu mə'nəvi keyfiyyət və həqiqətləri sözlə ifadə etmək mümkün deyil. Yalnız bunu demək mümkündür ki, bu sözlərlə bəşəriyyət aləminə xəbərdarlıq olunur və göstərilir ki, saleh əməllərlə özlərini səadətə sövq etsinlər. Bu həqiqətlərə yalnız onları dərk etməklə yol tapmaq mümkündür və yalnız Qiyamət günü bu həqiqətlər tam mə'nası ilə aydın olacaq. Bunu aşağıda qeyd etdiyimiz ayələr bir daha sübut edir.

"(Haqqı batildən ayıran) açıq-aydın kitaba and olsun ki, Biz onu anlaya biləsiniz deyə, ərəbcə Qur'an qərar verdik. Şübhəsiz ki, o,

dərgahımızdakı əsl kitabda (lövhi-məhfuzda) mövcuddur. O, çox ucadır (adi fəhm ona yetişməz), çox hikmətlidir (yaxud ayələr baxımından çox möhkəmdir).[1]

Ayənin qeyd olunmuş mə'naya tə'vil olunmasına uyğunluğu aydındır.

Ayənin sonunun tə'vil olunduğu, qeyd etdiyimiz mə'naya uyğun gəlməsi aydındır. Xüsusilə də ayədə: "bəlkə onu anlayasınız" deyil, "bəlkə anlayasınız" qeyd olunması diqqəti cəlb edir. Çünki, tə'vili bilmək möhkəm və mütəşabih ayəsinin qeyd etdiyi kimi, yalnız Allaha məxsusdur. Habelə, mütəşabih ayələri öz məqsədləri üçün istifadə etməkdə yolunu azmışları günahlandıran möhkəm və mütəşabih ayəsində qeyd olunur ki, onlar mütəşabih ayələrin tə'vilini axtarır. Ayədə göstərilmir ki, onlar bu tə'vili "tapırlar." Bundan belə bir nəticə alırıq ki, Qur'anın tə'vili Allah dərgahında lövhi- məhfuzda olan həqiqətlərdən ibrətdir və onlar yalnız qeyb aləminə məxsusdur.

Allah-təala başqa bir ayədə buyurur: "Ulduzların (bürclərdəki) mənzillərinə (yaxud doğub-batdığı yerlərə) and olsun ki, kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz,

---
[1] Əz-Zuxruf-2-4-cü ayələr.

(sizə oxunan) bu (kəlam) çox qiymətli Qur'andır. (O Allah dərgahında) qorunub saxlanılan bir kitabdır (lövhi-məhfuzdadır, yaxud lülələnib bükülmüş kağızlardır).

Ona yalnız pak olanlar toxunar!

(O), Aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir" (əl-Vaqiə-75-80-ci ayələr).

Ayədən aydın olduğu kimi, Qur'an iki məqama malikdir.

1.Tənzil məqamı (yəni, Qur'an Allah tərəfindən nazil edilmişdir). Bu məqam insan üçün anlaşılandır.

2.Məhfuz məqamı (qorunub saxlanılan, gizli məqam). Bu məqam insan anlamının fövqündə durur.

Bu ayədən və bundan əvvəl qeyd etdiyimiz başqa ayələrdən mə'lum olur ki, "illəl mutahhərun" (yalnız pak olanlar) istisnasının tələbinə əsasən, Qur'anın həqiqət və tə'vilinə də məhz bu insanlar yetişə bilər. Bu isbat "onun tə'vilini (həqiqətini) Allahdan başqa heç kəs bilmir"-ayəsinin nəfyi (inkarı) ilə heç bir ziddiyyət təşkil etmir. Çünki, bu iki ayənin qarşılıqlı məzmunu istiqlal və itaətlə nəticələnir. Bu o deməkdir ki, Allah bu həqiqətləri bilməkdə müstəqildir və Onun izni olmadan, heç kəs bu

həqiqətləri bilməyəcəkdir. Qeyb aləmindən xəbərdar olmaq da bunun kimidir. Onu yalnız Allah və onun bəyəndiyi (seçdiyi) insanlar bilir.

Bəyənib seçdiyi Peyğəmbərdən başqa, (Qeybi nə bir mələk, nə də bir peyğəmbər bilər. Onun açarları ancaq Allahın əlindədir. Lakin, Allah istədiyi peyğəmbərə bir mö'cüzə olaraq vəhy yolu ilə qeybdən bə'zi xəbərlər bildirər)" (əl-Cinn-27-ci ayə).

Bütün dediklərimizdən belə nəticə alırıq ki, qeyb aləmini bilmək, bilavasitə (müstəqil surətdə) Allaha məxsusdur və Allahın izni olmadan heç kəs ona layiq deyil. Qeyd etdiyimiz ayələrin təsdiq elədiyi kimi, yalnız pak insanlar Qur'anın həqiqətini dərk edir. Allah əl-Əhzab surəsinin 33-cü ayəsində buyurur: "Siz ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz (pak) etmək istər!".

Ayənin məzmunu bir çox hədislərdə də qeyd olunmuşdur. Bu ayə və hədislərə əsasən, Peyğəmbərin (s) Əhli-beyti (ev əhli) pak olan insanlar, habelə, Qur'an tə'vilini bilən şəxslərdir.

## Qur'ani-Kərimdə nasix və mənsux ayələr vardır

Bir sıra şər'i hökmləri əhatə edən ayələr nazil olduqdan sonra özlərindən əvvəl nazil olmuş ayələrin yerini tutaraq, zaman e'tibarilə onların fəaliyyətinə son qoyur. Bu zaman əvvəlcədən nazil olmuş və başqası ilə əvəz olunan ayə mənsux, nazil olduqdan sonra özündən qabaqkı ayənin yerini tutan ayə isə nasix adlanır.

Ayədəki şər'i hökm nəsx (başqa ayə ilə əvəz) olunduqdan sonra artıq nəsx olunmuş ayənin hökmü, yeni bir şər'i hökmlə əvəz olunur. Məsələn, Islamın yarandığı ilk dövrlərdə aşağıdakı ayədən göründüyü kimi, müsəlmanlara kitab əhli ilə sülh şəraitində yaşamaq əmr olunur: "(Ey mö'minlər) Kitab əhlindən başqa bir çoxu həqiqət onlara bəlli olduqdan sonra belə, təbiətlərindəki həsəd (paxıllıq) üzündən sizi, iman gətirmiş olduğunuz halda, yenidən küfrə sövq etmək istərlər. Allahın əmri gəlincəyə qədər (hələlik) həmin şəxsləri əfv edin və onları qınamayın" (əl-Bəqərə-109-cu ayə).

Qısa bir müddət keçdikdən sonra "sülh şəraitinə" son qoyulur: "Kitab əhlindən Allaha və Qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərin haram buyurduqlarını haram

bilməyən və haqq dini (islamı) qəbul etməyənlər zəlil vəziyyətə düşüb özləri ilə cizyə verincəyə qədər vuruşun” (ət-Tövbə-299-cu ayə).

Insanların başa düşdüyü nəsx (dəyişdirmək, batil etmək, əvəz etmək, çevirmək mə’nasını ifadə edir) bundan ibarətdir ki, biz bir hökmü qanunu müəyyən edirik. Qısa müddət keçdikdən sonra isə bunun səhv olduğunu başa düşüb, onu digərilə əvəz edirik. Bu mə’nada, anlaşılan nəsxi Allah-təalaya nisbət vermək olmaz. Çünki, bu mə’nanın tələbinin əsasında, cəhalət və nadanlıq durur. Ayələri arasında heç bir ixtilafı olmayan Qur’ani-Kərimdə belə bir hökm yoxdur. Qur’ani-Kərimdə ayənin nəsx olunması dedikdə, nəsx olunmuş (dəyişdirilmiş) hökmün e’tibarlı sayıldığı müddətin sona yetdiyi anlaşılır. Yə’ni, burada müəyyən edilmiş hansısa hökmün icrasının müvəqqəti olması, Islamın və müsəlmanların mənafeyinə uyğunluğu ilə səciyyələnir. Qısa bir müddət keçdikdən sonra ikinci bir hökm meydana çıxaraq, birinci hökmün icra olunma müddətinin sona yetdiyini bildirir. Qur’ani-Kərimin 23 il ərzində tədricən nazil olmasını nəzərə aldıqda, onun belə şər’i hökmləri əhatə etməsi haqda tam təsəvvür yaranır.

Təbii ki, sabit bir qanun müəyyən etməsi üçün lazımi şəraitin olmadığı yerdə, müvəqqəti qanun yaradaraq sonradan onu sabit qanuna çevirmək heç bir eyb və naqisliyə dəlalət etmir. Qur'ani-Kərimdə də, nəsx məhz, bu mə'nada anlaşılır. Allah-təala buyurur: "Biz bu ayənin hökmünü ləğv edib onu başqası ilə əvəz etdikdə- Allah nə nazil etdiyini (hansı hökmün bəndələri üçün daha münasib olduğunu) Özü daha yaxşı bilir (kafirlər Mühəmmədə): "Sən ancaq bir iftiraçısan (Allahın adından yalan uydurursan!)"- deyərlər. Xeyr! Onların əksəriyyəti (cahil olduğu üçün əsl həqiqəti, bir hökmü başqası ilə əvəz etməyin hikmətini) bilməz!

(Ya Məhəmməd!) De: "Ruhül-qüds (Cəbrail) onu (Qur'anı) sənin Rəbbindən iman gətirənlərə səbat vermək, müsəlmanları isə doğru yola yönəltmək və (onlara Cənnətlə) müjdə vermək üçün haqq olaraq nazil etmişdir."[1]

## Qur'ani-Kərimdə cəry[2] və intibaq[3]

---

[1] Ən-Nəhl-101-102-ci ayələr.
[2] Cari olma.
[3] Tətbiq olunma, uyğunlaşmaq.

Qur'anın əbədi və bütün məxluqatın kitabı olmasını nəzərə aldıqda aydın olur ki, o, keçmişə və gələcəyə indiki kimi aid edilir (tətbiq olunur). Məsələn: xüsusi bir şəraitdə mö'minlər üçün hansısa təklif (hökm) müəyyən edilibsə, bu hökm bir əsirdən sonra həmin şəraitə malik mö'minlərə olduğu kimi aid edilir. Yaxud bir sıra ayələr bildiyimiz kimi, bəyənilmiş xislətə malik olan insanlara müjdə verir, bədxislət sahiblərini isə məzəmmət edərək qorxudur. Bu ayələr göstərilən şəxslərə hansı zaman və məkanda olmalarına baxmayaraq şamildir. Buna əsasən, ayənin hansısa hadisə və yaxud faktla əlaqədar nazil olması, onu məhz həmin hadisəyə məxsus etmir. Yə'ni, bir şəxs və yaxud hansısa qrup haqqında nazil olmuş ayə, yalnız "haqqında nazil olduğu" şəxslərə deyil, əksinə, onların daşıdığı xüsusiyyətlərə malik olan bütün insanlara aiddir. Bu xüsusiyyət, rəvayətlərdə "cəry" adlanır.

Beşinci Imam(ə) rəvayətlərin birində buyurur: "Bir qövm haqqında nazil olmuş ayə, həmin qövm aradan getdikdən (öldükdən) sonra məhv olsaydı, bir müddətdən sonra Qur'andan heç bir əsər-əlamət qalmazdı. Qur'an nə qədər ki, göylər və yerlər mövcuddur, yaşayacaq və

insanlar zaman keçdikcə ondan yeni-yeni biliklər əldə edəcəklər". Bə'zi rəvayətlərdə intibaqın da cəry mə'nasını ifadə etməsi qeyd olunur.

Məsələyə aydınlıq üçün qeyd etməliyik ki, cəry və intibaq dedikdə, Qur'an ayələrindəki şər'i qanunların zaman axarından keçərək hər bir dövrə (zamana və məkana) şamil olması nəzərdə tutulur (mütərcimin əlavəsi).

## Qur'ani-Kərimin təfsiri, onun yaranması

Qur'an ayələrinin təfsir (izah, şərh) olunması, ayələrin nazil olduğu ilkin dövrlərdən başlamışdır. Peyğəmbər(s) özü ayələrin mə'nasını açıqlayaraq, Qur'anın tə'limi ilə məşğul olurdu. Allah-təala bu barədə buyurur: "Sənə də Qur'anı nazil etdik ki, insanlara, onlara göndəriləni (hökmləri, halal-haramı) izah edəsən və bəlkə, onlarda düşünüb dərk edələr!"[1].

(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən Peyğəmbər göndərən Odur. (Bu Peyğəmbər) əvvələr haqq yoldan açıq-aşkar azsalar da onlara (Allahın) ayələrini

[1] Ən-Nəhl-44-cü ayə.

oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara Kitabı və hikməti (Qur'anı və şəriəti) öyrədər."[2]

Mühəmməd Peyğəmbərin(s) dövründə bir qrup insan onun əmri ilə Qur'anın oxunması, yazılıb toplanması və əzbərlənməsi ilə məşğul olurdu. Bu insanlar "qurra" adlandırılırdı. Həzrətin (s) ölümündən sonra onun səhabələri, səhabələrdən sonra isə digər müsəlmanlar Qur'anın təfsiri ilə məşğul olmuş və olmaqdadırlar.

## Təfsir elmi və müfəssirlərin təbəqələri

Peyğəmbərin (s) vəfatından sonra Əbu ibn Kə'b Abdullah ibn Məs'ud, Cabir ibn Abdullah, Əbu Səid Xidri, Abdullah ibn Zubeyr, Abdullah ibn Ömər, Ənəs, Əbu Hureyrə, Əbu Musa və hamıdan məşhur olan Abdullah ibn Abbas kimi bir sıra səhabələr Qur'anın təfsiri ilə məşğul olurdular. Bu şəxslərin təfsir üsulu bundan ibarət idi ki, onlar Qur'an ayələrinin mə'naları haqda bə'zən Peyğəmbərdən (s) eşitdiklərini rəvayət şəklində nəql edirdilər.

[2] Əc-Cumuə-2-ci ayə.

Peyğəmbərdən(s) rəvayət edilən bu hədislərin sayı 240-dan çoxdur. Lakin bu hədislərin çoxu zəif (mətni inkar edilmiş) hesab olunur. Onlar bə'zi vaxtlarda ayələri təfsir edərkən, ayə haqqındakı fikirləri Peyğəmbərə(s) mənsub etmədən əhaliyə çatdırırdılar. Sünnə əhlindən olan mütəəxxirinlər, bu qrupun dediklərinin Peyğəmbərin(s) hədisindən (yə'ni, bilavasitə Peyğəmbərdən(s)) başlanğıc götürdüyünü qeyd edirlər. Mütəəxxirin bunu onunla izah edir ki, səhabələr Qur'anı Peyğəmbərdən(s) öyrənmişlər və özlərindən nə isə artırmaları fikri yanlışdır.

Mütəəxxirinin irəli sürdüyü bu fikri əsaslandıra biləcək heç bir tutarlı sübut yoxdur. Bu qrupa daxil olan rəvayətlərin əksər hissəsinin ayələrin nazil olma səbəbləri və tarixi hadisələri haqda rəvayət edilməsindən əlavə, bu rəvayətlər içərisində Kə'bul Inbar və s. kimi sonradan müsəlman olmuş səhabələrdən olan yəhudi alimlərinin sözlərinə rast gəlinir. Bu müfəssirlərdən biri olan Ibn Abbas ayələrin mə'nasını açıqlayarkən, çox vaxt şe'rə müraciət edirdi. Ibn Əbbasdan nəql olunan rəvayətə əsasən o, Nafe' ibn Əzrəcin 200-dən çox sualına ərəb şe'rindən istifadə edərək cavab vermişdir.

Syuti "Itqan"[1] kitabında bu sualların 190-nını qeyd edir. Bütün bunlara baxmayaraq, səhabə müfəssirlərin nəql etdiyi rəvayətlərdən "nəbəvi" (Peyğəmbərə (s) mənsub) olduğunu hesab etmək olmaz. Səhabə müfəssirlərin ilk təbəqəsini təşkil edir.

Ikinci təbəqə. Bu təbəqə səhabə müfəssirlərinin şagirdləri olmuş tabiindirlər.[2] Mucahid,[3] Səid ibn Cübeyr,[4] Kərəm, Zəhak, Həsən Bəsri, Əta ibn Əbi Riba, Ətta ibn Əbi Müslim, Əbül Aliyə, Mühəmməd ibn Kə'b Qərəzi, Qətadə, Ətiyyə, Zeyd ibn Əsləm və Tavus Yəmani bu təbəqəyə aid olan müfəssirlərdəndirlər.

Üçüncü təbəqə. Bu təbəqənin nümayəndələri, 2-ci təbəqənin şagirdləridir. Bunlardan Rə'bi ibn Ənəs, Əbdür Rəhman ibn Zeyd, Əsləm və Əbu Salih Kəlbi[1] kimilərini qeyd etmək olar. Tabiin ayəni təfsir edərkən, bə'zi vaxtlarda onun təfsirini rəvayət şəklində Peyğəmbərdən (s) yaxud səhabədən nəql edirdilər. Bə'zən isə ayənin mə'nasını heç kimə

---

[1] Əl-Istqan, səh 120-133.
[2] Peyğəmbərin(s) özünün görməyib, səhabəsinin müasiri olan şəxslər.
[3] Hicrətin 100-103-cü ilində (722-725) vəfat etmiş məşhur müfəssirlərdəndir.
[4] Hicrətin 94-cü ilində (716) Həccac tərəfindən öldürülmüş Ibn Abbasın ən məşhur müfəssir tələbələrindəndir.
[1] Hicrətin II əsrində yaşamış müfəssir.

mənsub etmədən, bilavasitə öz fikirləri kimi təqdim edirdilər. Son dövr müfəssirləri onların bu fikirlərini də Peyğəmbər(s) hədisinə aid edərək, onu "mauqufə"[2] rəvayət adlandırmışlar. Qədim dövr müfəssirləri (qüdəma) dedikdə, məhz bu iki təbəqə nəzərdə tutulur.

Dördüncü təbəqə. Təfsir yazmış müəlliflər məhz, bu təbəqəyə aiddir. Sufyan ibn Üyeynə, Vəki' ibn Cərrah, Şö'bən ibn Həccac, Əbd ibn Həmid, həmçinin, Ibn Cərir Təbəri bu təbəqənin nümayəndələrindəndir.[3]

Bu təbəqənin üsulu belə idi ki, onlar səhabə və tabiininin fikirlərini silsiləvari hədislər şəklində öz təfsirlərində qeyd edərək, müstəqil fikir (rə'y) irəli sürmürdülər. Bu təbəqənin nümayəndələrindən yalnız Cərir Təbəri öz təfsirində hansı fikrin (mülahizənin) düzgün olması haqda öz rə'yini bildirir. Mütəxxirin (son dövr) müfəssirləri bu təbəqədən başlayır.

Beşinci təbəqə. Bu təbəqənin nümayəndələri rəvayətləri qeyd edərkən, onların kimə mənsub olduğunu göstərmirlər. Bir sıra alimlərin fikrincə, təfsir elmindəki qarışıqlıq

---

[2] Mauqufə rəvayət, o rəvayətə deyilir ki, onun kimdən nəql olunması (istinadı) qeyd olunmur.

[3] (Ibn Cərir Təbəri) Məhəmməd ibn Cərir ibn Yezid sünnə əhlinin ən məşhur alimlərindəndir. O, hicrətin 310-cu ilində (miladi 932) vəfat etmihdir.

(anlaşılmazlıq) məhz, bu dövrdən yaranmış və bir çox fikirlərin, nəzəriyyələrin e'tibarlı olub-olmaması nəzərə alınmadan bu təfsirlərdə səhabə və tabiinə mənsubluğu göstərilmişdir. Bunun nəticəsində hərc-mərclik yaranmış və nəzəriyyələrin e'tibarlı olması şübhə altına alınmışdır. Sənədi silsiləvari şəkildə qeyd olunmuş hədis və rəvayətlərə diqqətlə baxdıqda aydın olur ki, onların içərisində də (müəyyən dərəcədə) dəyişdirilmiş, əlavələr edilmiş hədislər vardır. Bu zaman bir səhabəyə yaxud bir tabiinə bir-birindən tamamilə fərqlənən zidiyyətli fikirlərin aid edilməsi hallarının çoxluq təşkil etməsi müşahidə edilir. Hətta, bu rəvayətlər içində yalandan uydurulmuş hədislər də az deyil. Habelə, ayənin ümumi məzmununa uyğun olmayan nasix və mənsux nazilolma səbəbi burada çoxluq təşkil edir. Elə buna görə də (bu təbəqədən əvvəl yaşamış) imam Əhməd ibn Hənbəl demişdir: "Üç şeyin əsası yoxdur: qəhrəmanlıq dastanlarının, döyüşlərin və təfsir hədislərinin" Imam Şafiidən nəql olunur ki, ibn Abbasdan yalnız 100-ə yaxın rəvayətin nəqli sübuta yetmişdir."

Altıncı təbəqə. Zaman keçdikcə müxtəlif elmlərin meydana gəlməsi müfəssirlərin yeni

nəslini ərsəyə gətirdi. Bu nəslin nümayəndələri Qur'anı, təmsil etdikləri elm baxımından təfsir etməyə başladılar. Məsələn, Ələn-Zəccac,[1] Vahidi, Əbi Hiyan kimi qrammatiklər, qrammatika yolu ilə, Zəməxşəri[2] kimi bəyan (stilistika) elmi üzrə, ixtisaslaşmış alimlər fəsahət və bəlağət baxımından, Fəxri Razi[3] kimi ilahiyyatçılar onu məhz bu baxımdan, Əbdür Rəzzac Kami və Ibn Ərəbi kimi ariflər öz təfsirlərində ürfan baxımından, Sə'ləbi[4] kimi ravilər (rəvayət edənlər) öz təfsirində rəvayət yolu ilə, Qirtəbi[5] kimi (müsəlman hüququ) mütəxəssislər Qur'anı öz təfsirlərində məhz bu baxımdan təfsir etmişlər. Həmçinin, bu dövrdə Ruhül-Bə'yan,[1] Ruhül-Mə'ani[2] və Nişaburi[3] təfsiri kimi bir neçə elmi əhatə edən təfsirlər də yazılmışdır.

---

[1] Hicrətin 310-cu (miladi 932) ilində ölmüş qrammatik.

[2] Kəhhaf təfsirini müəllifi. Hicrəti 538-ci (miladi 1160) ilində vəfat etmişdir.

[3] "Məfatihul Qeyb" təfsirinin müəllifidir. Hicrətin 606-cı (miladi 1228) ilində ölmüşdür.

[4] "Sə'ləbi" təfsirinin müəllifi Əhməd ibn Mühəmməd ibn Ibrahim Sə'ləbi. Hicrətin 426-427-ci (1048-1049) illərində vəfat etmihdir.

[5] Məhəmməd ibn Əhməd ibn Əbu Bəkr Qirtəbi hicrətin 668-ci (miladi 1290) ilində ölmüşdür.

[1] Bu təfsirin müəllifi hicrətin 1137-ci (miladi 1759) ilində vəfat etmih Şeyx Ismayıl Həqqi Islambuliddir.

[2] Bu təfsirin müəllifi hicrətin 1270-ci (miladi 1892) ilində vəfat etmih Həhabuddin Mahmud Alusi Bağdadi olmuşdur.

[3] Bu təfsirin müəllifi hicrəti 727-ci (miladi 1349) ilində vəfat etmih Nizamuddin Həsən Qummi Nişaburi olmuşdur.

Bu təbəqənin təfsir aləminə etdiyi xidmətlərdən biri də budur ki, təfsir aləmini yuxarıda qeyd etdiyimiz beş təbəqənin malik olduğu donuq halından çıxararaq, onu tədqiqatlar və nəzəriyyələr mərhələsinə daxil etdi.

Bu təbəqənin təfsir sahəsində apardığı tədqiqatlara diqqətlə nəzər saldıqda görürük ki, onlar Qur'an ayələrini öz məzmunu baxımından deyil, elmi nəzəriyyələrə əsasən tədqiq etmişlər.

## Şiə müfəssirlərin özünəməxsus təfsir üslubu, onların təbəqələri

Qeyd etdiyimiz təbəqələr sünnə əhlinin müfəssirlərini əhatə edir. Bu təbəqələrin təfsir elminin yarandığı ilk gündən həyata keçirdiyi üsul (təfsir üsulu) öz xüsusiliyi ilə səciyyələnir. Bu xüsusilik ondan ibarətdir ki, onlar səhabə və tabiinin nəzər və fikirlərinin öz başlanğıcını məhz, Peyğəmbərdən(s) götürdüyünü qeyd edirlər ki, bu da qəti dəlilə (nəsə) qarşı çıxaraq onu inkar etmək kimi bir şeydir (yə'ni, səhabə və tabiinin irəli sürdüyü fikirlərin Peyğəmbərə(s)

aid olduğunu mütləq surətdə iddia etmək düzgün deyil-mütərcim).

Səhabə və tabiinin Peyğəmbərə(s) mənsub edilən rəvayətlər ziddiyyətli məqamların meydana çıxması, anlaşılımazlıqların formalaşması və bütün bunların rəvayətlərə edilən "əlavələr" nəticəsində yaranması, 6-cı təbəqənin müstəqil fikir yürütməsinə zəmin yaratdı. Şiə müfəssirlərin təfsir üslubu, qeyd etdiyimiz bu üslubdan tamamilə fərqlənir və nəticədə, müfəssirlərin təbəqələrə ayrılması üsulu da başqa formada təzahür edir. Şiə Qur'ani-Kərimə əsaslanaraq səhabə və tabiinin deyil, yalnız Rəsuli-Əkrəmin(s) ayələrin ilin təfsiri haqda dediklərini hüccət hesab edir. Habelə, onlar Peyğəmbərdən (s) nəql edilən mütəvatir hədisləri də hüccət hesab edirlər. Buna misal olaraq, Peyğəmbərdən(s) sonra Əhli-beyti(ə) onun davamçısı kimi təqdim edən "Səqəleyn" hədisini göstərmək olar. Elə buna görə də şiə müfəssirləri ayələri təfsir edərkən, yalnız Peyğəmbər (s) və onun Əhli-beytinə(ə) mənsub olan rəvayətlərdən istifadə etmişlər.

Şiə müfəssirlərin təbəqələri aşağıdakılar-dan ibarətdir:

Birinci təbəqə. Bu təbəqənin nümayəndələri təfsir rəvayətlərini Peyğəmbərdən (s) və onun Əhli-beytindən(ə) öyrənərək, pərakəndə halda qeyd edib təbliğ etmişlər. Onlardan Zurarənin, Məhəmməd ibn Müslümün, Mə'rufun, Cəririn və s. adını çəkmək olar.

Ikinci təbəqə, Bu təbəqənin nümayəndələri ilk təfsir yazan müəlliflərdən ibarətdir. Məsələn, Fərat ibn Ibrahim, Əbu Həmzə Sumali, Əyyaşi, Əli ibn Ibrahim Qummi, Nu'mani və s. Bu təbəqənin istifadə etdiyi təfsir metodu sünnə əhli müfəssirlərinin 4-cü təbəqəsinin təfsir üslubuna bənzəyir. Onlar hədisləri istinadla (kimdən gəlib yetişməsini göstərməklə) qeyd edir və müstəqil fikir söyləməkdən çəkinirdilər.

Bildiyimiz kimi, Peyğəmbərdən (s) sonra Əhli-beyt(ə) təqribən 300 ilə yaxın müddət ərzində onun yolunu davam etdirdi. Buna görə də qeyd etdiyimiz bu iki təbəqə zaman e'tibarilə ardıcıl deyil, demək olar eyni zamanda yaranmışdır. Bu dövrdə rəvayəti istinadsız (kimə məxsusluluğunu göstərmədən) qeyd edən şəxslər azlıq təşkil edirdi. Misal olaraq, hazırda mövcud olan Əyyaşi[1] təfsirini xüsusi qeyd etməliyik.

---

[1] Məhəmməd ibn Məs'ud Kufi Səmərqəndi, hicrətin III yüzilliyinin II yarısında yaşamışdır.

Əyyaşinin şagirdlərindən biri, onun əsərindəki rəvayətlərinin istinadını ixtisara salmış və nəticədə, Əyyaşinin tərtib etdiyi nüsxə əvəzinə, onun nüsxəsi məşhur olmuşdur.

Üçüncü təbəqə. Müxtəlif elmlərə mənsub nümayəndələrdən ibarətdir. Seyyid Rəzi[2] öz təfsirində, Şeyx Tusi kəlam elminə (ilahiyyata) aid yazdığı təfsirində (bu təfsir "Tibyan" adlanır), Sədrül Mütəəllihin Şirazi öz fəlsəfi təfsirlərində, Meybədi Gunabadi, öz irfani təfsirində Seyyid Haşim Bəhrani, Feyz Kaşani "Nurus-səqəleyn", "Burhan" və "Safi" təfsirində bir neçə baxımdan Qur'anı təfsir etmişdir. Məsələn, Şeyx Təbərsi "Məcməül-Bəyan" təfsirində lüğət, qrammatika, qiraət, kəlam və hədis kimi müxtəlif elm sahələrindən söhbət açmış və ayələri məhz, bu istiqamətdə təfsir etməyə çalışmışdır.

## Qur'ani-Kərimin özü hansı təfsiri qəbul edir

[2] Dövrünün ən güclü imamiyyə fəqihlərindən olmuşdur. Habelə, şe'r, ədəbiyyat sahəsində də dövrün ən görkəmli şəxsiyyətlərindəndir. Nəhcül-Bəlağəni toplayıb tərtib etmişdir.

Bu sualın cavabı artıq mə'lumdur. Çünki Qur'an əbədi və bütün insanların kitabı olmaqla yanaşı, hamıya müraciət edərək düzgün yola hidayət edir, özünü aydın və hər şeyə aydınlıq gətirən adlandırır. Təbii ki, belə bir Qur'anın aydın olması üçün heç bir vasitəyə ehtiyacı yoxdur.

Qur'an özünün bəşər kəlamı olmadığını qeyd edərək göstərir ki, onda heç bir uyğunsuzluq yoxdur və əgər hansısa uyğunsuzluq nəzərə çarpırsa, düşünərək bu uyğunsuzluğu aradan qaldırmaq mümkündür. Qur'an Allahın kəlamı olmasaydı, onda bir çox ixtilaflar olardı. Belə bir kəlamın öz məqsədlərinə aydınlıq gətirmədikdə başqa bir vasitəyə ehtiyacı olsaydı bu hüccət tamamlanmazdı.

Ola bilər ki, kimsə Qur'anda elə bir uyğunsuzluq tapsın ki, bunu Qur'anı hərfi mə'nası vasitəsilə aradan qaldırmaq mümkün deyil. Lakin onu başqa yolla qaldırmaq olar. Məsələn, bu uyğunsuzluğu aradan qaldırmaq üçün onu Peyğəmbərin(s) yanına gətirirlər və O da öz növbəsində, Qur'anın hərfi mə'nasından heç bir şahid dəlil gətirmədən, əsas məqsədin nə olduğunu deyib izah edir. Təbii ki,

Peyğəmbərin(s) mə’sum (bütün günahlardan xali) olmasına inanmayan şəxsi bu qane etməyəcək. Başqa sözlə desək Peyğəmbərin (s) Qur’anın hərfi mə’nasına əsaslanmadan hansısa ixtilafı izah edərək aradan qaldırması yalnız Onun mə’sumluğunu qəbul edən şəxsləri qane edəcəkdir. “Onlar Qur’an barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyətlər tapardılar” (ən-Nisa-82)-ayəsi məhz, Peyğəmbərin(s) mə’sum olmasına inanmayanlara müraciət edir. Qur’an özü Peyğəmbərin(s) dediklərini, o da öz növbəsində, Əhli-beytin izahını (Qur’anı təfsir etməsini) hüccət hesab edir.

Nəticə bundan ibarətdir ki, Qur’ani-Kərimdə bə’zi ayələr bir sıra başqa ayələr, vasitəsilə təfsir olunur və Peyğəmbərin (s), habelə, onun Əhli-beytinin (ə) təfsiri düzgün təfsirdir. Bu təfsir Qur’anın ümumi məzmunundan anlaşılan təfsirlə heç bir zidiyyət təşkil etmir.

### *Bəhsin nəticəsi*

Keçən fəsildə dediklərimizdən belə nəticə çıxır ki, Qur’anın həqiqi təfsiri ayədə

düşünməklə, habelə, onu məzmunca yaxın ayələrlə vasitəsilə izah etməklə əldə olunur. Ümumiyyətlə, Qur'an ayələrinin təfsirində aşağıdakı üç yolun birindən istifadə olunur.

1.Ayəni elmi və qeyri-elmi müqəddimələr vasitəsilə təfsir etmək.

2.Ayə haqqında mə'sum imamlardan yetişən rəvayətlərdən istifadə etməklə təfsir etmək.

3.Ayəni təfsir edərkən onun mə'nası haqda düşünmək, məzmunca yaxın olan ayələrlə onu müqayisə etmək və imkan daxilində rəvayətlərdən istifadə etmək.

Sonuncu təfsir üsulu Peyğəmbərin (s) və Əhli-beytin tə'limində işarə edilən metoddur. Peyğəmbər (s) buyurur: "Qur'anın bə'zi ayələri, bir sıra digərlərini təsdiq edir." Həmçinin, Əmirə-əl-mö'minin bu barədə belə deyir: "Qur'anın bə'zi ayələri bir sıra digər ayələri dilə gətirir və təsdiq edir."

Qur'an ayələrində düşünərək, onu müqayisəli şəkildə izah etmək (təfsir) subyektiv təfsir deyil. Çünki, bu zaman Qur'an ayəsi müfəssirin fikrinə əsasən deyil, məhz Qur'anın özü vasitəsilə izah olunur. Peyğəmbər(s) bu haqda belə buyurur: "Kim Qur'anı subyektiv

fikrinə əsaslanaraq təfsir etsə, Cəhənnəmdə özünə yer hazırlamışdır.”

Qur’anı təfsir edərkən I yoldan (üsuldan) istifadə etmək olmaz. Çünki o, mahiyyətcə (3 üsula uyğun gələn məqamları çıxmaq şərtilə) subyektiv fikrə əsaslanır.

Ikinci yol, müfəssirlərin Islamın əvvəlində istifadə etdiyi üsuldur. Bu təfsir üsulu bir neçə əsr davam etdi. Hazırda da, bir sıra sünni və şiə müfəssirləri bu üsuldan istifadə edir.

Ümumiyyətlə, bu təfsir metodu qeyri-məhdud ehtiyaclar qarşısında çox məhduddur. Çünki, Qur’anda altı mindən çox ayə vardır. Habelə, bu ayələrin hər birinə dair qarşımıza bir sıra elmi və qeyri-elmi suallar çıxır. Bu suallara cavab tapmaq, çətinlikləri aradan qaldırmaq üçün nə etməliyik? Sünni və şiələrin Peyğəmbərə(s) aid etdiyi hədislərin sayı 250-ə yaxın olduğu onların da bir neçəsinin zəif, sənədi inkar edilmiş) olduğu halda, rəvayətlərə müraciət etməliyik? Şiə ravilər vasitəsilə nəql olunmuş hədislərin sayının çoxluğuna baxmayaraq onlar yenədə bu saysız-hesabsız suallara cavab tapmaq üçün kifayət etmir. Həmdə, qeyd etməkliyik ki, Qur’an ayələrinin əksəriyyəti haqda (sünni və şiə) ravilərindən

hədis nəql olunmayıb. Bəlkə, çətinlikləri aradan qaldırmaq üçün bu yolda qadağan olunmuş vasitədən (məzmunca yaxın ayələrlə müqayisəli şəkildə bir ayəni izah etmək) istifadə etmək lazımdır? Yaxud tədqiqatdan əl çəkərək, elmi ehtiyacı cüz'i hesab etməliyik? Belə olduqda, "Biz Qur'anı sənə hər şeyi (dini hökmləri, halal-haramı, günahı və savabı) izah etmək üçün müsəlmanlara bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik"[1]-ayəsi hansı mə'nanı ifadə edəcəkdir? Habelə, "Onlar Qur'an barəsində düşünməzlərimi?"[2]-cümləsi, "(Ya Peyğəmbər bu Qur'an) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də ondan ibrət alsınlar!"[3] -ayəsi və: "Məgər (müşriklər) kəlam (Qur'an) haqqında düşünüb-daşınmazlarmı? Yoxsa, onlara ulu babalarına (keçmiş ümmətlərə) gəlməyən bir şey gəldi?"-ayəsi hansı məfhumu ifadə edəcək?

Belə olduqda, Peyğəmbərdən (s) və onun Əhli-beytindən yetişmiş düzgün hədislərin "çətinlikləri aradan qaldırmaq üçün Qur'ana

---

[1] Ən-Nəhl-89 ayə.
[2] Ən-Nisa-82 ayə.
[3] Sad-29 ayə.

müraciət edin”-tövsiyəsi hansı tə’sirə malik olacaqdır?

Bu təfsir metoduna (2-ci metoda) əsasən, ümumi vəzifə hesab edilən “ayələr üzərində düşünmək”- yersizdir.

Sünni və şiə mənbələrinə əsasən, Peyğəmbərdən (s) və Əhli-beytindən yetişən hədislər Qur’anla müqayisə olunmalıdır. Əgər bu hədis Qur’ana uyğundursa, ona əməl etmək olar, uyğun deyilsə, olmaz. Aydındır ki, məzmunu ilə Qur’an ayəsinə dəlalət edən və ayənin təfsirindən ibarət məzmunu e’tibarlı olan rəvayətlər Qur’ana müvafiq olacaqdır.

Bu rəvayətlər bir daha göstərir ki, Qur’an müstəqil mə’naya malikdir və mə’nası hamıya hüccətdir. (sübutdur).

Deyilənlərdən aydın oldu ki, müfəssirin vəzifəsi Peyğəmbərdən (s) və Əhli-beytindən Qur’anın təfsiri haqda bizə yetişənləri diqqətlə nəzərdən keçirmək, onların təfsir metodu ilə tanış olmaq, kitab (Qur’an) və sünnəyə əsaslanın metodla Qur’anı təfsir etməkdən ibarətdir. Bu zaman o, ayə məzmununa uyğun gələn rəvayətlərdən istifadə etməlidir.

## Qur'anın Qur'an vasitəsilə təfsirinə dair nümunələr

Allah-təala Qur'anın bir neçə yerində buyurur: "Allah hər şeyin xaliqidir". Daha dəqiq, bu fikir Qur'anın dörd yerində təkrarlanmışdır. Bu ayəyə əsasən, yaranış aləmində təsəvvür olunan hər şeyi Allah yaratmış və yaradılış yalnız Ona məxsusdur. Nəzərdən qaçırmamalıyıq ki, Qur'an yüzlərlə ayədə illəti (səbəb və nəticəni) təsdiqləyir və hər hərəkəti onu icra edənə aid edir. Məsələn, insanın ixtiyari işlərini onun özünə mənsub edir. Yə'ni hər işin icraçısı işin sahibi olduğu kimi, yaranış aləminində sahibi Allahdır. Səcdə surəsinin 7-ci ayəsində deyilir: "O, yaratdığı hər şeyi gözəl yaratdı." Bu ayə qeyd etdiyimiz ayə ilə yanaşıdır. Yə'ni, yuxarıdakı "Hər şeyi yaradan Allahdır"-ayəsi, bu ayə ilə yanaşıdır. Bu o deməkdir ki, yaranış aləmində mövcud olan hər şey gözəldir.

Unutmamalıyıq ki, Qur'an şərin müqabilində xeyri, zərərin müqabilində qazancı, pisi və yaxşını təsdiq edir və bir çox işləri pisləyir. Qeyd etməliyik ki, bu xoşagəlməz hadisələr mütləq deyil, nisbidir. Məsələn, ilan,

əqrəb və s. zərərverici heyvanlar insanlarla müqayisədə qorxulu olduğu halda, canlılara nisbətdə, heç bir təhlükə törətmir. Məsələn, bir sıra iylər insan üçün xoşagəlməz olduğu halda, duyğu orqanı olmaya mövcudata qarşı heç də xoşagəlməz deyil. Bir an bu müqayisə və nisbiliyi nəzərə almasaq, həyatda müşahidə edilən hər şey gözəl olacaq (və bu) gözəlliyinin vəsfi sözə sığmayacaqdır. Çünki sözün özü də həyat gözəlliklərindən biridir.

Əslində, qeyd etdiyimiz ayə insanı müqayisəli yolla hiss olunan gözəllikdən ayıraraq, mütləq gözəlliyə sövq edir və insan fəhmini ümumi anlamla təchiz edir.

Bu tə'limə yiyələndikdən sonra yaranış aləmindəki varlıqları, onlarda mövcud olan nizam-intizamı Allah nişanəsi kimi təqdim edən və Rəbbin güzgüsü adlandıran yüzlərlə ayə ilə rastlaşırıq. Qeyd etdiyimiz bu iki ayənin mə'naları haqda düşündükdə anlayırıq ki, dünyanı başdan-başa bürümüş bu heyrətamiz gözəllik, göydəki və yerdəki nişanələr vasitəsilə müşahidə olunan qüvvənin təzahürüdür.

Dünyanın hər bir üzvü, fövqündə duran sonsuz prosesləri özündə əks etdirir və o başına heç nəyə malik deyil. Buna görə də, bir sıra

ayələrdə Qur'ani-Kərim hər bir təkamül və gözəlliyin mütləq kamala-Allaha aid olduğunu qeyd edir. Bu ayələrə nəzər salaq: "Əbədi (həmişə diri) olan ancaq Odur. Ondan başqa heç bir tanrı yoxdur" (əl-Mu'min-65-ci ayə). "Bütün (qüvvət və) qüdrət Allaha məxsusdur" (əl-Bəqərə-165-ci ayə). "Şübhəsiz ki, (izzət və) qüvvət tamamilə Allaha məxsusdur!" (ən-Nisa-139-cu ayə). "O, (hər şeyi) biləndir, (hər şeyə) qadirdir." (ər-Rum-54-cü ayə). "O doğrudan da (hər şeyi) eşidəndir, görəndir!" (əl-Isra-1-ci ayə). "Allahdan başqa tanrı yoxdur. Ən gözəl adlar (əsmayi-hüsna) yalnız Ona məxsusdur!" (Taha-8-ci ayə).

Bu ayələrdən aydın olur ki, qarşımızda cilvələnən gözəlliklərin mənbəyi (həqiqəti) Allahdır. Başqa sözlə, dünya məxluqatındakı mövcud gözəllik, nisbi və məhduddur. Bu gözəlliyin mütləq və qeyri-məhdud forması yalnız Allaha məxsusdur.

"Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq" (əl-Qəmər-49-cu ayə).

"(Yerdə və göydə) elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan

ancaq müəyyən (lazım olduğu) qədər endirdik" (əl-Hicr-21-ci ayə).

Insan bu Qur'an həqiqətini qəbul etdikdə, özünü mütləq Kamal qarşısında hiss edir və mövcud gözəlliyi (kamilliyi), habelə, bu gözəlliyin bir növü olan özünü unudaraq, bütün varlığı ilə o pak zata qapılır. Allah-təala buyurur: "Halbuki, iman gətirənlərin Allaha məhəbəti daha qüvvətlidir" (əl-Bəqərə-165-ci ayə).

Bu məhəbbətə insanı bütün iradəsilə Allaha təslim edərək, onu mütləq surətdə Allahın himayəsi altına alır. Allah Ali-Imran surəsinin 68-ci ayəsində buyurur: "Allah mö'minlərin himayə-çisidir."

Həmçinin, bu insanların idarə olunması da Allah-təala tərəfindən həyata keçirilir.

Allah (Ona) iman gətirənlərin dostudur (himayəçisidir), onları zülmətdən çıxarıb işığa tərəf yönəldər (əl-Bəqərə-255).

Aşağıda qeyd edəcəyimiz iki ayəyə əsasən, Allah sevdiyi, dost saydığı insana sanki başqa ruh və başqa bir həyat bəxş edərək, ona cəmiyyət daxilində mövqeyini müəyyənləşdirmək üçün həqiqəti dərk etmək bacarığı verir.

“Heç (küfrlə) ölü olub diriltdiyimiz, sonra insanlar arasında gəzmək üçün özünə bir nur (Islam dini) verdiyimiz kimsə zülmət içində qalıb oradan çıxa bilməyən kimsə kimi ola bilərmi?” (əl-Ən’am-122-ci ayə).

“Onlar elə kimsələrdi ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara ruh (güc) vermişdir.”

Başqa bir ayədə isə Allah: “bu nuru necə əldə etmək olar?”-sualına cavab verir: “Ey iman gətirənlər! Allahdan qorxun və Onun Peyğəmbərinə iman gətirin ki, (Allah) sizə Öz mərhəmətindən iki pay versin, sizə (qıl körpüsü üstündə) getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayandır, rəhm edəndir!” (əl-Hədid-28-ci ayə).

Allah-təala Rəsuli-Əkrəmin(ə) dediklərinə iman gətirməyin, Allaha iman gətirmək olduğunu qeyd edir.

“(Ya Mühəmməd!) De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın.” (Ali-Imran-31-ci ayə).

Başqa bir ayədə isə Peyğəmbərin(s) ardınca getməyin, onun dediklərinə iman gətirməyin

nədən ibarət olduğu və hansı formada həyata keçirildiyi belə izah olunur:

"O kəslər ki, əllərindəki Tövratda və Incildə (adını, vəsfini və əlamətlərini) yazılmış rəsula-ümmi (heç kəsin yanında oxuyub, elm öyrənməmiş və ya məkkəli) Peyğəmbərə tabe olurlar. (O peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) ne'mətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər)".

Yuxarıdakı ayəni daha aydın izah edən bu ayəyə nəzər salaq: "(Ya Mühəmməd! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (Islama) tərəf tut. Allahın dinini (onun yaratdığı tövhid dini olan Islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti (haqq dinin islam olduğunu) bilməz. (Allah bütün insanları xilqətcə müsəlman-təkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud onlar yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə-bütpərəstliyə uymuşlar)" (ər-Rum-30-cu ayə).

Bu ayədən aydın olur ki, Islam dininin ümumi proqramı insan fitrətinin ona tərəf sövq etdiyi bəşəri qanunlardan ibarətdir.

“And olsun nəfsə və onu yaradana (ona biçim verənə). Sonra da, ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyri və şəri) öyrədənə ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!” (əş-Şəms-7-10-cu ayələr).

Qur’ani-Kərim yeganə səmavi kitabdır ki, hər şeydən əvvəl insanın xoşbəxt həyat sürməsini, onun pak və bütün pisliklərdən uzaq həyat sürməsində görür. Həmçinin, Allaha ibadəti, insanı həyat proqramından ayıran bütün üsulların (təriqətlərin) əksinə olaraq, və ictimai işlərinə müdaxilə etməklə, onun dünya görüşünə uyğun öhdəliklər tərtib edir. Beləliklə o, insanları dünyaya, dünyanı insanlara və bunların hər ikisinin Allaha tapşırır.

Qur’ani-Kərim övliyaların bir çox xüsusiyyətlərini sadalayır, maddi və mə’nəvi xarakterlərini qeyd edir. Lakin bütün bunları təfsilatilə bu fəsildə qeyd etmək imkan xaricindədir.

## Peyğəmbərin (s) və Əhli-beytin (ə) söylədiklərinin hüccət olmasının mə'nası

Qur'ani-Kərimə əsaslanıb qeyd etməliyik ki, Peyğəmbərin (s) və Əhli-beytin (ə) ayələrin təfsiri haqda söylədikləri hüccətdir. Bu bəyanın hüccət olması bir sıra mütəvatir[1] (qəti) hədislərdə aydın şəkildə öz əksini tapmışdır. Düzgünlüyündə müsəlmanlar arasında bir sıra ziddiyyətli fikirlərin mövcudluğu və termin kimi "xəbərül-vahid" adlandırılan qeyri-qəti hədislərə gəldikdə isə qeyd etməliyik ki, bu hədislər müfəssirin şəxsi rə'yindən aslıdır. (yə'ni, müfəssir bu qeyri-qəti hədislərin düzgünlüyünü qəbul edirsə, onlarda qeyd olunan hansısa bir hökmə əməl edə bilər-mütərcim). Əhli sünnə bir termin kimi səhih adlanan "xəbərül vahidiə" mütləq surətdə əməl edirlər. Şiələr isə (üsul elmində müəyyən olunduğu kimi) "mausuqu-s-sudur" (e'tibarlı şəxs tərəfindən söylənilən hədis) olan xəbərül-vahidi şər'i hökmlərdə e'tibarlı, digər hallarda isə e'tibarsız hesab edir. Mövzunu daha ətraflı öyrənmək üçün üsul (dinin əsasları) elminə müraciət edin.

---

[1] O hədislərə deyilir ki, onun rəvayət etdiyi hadisə, çoxlu hədis söyləyənlər tərəfindən qeydə alınsın.

**Qeyd:**

Təfsirin mə'nası, ayənin ifadə etdiyi ümumi məzmundan anlaşılan məfhum olduğuna görə, yalnız ayənin ümumi mə'nasını açıqlayan, onun açıqlanmasına tə'sir göstərən tədqiqat əsərini deyə bilərik. Buna görə də Qur'anın bədii üslubu, leksikası və qiraəti istiqamətində aparılan tədqiqatları onun təfsirinə aid etmək olmaz.

## ÜÇÜNCÜ FƏSIL

### Qur'ani-Kərimin vəhyi

1.Qur'anın vəhy olunmasına müsəlmanların münasibəti

A.Bir sıra müasir mütəxəssislərin vəhy və nübüvvət haqda fikirləri.

B.Qur'ani-Kərim bu barədə nə deyir?

2.Allahın sözü.

3.Ruhül-Əmin (Cəbrail).

4.Mələklər və şeytan.

5.Vicdanın səsi.

6.Ikinci mülahizə haqqında.

7.Qur’ani-Kərim vəhy və nübüvvətin mə’nası haqda nə deyir?

8.Ümumi hidayət və insanın hidayət olunması.

9.Insanın üstünlüyü.

10.Insan növü hansı ictimai mə’nanı kəsb edir?

11.Qanun zərurəti, ziddiyyətin meydana gəlməsi.

12.Insanın qanuna tərəf sövq olunması üçün təkcə ağıl kifayət etmir.

13.Insanın düzgün yola hidayət, üçün yeganə yol, vəhy yoludur.

14.Sual və cavab.

15.Vəhy yolu bütün səhvlərdən xali və toxunulmazdır.

16.Vəhyin həqiqəti bizə məchul olaraq qalır.

17.Qur’ani-Kərimin vəhy olunma keyfiyyəti.

## Qur’anın vəhy olunmasına müsəlmanların münasibəti

Qur’ani-Kərim Tövrat və Incil kimi digər səmavi kitablarla müqayisədə, vəhy məsələsinə

daha çox yer ayırmış, bu prosesi xatırladaraq, vəhyin keyfiyyəti və hansı şəraitdə həyata keçirilməsi haqda ətraflı söhbət açmışdır. Müsəlmanların bu məsələyə Qur'anın zahiri mə'nasından qaynaqlanan-münasibəti bundan ibarətdir ki, Qur'an öz mətni ilə Allahın sözü olub, səmavi mələklərdən biri- Cəbrail(ə) vasitəsilə Rəsuli-Əkrəmə(s) göndərilmişdir.

Cəbrailin(ə) bir adı da Ruhül-Əmindir. Qur'an Allahın sözü olaraq, 23 il ərzində tədricən Rəsuli-Əkrəmə nazil edilmişdir. Peyğəmbərə (s) də öz növbəsində, Qur'an ayələrini müsəlmanlara açıqlamaq, onun məzmununu insanlara başa salmaq, Qur'anın bəşəriyyətə çatdırdığı maarifçiliyə, ictimai və fərdi qanunlara də'vət etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətin adı risalətdir (peyğəmbərlik). Peyğəmbər (s) bu risaləti olduğu kimi, yə'ni, hansısa bir şeyi azaldıb-çoxaltmaqdan və ardıcıllığı gözləməklə həyata keçirmişdir.

## Bir sıra müasir mütəxəssislərin vəhy və nübüvvət haqda fikirləri

Müxtəlif dinləri və məzhəbləri tədqiq edən müasir mütəxəssislər vəhy və nübüvvəti aşağıdakı formada izah edirlər:

Rəsuli-Əkrəm(s) öz dövrünün dahi bir şəxsiyyəti olmuş, insan cəmiyyətini tənəzzül uçurumundan qurtarmaq üçün mədəniyyət və azadlıq beşiyində qiyam edərək insanları, kamil bir din halına gətirib, pak fikirlərinə tərəf də'vət etmişdir. O, müqəddəs və pak ruha malik olmuş, hərc-mərcliyin baş alıb getdiyi, oğurluq və xudpəsəndliyin geniş yayıldığı qaranlıq bir mühitdə dünyaya gəlmişdir. Vəziyyəti gördükdə narahat olur, bıçaq sümüyə dirənəndə, Təhamə dağlarının ətəyində yerləşən bir mağaraya çəkilərək, yaranış aləminin insanın ixtiyarına verdiyi Yer, Göy, ulduzlar, dağlar və dənizlər kimi qiymətli ne'mətlər haqqında düşüncələrə dalır, bu gözəlliyə valeh olurdu. Həmçinin o, insanın düçar olduğu və xoşbəxt həyatını heyvani həyat səviyyəsinə endirən bütün nadanlıq və qəflətə görə təəssüf edirdi. Peyğəmbər (s) 40 yaşınadək bu hissləri keçirərək əziyyət çəkirdi. Qırx yaşı tamam olduqdan sonra o, insanları pisliklərdən xilas etmək üçün vahid bir sistem yarada bildi. Bu sistem öz dövrünə ən uyğun rejim olan Islam dini idi.

Peyğəmbər (s) pak fikirlərini Allahın sözü və ilahi vəhy fərz edirdi. Allah-təala onun müqəddəs və bütün pisliklərdən münəzzəh (pak) daxili aləmi vasitəsilə onunla söhbət etmiş və o, fikirlərinin başlanğıcı (mənbəyi) olan öz pak ruhunu vəhy mələyi Ruhül-Əmin-Cəbrail adlandırmışdır. O bir qayda olaraq, təbiət aləmində xeyirxahlığa və xoşbəxtliyə səsləyən qüvvələri mələklər, insanları şərə və bədbəxtliyə sarı sövq edən qüvvələri isə şeytan və cinlər adlandırmışdır. Insanların xoşbəxtliyi uğrunda qiyam edərək, onları xeyirxahlığa də’vət zərurətini doğuran vəzifəsini isə nübüvvət və risalət adlandırmışdır.

Əlbəttə, bunlar varlıq (yaranış) aləminin Allah tərəfindən yarandığını qəbul edən və Islamın dini quruluşuna “müəyyən mə’nada” hörmət edən şəxslərin fikridir. Allahın mövcudluğunu qəbul etməyən şəxslərə gəlincə isə onlar nübüvvəti, vəhyi, savabı, cəzanı, Cənnət-Cəhənnəmi, ümumiyyətlə, bütün səmavi buyuruqları dini siyasət və məsləhətamiz yalan hesab edirlər. Onların fikrincə, peyğəmbərlər bəşəriyyətin islah olunmasını, pisliklərdən təmizlənməsinii sevən şəxslərdir və buna görə də, din formasında qanunlar sistemi tərtib

etdilər. Bir çox yüzilliklər öncə yaşamış insanlar cahil və mövhumatçı olduğuna görə, peyğəmbərlər dini nizam-intizamı bütün bu mövhumatçı əqidələrdən istifadə edərək qoruyub saxlamışlar.

## Qur'ani-Kərim bu barədə nə deyir?

Vəhy və nübüvvət haqqında qeyd etdiklərimiz, təbii və maddi elmlərə ifrat bağlılıq nəticəsində yaranış aləmindəki hər şeyin təbiət qanunları çərçivəsində oluğunu hesab edən və həmçinin, təbii hadisələrin arxasında məhz təbiətin durduğunu fərz edən alim və mütəfəkkirlərin fikridir. Buna görə də təbii ki, onlar səmavi dinləri ictimai hadisə hesab edəcək və onu digər ictimai hadisələrdən əldə etdikləri nəticə kimi qiymətləndirəcəklər. Məsələn, cəmiyyətin ərsəyə çatdırdığı makedoniyalı Isgəndər kimi dahi şəxsiyyətlərdən biri, özünü Allahın elçisi, qərarlarını isə Allahın fərmanları kimi qələmə vermişdir. Onun bu işi keçən fəsildə qeyd olunduğu kimi izah olunacaq.

Biz bununla fövqəltəbii dünyanın mövcudluğunu və elmlərin yalnız öz obyektini

tədqiq etməsini sübut etmək istəmirik. Aydındır ki, maddəni öyrənən maddi elmlər heç vəchlə fövqəltəbii aləmə müdaxilə etmir. Qeyd olunmalıdır ki, müasir alim və mütəfəkkirlərin bu məsələyə (vəhy və nübüvvətə) gətirdiyi aydınlıq, onların bu məsələni izah etmək cəhdləri mütləq bütün mövzuları əhatə etməli və nübüvvətin sənədi sayılan Qur'anla uyğunluq təşkil etməlidir. Əgər onların bu barədə fikir və mülahizələri Qur'anla uyğun deyilsə, Qur'an öz mətni ilə bu fikirlərə qarşı çıxaraq onların düzgün olmadığını sübut edir. Indi isə gəlin, bu fikirləri bir-bir Qur'an ayələri ilə müqayisə edək:

## Allahın sözü

Vəhy və nübüvvətə verilən "izahda" göstərilir ki, Rəsuli-Əkrəm(ə) zehnindən keçən müqəddəs fikirləri Allahın sözü adlandırmışdır. Bu o deməkdir ki, bütün fikirlər öz başlanğıcını məhz, Məhəmməd Peyğəmbərin(s) özündən götürür və bu müqəddəs olduqlarına görə Peyğəmbər (s) onları Allaha aid etmişdir.

Başqa sözlə bu sözlər təbii olduğuna görə, Peyğəmbərə (s), şərəfli olduğuna görə, Allaha aiddir.

Qur'ani-Kərim bir çox ayələrdə bu sözü (Qur'anın Allah kəlamı olmadığını) deyənlərə qarşı çıxaraq, Qur'anın nəinki Peyğəmbərin(s), ümumiyyətlə, bəşər kəlamı olmadığını dəfələrlə xatırladır. Məsələn, "Əgər, bütün bunlar bəşər övladının sözüdürsə, onda Qur'anın söhbət açdığı əqidə, əxlaq, ehkam və s. kimi mövzulara aid buna bənzər bir şey gətirin. Bunu həyata keçirmək üçün istədiyiniz hər vasitədən istifadə edin. Əgər bacarmasanız, bilin ki, bu yalnız və yalnız Allahın sözüdür."[1] Sonra isə buyurur: "Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qur'ana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər" (əl-Isra-88).

Əl-Bəqərə surəsinin 23-cü ayəsində deyilir: "Əgər bəndəmizə (Mühəmmədə) nazil etdiyimizə (Qur'ana) şəkkiniz varsa, siz də (fəsahətdə və bəlağətdə) ona bənzər bir surə gətirin və əgər siz ("bu, bəşər kəlamıdır") iddianızda doğrusunuzsa, onda Allahdan savayı

---

[1] Yunus-38-ci ayə, Hud-13-ci ayə.

(bütün) şahidlərinizi (bütlərinizi, şair və alimlərinizi bu işdə köməyə) çağırın!”.

Ən-Nisa surəsinin 82-ci ayəsində deyilir: “Onlar Qur’an barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyətlər (ixtilaf, uyğunsuzluq) tapardılar.”

Bundan başqa Qur’an bir çox ayələrdə peyğəmbərlərin öz nübüvvətlərini sübut etməsi üçün adi insanın imkanlarından xaric olan müxtəlif mö’cüzələrin mövcudluğunu qeyd edir. Əgər nübüvvət “müqəddəs bəşərin fikirləri” mə’nasında başa düşülən səmavi vəhy olsaydı, onda mö’cüzələr vasitəsilə bu risalətin Allah tərəfindən göndərildiyini sübut etmək cəhdləri mə’nasız olardı.

Bə’zi alimlər bu aydın mö’cüzələri bir sıra dəlillərlə istədikləri istiqamətə yönəldir. Lakin, onların fikirləri ilə tanış olan oxucu Qur’ani-Kərimin bu mülahizələrdən tamamilə fərqləndiyinə şübhə etməyəcəkdir.

Məqsədimiz hansısa fövqal’adə hadisənin və yaxud mö’cüzənin yaranmasının mümkünlüyünü və Qur’an rəvayətlərinin səhihliyini sübut etmək deyil. Əksinə, əsas qayə,

Qur'anın Saleh, Ibrahim, Musa, Isa kimi keçmiş peyğəmbərlər üçün bir sıra mö'cüzələr sübut etdiyini və bunların qeyri-adiliyini çatdırmaqdan ibarətdir. Aydındır ki, vicdan səsinin mövcudluğunu sübut etmək üçün heç bir mö'cüzəyə ehtiyac yoxdur.

## Ruhül-Əmin (Cəbrail)

Qeyd etdiyimiz fikirdən belə anlaşılır ki, (guya) Peyğəmbər (s) öz pak ruhunu əmin ruh, bu ruhun ona təlqin etdiklərini isə vəhy adlandırmışdır. Qur'ani-Kərim ayələri Peyğəmbərə(s) çatdıran varlığı Cəbrail adlandırmaqla bu fikrin tam əsassız olduğunu sübut edir. Allah-təala əl-Bəqərə surəsinin 97-ci ayəsində buyurur: "(Ya Mühəmməd!) Cəbrailə düşmən olan kimsəyə de ki, onu (Qur'anı) özündən əvvəlkiləri (Tövratı və Incili) təsdiqləyici, mö'minlər üçün isə hidayət və müjdəçi olaraq Allahın izni ilə sənin qəlbinə o nazil etmişdir."

Bu ayə yəhudilərin Peyğəmbərdən(s) soruşduqları suala cavabdır. Onlar Peyğəmbərdən (s) soruşdular: "Bu Qur'anı sənə

kim nazil edir?”. Peyğəmbər(s) buyurdu: “Cəbrail.” Onlar dedilər: “Biz Cəbrailin düşməniyik, çünki o, biz Bəni-Israil övladlarına bir sıra məhdudiyyətlər nazil etmişdir. Cəbraillə düşmən olduğumuza görə, onun gətirdiyi (nazil etdiyi) kitaba da iman gətirmirik.” Allah-təala bu ayədə onlara cavab verərək bildirir ki, Cəbrail Qur’anı öz tərəfindən deyil, Allahın izni ilə Peyğəmbərə (s) nazil etmişdir. Qur’an Allahın sözü olduğuna görə ona iman gətirmək lazımdır.

Aydın olduğu kimi, yəhudilər Mühəmməd Peyğəmbərin(s) yalnız özü ilə deyil, ilahi vəhyi ona çatdırmaqda vasitəçilik edən səmavi varlıqla da düşmənçilik edirdilər.

Ilahi vəhyin Peyğəmbərin (s) pak qəlbinə nazil edilməsində vasitəçiliyi Cəbrailə aid edən Qur’an digər bir ayədə bu vasitəçiliyin Ruhül-Əminə mənsub olduğunu qeyd edir. Ayəyə nəzər salaq: “Onu Cəbrail (Ruhül-Əmin) endirdi” (əş-Şüəra-193-cü ayə). Bu iki ayədən aydın olur ki, Ruhül-Əmin dedikdə, Cəbrail nəzərdə tutulur. Allah-təala ət-Təkvir surəsinin 19-23-cü ayələrində Cəbraili belə vəsf edir: “Bu (Qur’an Allah dərgahında) çox möhtərəm olan bir elçinin (Cəbrailin) gətirdiyi kəlamdır. (Elə bir elçi ki) çox qüvvətlidir, ərşin sahibi (Allah) yanında çox

hörmətlidir (izzətlidir). (Elə bir elçi ki, mələklər arasında) itaət ediləndir, həm də (Allah yanında vəhyə) e'tibarlı müvəkkildir. (Ey Məkkə əhli!) həqiqətən, sizin dostunuz (müşriklərin dediyi kimi) divanə deyildir! And olsun ki, (Peyğəmbər) onu (Cəbraili) açıq (ən uca) üfüqdə gördü."

Bu ayələr Cəbrailin(ə) Allah dərgahına yaxınlığını, böyük əzəmət sahibi habelə, Allahın e'tibarlı elçisi olduğunu tam dolğunluğu ilə əks etdirir. Başqa bir ayədə isə Allah öz dərgahına yaxın olan mələklər haqda buyurur: "Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdim edir, Ona (qəlbən) inanır və mö'minlərin bağışlanmasını diləyirlər" (əl-Mu'min-7 ayə). Ayənin Allah dərgahına yaxın olan mələklərin müstəqil, şüurlu və iradəyə malik mövcudat olduqlarına dəlalət etməsi aydındır. Çünki, mələklər üçün ayədə qeyd olunmuş Allaha iman, bağışlanmanı diləmək kimi müsbət keyfiyyətlərin həyata keçməsi sərbəstlik, şüur və iradə olmadan mümkün deyil. Başqa bir ayədə isə Allah-təala bu mələkləri belə vəsf edir: "Isa əl-Məsih də, yaxın mələklər də Allahın qulu olmağı əsla özlərinə ar bilməzlər. Allah Ona ibadət etməyi

özünə ar bilənlərin və lovğalıq edənlərin hamısını Öz hüzuruna toplayacaqdır! (Allah) iman gətirənlərin və yaxşı işlər görənlərin mükafatlarını büsbütün verəcək, üstəlik Öz ne'mətindən onlar üçün (bir qədər də) artıracaqdır. (Allaha ibadət etməyi) özlərinə sığışdırmayanları və lovğalıq edənləri isə acı bir əzaba düçar edəcəkdir! Onlar özlərinə Allahdan savayı nə bir dost, nə də həvadar, tapacaqlar!" (ən-Nisa-172-173-cü ayələr).

Məsihin (ə) və Allah dərgahına yaxın olan mələklərin heç bir günah etməmələrinə baxmayaraq, bu ayədə günah etdikləri təqdirdə Qiyamət günü şiddətli əzabla rastlaşacaqları ilə onlara xəbərdarlıq edir. Aydındır ki, Allahın müəyyən etdiyi hansısa təklifi (qanunu) tərk etdikdə, yalnız şüurlu və müstəqil iradəyə malik varlıq əzabla və'dələnə bilər. Beləliklə, Peyğəmbərə (s) vəhyi endirən Cəbrail(ə) Qur'anın qeyd etdiyi kimi şüura, müstəqil iradəyə və vücuda malikdir.

"(Elə bir elçi ki, mələklər arasında) itaət ediləndir, həm də (Allah yanında vəhyə) e'tibarlı müvəkkildir"[1] ayəsindən anlaşılır ki, Cəbrail(ə) yuxarı aləmdə bir qrup mələyə başçılıq edir və

---

[1] Ət-Təvir-21 ayə.

bə’zi vaxtlarda vəhy onun özü vasitəsilə deyil, tabeliyində olan mələklər vasitəsilə endirilir. Əbəsə surəsinin 11-16-cı ayələrindən də bu mə’nanı anlamaq olur: “Xeyr! (Belə yaramaz, bir daha belə etmə). Həqiqətən, bu (surə, ayələr) bir öyüd-nəsihət-dir. Kim istəsə, ondan öyüd alar (onu yadında saxlayar). (Bu Qur’an Allah dərgahında) çox möhtə-rəm (mö’təbər), səhifələrində (qədir-qiyməti) yüksək (şanı uca), tərtəmiz səhifələrdədir (Şeytan ona toxuna bilməz). (O, Allahla peyğəmbərlər arasında olan) elçi mələklərin əlləri ilə (lövhi-məhfuzdan köçürülür yaxud o, elçi mələklərə e’tibar edilmişdir). (O mələklər ki, Allah yanında) çox möhtərəm, (Allaha) çox müt’idirlər.

## Mələklər və şeytan

Bir sıra müasir alim və mütəfəkkirlərin fikirlərindən aydın oldu ki, onlara görə, insanları xeyirxahlığa və səadətə səsləyən təbii qüvvələrin adi mələklər, onları xoşagəlməz işlərə (bədbəxtliyə) sürükləyən təbii qüvvələrin adı isə şeytanlardır. Lakin Qur’an bu qüvvələri tamamilə başqa formada təqdim edərək, onların

insan hissiyyatının fövqündə duran şüurlu və müstəqil iradəyə malik olduğunu qeyd edir.

Mələklərin imanlı və müstəqil olması, habelə, şüura və iradəyə əsaslanan işlər görməsi haqda bir çox başqa ayələr də vardır. Şeytanlara gəldikdə isə qeyd etməliyik ki, Iblisin Adəmə səcdə etməkdən boyun qaçırması və onunla Allah-təala arasındakı söhbətlər Qur'anın bir neçə yerində öz əksini tapmışdır. Iblis Allah dərgahından qovulduqdan sonra dedi: "Sənin izzətinə-qüdrətinə and olsun ki, onların (Adəm övladının) hamısını (haqq yoldan) azdıracağam; Yalnız sənin sadiq bəndələrindən başqa! (Sad-82-83-cü ayələr)." Allah Iblisin bu sözünə cavab olaraq buyurdu: "Həqiqətən, doğru deyirəm, and olsun ki, Mən Cəhənnəmi səninlə (sənin cinsindən olanlarla) və sənə uyanların hamısı ilə dolduracağam!" (Sad-85-ci ayə).

Aydındır ki, yalnız şüura və müstəqil iradəyə malik varlıq gördüyü hansısa (pis və ya yaxşı) işə əsasən cəzalandırıla (qiymətləndirilə) bilər. Allah-təala Səba surəsinin 20-ci ayəsində yenə bu məsələyə qayıdaraq buyurur: "Iblisin onlar haqqındakı zənni düzgün çıxdı. Içərilərindən bir dəstə mö'min istisna olmaqla, hamısı ona uydu".

Başqa bir ayədə isə belə deyir: Iş bitdikdə (cənnətliklər Cənnətə, cəhənnəmliklər də Cəhənnəmə daxil olduqda), Şeytan (onu məzəmmət edən kafirlərə) belə deyəcək: “Allah (peyğəmbərlər vasitəsilə) sizə (pis əməllərinizə görə Cəhənnəmə düşəcəyiniz barədə) doğru və’d vermişdi. Mən də sizə (kömək edəcəyim haqda) və’d vermişdim, amma sonra və’dimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hökmüm (sizi özümə tabe edə biləcək heç bir qüdrətim) yox idi. Lakin, mən sizi (günah işləməyə, Allaha asi olmağa) çağırdım, siz də mənə uydunuz. Indi məni yox, özünüzü qınayın.” (Ibrahim-22-ci ayə).

Bu ayələr, habelə, belə məzmunda olan bir sıra başqa ayələr Şeytanın elə xüsusiyyətlərini (vəziyyətlərini) açıqlayır ki, bu sifətlər şüurlu və iradəli varlığın ayrılmaz hissəsidir. Heç vəchlə bu xüsusiyyətləri təbii qüvvələrə aid etmək olmaz.

## Cin

Mələklər və şeytanlar haqda olduğu kimi, cinlər haqda da bir çox ayələr vardır. Allah-təala (özünü Allaha, axirət gününə iman gətirməyə də'vət edən) ata-anasına: "tfu sizə! Məndən əvvəl neçə-neçə nəsillər gəlib getdiyi (öləndən sonra dirilmədiyi) halda, siz mənə (Qiyamət günü dirildib qəbirdən) çıxarılacağımımı və'd edirsiniz?!"[1]-deyən kimsələr (övladlar) haqda buyurur: "Belələri özlərindən əvvəl gəlmiş-getmiş cinlərdən və insanlardan ibarət (kafir) ümmətlərlə birlikdə haqlarında əzab sözünün (hökmünün) gerçəkləşdiyi kimsələrdir. Onlar doğrudan da, ziyana uğrayanlardı!" (əl-Əhzab-18-ci ayə).

Bu ayəyə əsasən deyə bilərik ki, cinlərin də insanlar kimi müxtəlif millətləri, müxtəlif vəzifələri vardır, habelə, onlar da müəyyən müddət yaşadıqdan sonra ölərək dünyalarını dəyişir.

Allah-təala əl-Əhzab surəsinin 29-32-ci ayələrində buyurur: "(Ya Peyğəmbər) onu da xatırla ki, bir zaman bir dəstə (ona qədər) cini Qur'anı dinləmək üçün sənin yanına

---

[1] Əl-Əhqaf-17.

göndərmişdik. Onlar onu dinləməyə (yaxud sənin yanında) hazır olduqda (bir-birinə): Qulaq asın! -dedilər və Qur’an oxunub qurtardıqdan sonra (həmcinslərini Allahın əzabı ilə) qorxudanlar sifətilə öz qövmlərinin yanına qayıtdılar. (Işə bax ki, cinlər Qur’anı eşidib ona iman gətirdikləri halda, bu müşriklər hələ də ondan üz döndərirlər). Onlar dedilər: “Ey qövmümüz! Biz Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri (Tövratı, Incili, Zəburu və səhifələri) təsdiq edən, (Allahın bəndələrini) haqqa və düz yola (islam dininə) yönəldən bir kitab dinlədik!

Ey qövmümüz! Allahın carçısını (Mühəmmədi (s)) qəbul edin və ona iman gətirin. Allah (Qiyamət günü) günahlarınızdan keçər və sizi şiddətli əzabdan xilas edər!

Allahın carçısını qəbul etməyən bilsin ki, yer üzündən qaçıb canını Ondan (Onun əzabından) qurtara bilməz və ona Allahdan başqa kömək edən dostlar da tapılmaz. Belələri açıq-aşkar (haqq yoldan) azmışlar!”

Qeyd olunmuş ayələrin insanlar kimi cinlərin də müstəqil düşüncəyə, iradəyə və vəzifələrə malik olmasına dəlalət etməsi

aydındır. Qur'anda Qiyamət ayələri arasında bunu sübut edən başqa ayələr də vardır.

## Vicdanın səsi

Qeyd etdiyimiz kimi, bir sıra alimlərin fikrincə, nübüvvətin mə'nası, insanın daxili aləminin ümumi islahatlara də'vət etdiyi çağırışlardan ibarətdir. Lakin, Qur'anda anlaşılan mə'na tamamilə bu fikrin əleyhinədir və onun düzgün olmadığını sübut edir. Allah-təala buyurur: "And olsun nəfsə və onu yaradana (ona biçim verənə) sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə" (əş-Şəms 7-8-ci ayələr).

Ayənin dəlalət etdiyi mə'naya əsasən hər insan Allah tərəfindən ona verilmiş daxili vicdan vasitəsilə xeyri-şərdən və pisi-yaxşıdan ayıraraq onları dərk edir. Deyə bilərik ki, yaxşı işləri həyata keçirmək üçün "çağırış" hər bir şəxsdə mövcuddur və qrup insanlar bu daxili çağırışı dinləyərək xoşbəxtliyə, digər qrup isə ona qulaq asmayaraq bədbəxtliyə doğru yönəlir. Həmin surənin 9-10-cu ayələrində deyilir: "Nəfsini (günahlardan) təmizləyən mütləq nicat

tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır.”

Əgər nübüvvət hamıda mövcud olan bu daxili çağırışın tə’siri nəticəsində meydana gəlsəydi, hamı nübüvvət və risalətə malik olardı. Lakin görürük ki, bu məqama yalnız xüsusi insanlar layiq görülmüşdür. Bunu əl-Ən’am surəsinin 124-cü ayəsi bir daha sübut edir: “Onlara bir ayə gəldiyi zaman: “Allahın peyğəmbərlərinə verdiyinin (nübüvvətin, mö’cüzələrin) misli bizə verilməyincə, iman gətirməyəcəyik!”-deyərlər. Allah peyğəmbərliyi hara (kimə) göndərəcəyini Özü daha yaxşı bilir.”

Ayədən göründüyü kimi, müşriklər iman gətirmək üçün nübüvvətin ümumi olmasını bir şərt kimi irəli sürürdülər. Allah-təala onlara rədd cavabı verərək nübüvvətin xüsusi olduğunu sübut edir.

## Ikinci mülahizələr haqqında

Dini araşdırmalar aparan müasir alim və yazıçıların mülahizələri ilə tanış olduqdan sonra onların irəli sürdüyü birinci mülahizəyə (Mühəmməd Peyğəmbərin(s) Islamı özündən

uydurması fikrinə) cavab verərək, bunun tam əsassız olduğunu sübut etdik. Onların irəli sürdüyü ikinci mülahizə də Qur'ani-Kərimin ifadə etdiyi mə'naya uyğun gəlmir. Ikinci mülahizəyə görə, Peyğəmbərin (s) əhaliyə öyrətdiyi əqidə əsasları o dövrün elm və mədəniyyətindən uzaq olan insanlara dini siyasət kimi məcburi surətdə təlqin edilmiş əqidəvi mövhumatdan ibarətdir. Habelə, insanların dini qanunlardan boyun qaçırdıqda, şiddətli əzab və'd edən Allahdan və Qiyamət günündən qorxması, pak insanlara və'd edilmiş Cənnətə daxil olması  arzusu ilə Qiyamətə inanaraq dini qanunlara itaət etməsi də xeyirxahlıq üzündən həyata keçmişdir.

Başqa peyğəmbərlərin həyat tərzi, onların yaşadığı tarixi dövr o qədər də aydın deyil. Lakin, Mühəmməd Peyğəmbərin(s) həyat tərzi, ümumiyyətlə onun yaşadığı dövr tarixi tam aydınlığı ilə bir çox kitablarda öz əksini tapmışdır. Onun həyat tarixinə diqqətlə nəzər salan bir şəxs, o Həzrətin öz də'vətində inamlı, imanlı olduğuna və bu də'vətə tam e'timad göstərdiyinə heç bir şübhə etməyəcəkdir. Beləliklə, dini əqidələr "dastanı" mövhumat dastanından ibarət olsaydı, onda Qur'ani-

Kərimdə mövcud olan bütün Islam əqidəsinə, tövhidə, nübüvvətə, Məada və s. dair sübut və dəlillər heç bir mə'na kəsb etməzdi.

## Qur'ani-Kərim vəhy və nübüvvətin mə'nası haqda nə deyir?

Qur'andan anlaşılan mə'naya əsasən, bu səmavi kitab vəhy vasitəsilə Rəsuli-Əkrəmə(s) nazil olmuşdur. Bildiyimiz kimi, vəhy hiss və əqli təfəkkür vasitəsilə dərk olunmayan "dialoqdan" ibarətdir. Onu başa düşmək üçün bə'zən-Allahın istəyi ilə bir sıra insanlarda yaranan xüsusi düşüncə formasına ehtiyac duyulur ki, bunun vasitəsilə də insan hissiyyatının və şüurunun fövqündə duran, habelə, Allah tə'limindən ibarət olan qeybdəki buyuruqlar əldə edilir. Bu xüsusi şüura malikolma prosesi nübüvvət adlanır. Daha aydın başa düşmək üçün aşağıdakı müqəddimələrə diqqət edək:

1.Əvvəlki söhbətlərimiz zamanı qeyd etdik ki, canlı və ya cansız olmasına baxmayaraq, müşahidə etdiyimiz hər şey yarandığı gündən müəyyən hədəfə malikdir və o, öz hədəfinə

doğru hərəkət etməlidir. Habelə o, daşıdığı hədəfə uyğun elə vasitələrlə təchiz olunmuşdur ki, bu vasitələr onun öz növünə məxsus fəaliyyətlərin mənbəyidir. Məxluqatı öz hədəf və məqsədinə, bir sözlə, doğru yola yönəltmək haqda Qur’anda deyilir: “Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da ona doğru yol göstərəndir!” (Taha-50 ayə).

“O Rəbbin ki, (hər şeyi) xəlq etdi və nizama saldı. O Rəbbin ki, (hər şeyin keyfiyyətini, xüsusiyyətini, davam müddətini) əzəldən müəyyən etdi və (hamıya) yol göstərdi” (əl-Ə’la-2-3-cü ayələr).

Qeyd etmişdik ki, insan növü də bu ümumi qanundan (hidayət qanunu) istisna olunmur. Yə’ni, insanın da özünəməxsus hədəfi, məqsədi vardır və o da bu məqsədə uyğun vasitələrlə təchiz edilmişdir. Insanın qələbəsi, öz hədəfinə-səadət və xoşbəxtliyə yetişməkdə olduğu kimi, onun uyğunsuzluğu da, məhz hədəfdən uzaq düşməsindədir. Insan yaranış vasitəsilə hədəfinə doğru hidayət olunur. Allah-təala insanın hidayət olunması haqda belə buyurur: “Həqiqətən, Biz insanı (sonrakı mərhələdə ata-anasının toxumundan ibarət) qarışıq bir nütfədən yaratdıq. Biz onun (dünyada özünü necə

aparacağı, hər şeyin xaliqi olan Allaha itaət edib-etməyəcəyi ilə) imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq. Biz ona haqq yolu göstərdik. Istər (ne'mətlərimizə) minnətdar olsun, istər nankor (bu onun öz işidir) (əl-Insan-2-3-cü ayələr).

"(Allah onu bir qətrə dəyərsiz) nütfədən yaratdı, ona biçim verdi. Sonra onun üçün (ona bətnindən çıxış) yolunu asanlaşdırdı" (Əbəsə-19-20-ci ayələr).

## Insanın üstünlüyü

Canlıları cansızlardan fərqləndirən başlıca səbəb və əsas üstünlük budur ki, onlar elmi fəaliyyət göstərərək, işlərində şüura və idraka əsaslanırlar. Insanın bu elmi fəaliyyətdə başqa canlılarla qarşılıqlı surətdə iştirak etməsinə baxmayaraq, bir sıra üstünlüklərə malikdir. Bu üstünlük insanın ağıl və düşüncə ilə təhciz olunmasındadır. Yə'ni, insan onun üçün fəaliyyət imkanı olan işlərdə yalnız fəaliyyət imkanına əsaslanaraq işə başlamır. O, hər şeydən əvvəl işin xeyirli və ya zərərli olduğunu müəyyənləşdirir. Xeyirli işi həyata keçirir,

zərərli işlərə isə baş qoşmur. O, həyata keçirdiyi hər bir işdə öz ağlının hökmünə qulaq asır. Təbii ki, ağıl zərərli işlərdən uzaq olmağı, yalnız xeyirli və lazımi işləri həyata keçirməyi insana məsləhət görür. Ağlın hökmü dedikdə, insanın hər hansısa işin həyata keçirilməsi yaxud keçirilməməsinin zəruriliyini dərketməsi nəzərdə tutulur. Insanın hansısa işi həyata keçirtməyi istəməsi (yaxud istəməmsi) bilavasitə onun ağlını fəaliyyətə vadar edən hissiyyatı ilə əlaqədardır. Ağıl məhz, hissiyyatın təzyiqi ilə hansısa işin xeyir və zərərli olduğunu təsdiq-təkzib edir.

## Insan növü hansı ictimai mə'nanı kəsb edir

Insanın ictimai varlıq olmasına, onun hələ qədim zamanlardan qruplar (qəbilə, tayfa və s.) tərkibində yaşamasına və çətinlikləri məhz, birlikdə aradan qaldırmasına heç bir şübhə yoxdur. Lakin, insan başqaları ilə birgə

əməkdaşlıq şəraitində hansısa işi görərək, alınan nəticədən öz payını götürməyə meyillidirmi? Habelə, o, ilk növbədəmi bu əməkdaşlığı sevir? Cavab belə olacaqdır ki, hər şeydən əvvəl, insan bir sıra ehtiyac və tələbatlarla yanaşı, müəyyən hissiyyata da malikdir, o istəyi ilə fəaliyyət göstərir və bu mərhələdə onun başçılarının ehtiyaclarından xəbəri yoxdur. Insan öz ehtiyaclarını aradan qaldırmaq üçün bütün vasitələrdən istifadə edir, məqsədlərinə çatmaq üçün dünyada mövcud olan bütün sadə və mürəkkəb yollara əl atır. Beləliklə, bu vasitələrdən bəhrələnməklə çatışmayan cəhətlərini tamamlayır. Həmişə öz mənafeyi uğrunda çalışan insan özü kimi başqa insanlarla qarşılaşdıqda, mənafeyindən keçərək onların mənafeyi uğrunda çalışarmı? Təbii ki, cavabınız "xeyr" olacaqdır.

Insan bir tərəfdən özünün bütün arzu və istəklərini, ehtiyaclarını təklikdə həll edə bilməyəcəyini hiss edir, digər tərəfdən isə anlayır ki, onda mövcud bu arzu və istəklər, onun kimi insan növünə aid başqa insanlarda da vardır. Yə'ni, öz mənafeyini güddüyü kimi, başqaları da öz mənafeyini qoruyur. Elə buna görə də insan yalnız zəruri hallarda (məcbur

olduqda) ictimai əməkdaşlığa razı olaraq başqaları üçün onun mənafeyindən bəhrələnməyə imkan yaradır. Həm də o, bu zaman özünə lazım olan qədər başqalarının mənafeyindən yararlanır. Bununla o, sanki ümumi bir ədalət məhkəməsinə daxil olur. Nəticədə, cəmiyyətin işi formalaşaraq meydana çıxır və hər şəxs cəmiyyətdə tutduğu mövqeyinə görə bu ümumi nəticədən bəhrələnir.

Qeyd etdik ki, insan öz mənafeyini güdür və buna nail olmaq üçün başqalarının əməyindən bəhrələnərək yalnız zəruri hallarda onlarla əməkdaşlığa razı olur. Bunu sübut etmək üçün insanın uşaqlıq dövrünə baxış kifayətdir. Çünki, uşaq ürəyindən keçən hər şeyi tələb edir, tez bir zamanda ağlayaraq həmin şeyin alınmasını tə'kid edir. O, böyüyüb cəmiyyət səhnəsinə atıldıqca vəziyyətlə tanış olur, zaman keçdikcə öz yersiz istəklərini cilovlamağa başlayır. Cəmiyyətə tam daxil olduqdan sonra isə o, bu istəklərdən əl çəkir.

Bunu əsaslandıra biləcək başqa bir sübut da budur ki, insan başqaları ilə müqayisədə, daha artıq qüvvəyə malik olduqda ümumi əməkdaşlığa arxa çevirərək, başqa insanların əməyini heç bir qarşılıq ödəmədən mənimsəyir.

Allah-təala ümumi əməkdaşlıq haqda buyurur: “Dünyada onların dolanacaqlarını öz aralarında biz bölüşdürdük. Bir-birilərinə iş gördürsünlər deyə, bə’zilərinin dərəcələrini digərlərindən üstün tutduq” (Zuxruf-32-ci ayə). Ayə elə insan cəmiyyəti haqda söhbət açır ki, orada hər fərd həyatın müəyyən sahəsində başqalarından üstündür. Bir-birindən fərqlənərək müxtəlif xüsusiyyətlərə malik hər bir şəxs üstün olduğu həyat sahəsində başqalarının əməyini mənimsəyir. Nəticə e’tibarilə, cəmiyyət məhz fərdlərin vasitəsilə yaranır.

Ibrahim surəsinin 34-cü ayəsində deyilir: “Həqiqətən, insan çox zalimdir”. Əl-Əhzab surəsinin 72-ci ayəsində deyilir: “Çünki o, (insan) zalim və cahildir”. Ayə insanın başqalarının əməyini (mənafeyini) mənimsəyərək, onlara zülm etməsinə işarə edir.

## Qanun zərurəti və ziddiyyətin meydana gəlməsi

Bir sıra hallarda insanın birgə əməkdaşlığı məcburi surətdə qəbul etməsinə və bu yolla bə’zi işlərini digərlərinə qurban etməsinə baxmayaraq,

cəmiyyətdəki iştirakını onun maddi və mə'nəvi gücündən irəli gələn müxtəlif fərqlər olmadan təsəvvür etmək mümkün deyil. Cəmiyyətdəki fikir ayrılığının başlıca səbəbi, bu kimi halları (ziddiyyətləri) aradan qaldırmaq və onları düzgün yola istiqamətləndirmək məqsədilə yaradılmış cəmiyyət nümayəndələrinin mənafelərinin toqquşmasından ibarətdir. Elə buna görə də hamının hörmətlə yanaşdığı qanunlar sisteminin mövcudluğuna ehtiyac duyulur. Çünki kiçik alqı-satqının belə, bu cür qanunlar nəzərə alınmadan həyata keçməsi mümkün deyil. Deməli, cəmiyyətin parçalanmasının qarşısını alan, mülkü şəxslərin mənafelərini qoruyan qanunlar sisteminin mövcudluğu zəruridir. Yaranış aləmi də öz proqramını həyata keçirərək insanları xoşbəxtlik və səadətə yetişdirən qanunlara doğru hidayət edir.

Allah buyurduğu kimi[1]: "Insanı yaradaraq onun üçün həyat yolunu asanlaşdırdı." Ictimai həyata məhkum edilmiş insan üçün həyat yolunun asanlaşdırılması dedikdə, onun üçün müəyyən qanunlar sisteminin tərtib olunması nəzərdə tutulur.

---

[1] Əbəsə-20-ci ayə.

## Insanın qanuna tərəf sövq (hidayət) olunması üçün təkcə ağıl kifayət etmir

Bu hidayətin hansı vasitə ilə və hansı istiqamətə yönəlməsindən asılı olmayaraq, o, yaranış aləminin müdaxiləsi ilə həyata keçəcəkdir. Çünki insanı yaradaraq onu üçün xoşbəxtlik hədəfini müəyyyən edən məhz, yaranış aləmidir. Bu aləmin proqramı insanın hidayətolunmasını əhatə edən “ümumi hidayət”-dən ibarətdir.

Aydındır ki, yaranış aləminin nizamlanması işində heç bir səhvə yol verilməmişdir. Əgər hansısa səbəb, nəticəni doğurmursa, deməli, günah səbəbdə deyil və bu səbəbin tə’sirini azaldaraq onu məhv edən başqa amillər, səbəblər mövcuddur. Səbəblər bir-birinə mane olaraq öz tə’sir qüvvələrini puç etməsəydilər, heç zaman səbəb öz hədəfinə qulluqdan boyun qaçıraraq bir-birinin əksi olan iki işi həyata keçirməzdi. Bununla da aydın olur ki, ixtilafı aradan qaldıran qanuna tərəf sövq etmək (hidayət etmək) ağlın işi deyil. Çünki, məhz ağlın özü insanı ixtilafa tərəf sövq edir, insanda öz mənafeyini güdmək,

başqalarının əməyindən bəhrələnmək və tam sərbəstlik hissi oyadır. O, tarazlıq və bərabərliyi məcburi surətdə qəbul edir. Aydındır ki, bir tə'siredici qüvvənin yaranışında bir-birinə zidd iki proses (ixtilafı yaratmaq və onu aradan qaldırmaq) təzahür etmir. Qanunlarla əlaqədar gündəlik həyatda müşahidə olunan bütün ziddiyyətlər, çatışmazlıqlar günah sayılmaqla yanaşı, məhz ağıllı insanlar tərəfindən həyata keçirilir. Çünki, yalnız ağıllı insanların (şər'i qanunların əksinə olan) hərəkətləri günah hesab olunur. Əgər ağıllı insanı ixtilafı aradan qaldıran qanunlara tərəf hidayət etsəydi, ilk növbədə özü bu ziddiyyət və çatışmazlıqların yaranmasına mane olar, onları ayaq açmağa qoymazdı.

Ağlın mövcudluğu şəraitində bu zidiyyət və çatışmazlıqların başlıca səbəbi budur ki, ağıl ictimai tarazlığın yaranmasına və maneələr nəzərə alınmaqla məcburi yolla ictimai ədaləti tə'min edən qanunlara riayət olunmasına, tam sərbəstliyinin qarşısının alınmasına hökm etmişdir.

Qanunu pozaraq ona riayət etməyən şəxslər ya bu qanunu icra edən qüvvələrdən daha güclüdür və heç nədən çəkinməyərək qanunu pozurlar, ya qanunu icra edən şəxslərin ona əli

çatmır, ya da onlar bu qanunsuz hərəkətlərinə qanuni bir don geydirərək onu izah edirlər. Başqa sözlə, qanunu pozan şəxslər, qanun pozuntularının qarşısını alan maneələr olmadıqda (əgər bu maneələr varsa, heç bir əks tə'sir gstərmədikdə) daha fəal olur. Aydındır ki, belə vəziyyətdə ağıl heç bir qüvvəyə malik deyil və o, mütləq sərbəstliyin qarşısını ala bilmir. Deməli, ağıl həm cəmiyyətin, həm də fərdin ədalətli surətdə hüquqlarını qoruyan ictimai qanuna tərəf hidayət etmək gücünə malik deyil. Çünki, ağıl bərabər cəmiyyətdə qanunun riayət olunmasına yalnız qanun pozuntusunun qarşısını alan maneələr mövcud olduğu zaman hökm edir. Özünün tam sərbəstliyi qarşısında hansısa maneənin mövcudluğunu görmədikdə o, ya heç bir hökm etmir, ya da çıxartdığı qərar cəmiyyətə deyil, özünə xidmət edir.

Əl-Ələq surəsinin 6-7-ci aylərində "Allah-təala buyurur: "Xeyr, insan azğınlıq edər". Özünü dövlətli (ehtiyacsız) olduğunu gördüyü üçün varlı, ehtiyacsız olmağın bir növü də şəxsi mənafeyini qorumaq məqsədilə qanun və əməkdaşlıq təşəbbüsünə ehtiyacsızlıqdır.

## Insanın düzgün yola hidayəti üçün yeganə yol, vəhy yoludur

Qeyd etdiyimiz kimi, insan yaranışın başqa məxluqatı kimi özünəməxsus xoşbəxtlik hədəfinə malikdir. Ictimai həyat tərzinə məhkum olunduğuna görə, onun xoşbəxtlik və bədbəxtliyi məhz, cəmiyyətin səadətində və bədbəxtliyindədir. Yə'ni, insan cəmiyyətin bir üzvü olduğuna görə, səadət və xoşbəxtliyini cəmiyyətin səadətində axtarmalıdır. O da aydın olur ki, yalnız ümumi qanun cəmiyyət səadətini və onun tərkibindəki fərd səadətini ədalətlə tə'min edir. Insan öz növünə aid səadət və bu səadətə aparan yollara tərəf yaranış vasitəsilə hidayət olunmalıdır. Insanın səadət və xoşbəxtliyi, cəmiyyət səadəti ilə bilavasitə əlaqədar olduğundan, cəmiyyətin özü də yaranış yolu vasitəsilə "ümumi qanuna" tərəf hidayət olunmalıdır. Əvvəlki söhbətlərimiz zamanı sübut etdik ki, qanuna tərəf sövq etmək üçün ağıl kifayət etmir. Çünki, ağıl bütün hallarda ümumi əməkdaşlıq və ictimai ədalətin riayət olunmasına hökm etmir.

Yuxarıdakı bu müqəddimələrdən nəticə əldə edərək deyirik:

Yaranış hidayətinin həyata keçməsi üçün insanın əqli dərkindən tamamilə fərqlənən bir ünsiyyət vasitəsinə ehtiyac duyulur. Bu xüsusiyyətə malik ünsiyyət vasitəsi yalnız peyğəmbərlərin istifadə etdiyi səmavi vəhy yoludur. Onlar bu vəhy yolundan istifadə edərək gətirdikləri dinin doğruluğunu və həqiqətən, Allah tərəfindən göndərildiyini sübuta yetirmişlər. Allah-təala Qur’ani-Kərimdə buyurur: “Insanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi” (əl-Bəqərə-213-cü ayə).

Başqa bir ayədə deyilir: “(Ya Mühəmməd!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz Ibrahimə, Ismailə, Ishaqa, Yə’quba və onun övladlarına, Isaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu verdik, peyğəmbərlər göndərdik. Onların bə’zisinin əhvalatını bundan əvvəl sənə danışdıq, bə’zisinin əhvalatını isə söyləmədik. Və Allah Musa ilə sözlə (arada heç bir başqa vasitə olmadan) danışdı. Biz peyğəmbərləri

(mö'minlərə) müjdə gətirən və (kafirləri) əzabla qorxudan kimi göndərdik ki, daha insanlar üçün peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın" (ən-Nisa-163-165-ci ayələr).

Birinci ayənin mə'nasından aydın olduğu kimi  Allah vəhy yolunu insanlar arasındakı münaqişə və ixtilafların yeganə həll yolu kimi təqdim edir. Ikinci ayə isə nübüvvət yolunu insanlar üzərindəki hüccətin tamamlanması ilə izah edir ki, bu da ağlın hidayət yolunu müəyyən etməkdə, hüccətin tamamlanmasında kifayət etməməsi zərurətini doğurur. Yə'ni, Ilahi hökmlər peyğəmbərlər vasitəsilə Allah tərəfindən təbliğ edilməsəydi və insanlar pis iş görmədən (zülm və fəsad törətmədən) öz ağılları vasitəsilə "ağı-qaradan" ayırsaydılar, onlar Allah dərgahında heç bir cavabdehlik daşımayacaqdılar.

## Sual və cavab

Sual: Siz "qanunlardakı çatışmazlıqları və insanlar arasındakı ziddiyyətləri "ağıl aradan qaldıra  bilməz" fikrini bəhanə edib, qanunu müəyyən etmək, bu kitabın dili ilə desək, insanı

öz səadətinə doğru hidayət etmək işini ağlın əlindən alaraq vəhy və nübüvvətə aid etdiniz. Bir halda ki, vəhy qanunları belə, insanlar arasındakı ziddiyyətləri həll edə bilmir. Əksinə, insanların bu qanunlara rəğbəti azdır və onlar bu qanunlara çox vaxt riayət etmirlər.

Cavab: Insanlara qanunları öyrətməklə insanların bu qanunlara əməli surətdə necə riayət etməsi arasında çox böyük fərq vardır. Bu iki məsələni eyniləşdirmək olmaz. Ümumi hidayət qanununun tələbi ilə yaranış aləmi üçün həyata keçirilməsi zəruri olan iş insanları qanuna riayət etməyə məcbur etmək deyil, onları hansısa vasitə ilə səadət və xoşbəxtliyi tə'min edə biləcək qanuna tərəf hidayət etməkdən ibarətdir.

Əməl azadlığına heç bir maneə törətməyən qanun pozuntularını misal göstərərək, ağlın insanı hidayət üçün kifayət etmədiyini vurğulamaqda məqsədimiz bu deyildir ki, ağıl əməlin qarşısını almır, əksinə, biz ağlın bu barədə heç bir hökmə malik olmadığını, insanları ictimai əməkdaşlığa və qanun tabeçiliyinə də'vət etmədiyini demək istəyirik. Çünki ağlın qanun tabeçiliyinə də'vəti yalnız zərurətə əsaslanır. Yə'ni, ağıl insanları o zaman qanun tabeçiliyinə də'vət edir ki, onun tam

sərbəst fəaliyyət göstərməsinin qarşısını alan maneələr mövcud olsun. Aydındır ki, belə bir “hakim” (ağıl) sərbəst fəaliyyət göstərməsinin qarşısını alan maneələr mövcud olmadıqda, qanun tabeçiliyinə də’vət etməyəcəkdir.

Deməli, ağıl bütün hallarda (düşdüyü vəziyyətdən aslı olmayaraq) qanun tabeçiliyinə də’vət etmədiyinə görə, insanın əbədi hidayətçisi ola bilməz. Lakin, vəhy yolu heç bir istisna olmadan qanun tabeçiliyinə sövq edir və hökmü yalnız insanları qoruyan, onlar arasında heç bir fərq qoymayan, pis əmələ pis, yaxşı əmələ yaxşı qarşılıq verən sonsuz qüdrət sahibi Allaha aid edir.

Allah-təala Yusif surəsinin 40-cı ayəsində buyurur: ”Hökm ancaq Allahındır”.

Başqa bir ayədə isə deyilir: “Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)” (əz-Zilzal-7-8-ci ayələr).

Başqa bir ayədə isə deyilir: “Həqiqətən, Allah mö’minlər, yəhudilər, sabiilər (ulduzpərəstlər), xaçpərəstlər, atəşpərəstlər və müşriklər arasında Qiyamət günü (haqq ilə batili

ayırd edərək) hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah hər şeyə ilahidir. (Onların nə etdiklərini və nəyə layiq olduqlarını çox gözəl bilir!)" (əl-Həcc-17-ci ayə).

"Məgər onlar bilmirlərmi ki, Allah onların gizlətdiklərini də, aşkara çıxartdıqlarını da bilir?!" (əl-Bəqərə-77).

"Allah hər şeyə nəzarət edəndir!" (əl-Əhzab-52-ci ayə).

Aydın olur ki, vəhy yolu ilə insanlara yetişən səmavi din onların arasında mövcud olan ziddiyyətləri (qanun pozuntularını) aradan qaldırmaq üçün insanlara xas adi qanunlardan daha güclü tə'sirə malikdir. Çünki, bu ziddiyyətləri (qanun pozuntularını) aradan qaldırmaq üçün insanların istifadə edə biləcəyi sonuncu vasitə budur ki, insanlar buna yol verməmək üçün xüsusi nəzarətçilər (mə'murlar) tə'yin edərək qanuna riayət etməyənləri cəzalandırsınlar. Bu vasitənin həyata keçirilməsi də yalnız qanun pozuntusu aşkara çıxarıldıqda və qanun öz aliliyini qorumaq imkanına malik olduqda mümkün olacaqdır. Səmavi din olan Islamın gətirdiyi qanunlara gəldikdə isə, bu qanunlar aşağıdakı imtiyazlara malikdir:

1.Adi qanunlarda olduğu kimi, səmavi din qanunlarının da xüsusi nəzarətçiləri var.

2.Yaxşı işlərə də’vət və pis işlərdən çəkindirmək bu dinin əsaslarından biridir. Bunu icra etməklə, istisnasız olaraq hər şəxs başqa birisinin əməllərinə qarşı nəzarətçi rolunu oynayır.

3.Dini əqidə əsaslarından biri də budur ki, insanların pis və yaxşı olmasından asılı olmayaraq, bütün əməlləri arxivləşdirilərək Qiyamət gününədək saxlanılır.

4.Hər şeydən əvvəl Allah özü insanlara və onların həyata keçirdiyi bütün əməllərə nəzarət edir.

5.Qanun pozuntusuna yol verildikdə, onun cəzasının bəşər qanunlarında olduğu kimi, həm bu dünyadakı qanunlardan fərqli olaraq, həm də axirət dünyasında veriləcəyinə inam bu dinin əqidə əsaslarındandır.

Allah-təala Qur’ani-Kərimdə buyurur: “Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!” (ən-Nisa-59-cu ayə). “Mö’min kişilərlə mö’min qadınlar bir-birinə dostdurlar (həyandırlar). Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər...” (ən-Nisa-71-ci ayə).

“Sizin üstünüzdə gözətçi mələklər (əməllərinizi) yazan və (Allah dərgahında) çox hörmətli olan mələklər vardır.

Onlar sizin nə etdiklərinizi bilirlər” (əl-Infitar-10-12-ci ayələr).

“Sənin Rəbbin hər şeyi hifz edəndir” (Səba-21-ci ayə).

Sual: Qeyd etdiklərimizə əsasən, ağıl həmişə qanun tabeçiliyinə və qanun pozuntularının qarşısının alınmasının zəruriliyinə hökm etmir. Bu mə’na, Əhli-beytdən (ə) rəvayət edilmiş bir sıra hədislərlə zidiyyət təşkil edir. Çünki, bu hədislərdə göstərilir ki, Allah-təalanın insanlar üzərində iki hüccəti vardır.

1.Zahiri hüccət-peyğəmbər.

2.Batini hüccət-ağıl.

Buna görə də ağlın hüccət olmasını əsaslandırmaq üçün əksər hallarda onun düzgün hökm etməsi fikrini qəbul etməliyik.

Cavab: Heç bir istisnasız, ağlın işi mənfəətin (xeyrin) cəlb olunması ilə yanaşı, zərərin uzaqlaşdırılmasından ibarətdir. Öz xeyrini güdən insanın başqaları ilə əməkdaşlığı məcburiyyət əsasında həyata keçdiyindən, insan məhz onların əməyindən sərbəst surətdə

bəhrələnmək istəyir. Təbii ki, ağılı buna (düzgün hökmə) vadar edən bir amil olmadıqda, qanun tabeçiliyin vacibliyinə hökm etməyəcəkdir. Lakin, məcburiyyətin mənşəyi, əgər Allahın hökmü əməllərin qorunması, qanuna qarşı çıxanların cəzalandırılması haqqında qəflət, cəhalət və acizlik sözünün keçmədiyi Allaha aiddirsə, bu zaman ağıl heç bir çıxış tapmayaraq, yalnız vəhyin hökm etdiyinə əsaslanacaqdır. Allah-təala buyurur: "Hər bir kəsin (dünyada yaxşıdan, pisdən) nə qazandığına nəzarət edən Allah bunu bacarmayan bütlər kimidirmi?!" (Əsla yox!)[1] "Elə bir kimsə yoxdur ki, onun üstündə bir gözətçi (mələk) olmasın!"[2]

"Hər kəs öz əməlinin girovudur! (Hərə öz əməlinin əvəzini alacaqdır!)"[3].

## Vəhy yolu bütün səhvlərdən xali və toxunulmazdır

Aydın oldu ki, vəhy yolu və insanın ictimai həyat tərzinin bu yolla öyrədilməsi yaranış proqramının bir hissəsini təşkil edir. Təbiət və

---

[1] Ər-Rə'd-33-cü ayə.
[2] Ət-Tariq-4-cü ayə.
[3] Əl-Muddəssir-38-ci ayə.

yaranış öz işində heç vaxt səhvə yol vermir. Yə'ni, vəhy yolu insanlara tə'lim edilən səmavi din materialı keçdiyi bu yolda heç bir səhvə (xətaya) mə'ruz qalmayacaqdır. Allah-təala Qur'anda buyurur: "Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz. Bəyənib seçdiyi peyğəmbərdən başqa! Qeybi nə bir mələk, nə də bir peyğəmbər bilər. Onun açarları ancaq Allahın əlindədir. Lakin, Allah istədiyi peyğəmbərə bir mö'cüzə olaraq, vəhy yolu ilə qeybdən bə'zi xəbərlər bildirir. Allah onların önündə və arxasında (mələklərdən ibarət) gözətçilər qoyar ki, (peyğəmbərlərinin) öz Rəbbinin göndərdiklərini (nə cür) təbliğ etdiyini bilsin (bəxş etsin). (Allah) onlarda olanların hamısını (peyğəmbərlərin əhvalını və bütün əməllərini Öz elmi ilə) ehtiva etmişdir. O, hər şeyi bir-bir sayıb yazmışdır (təsbit etmişdir)".[1]

Buna görə də Allahın elçiləri həm vəhy tə'limatını ilahi aləmdən almaqda, həm onları qorumaqda, həm də bu tə'limatın təbliğində bütün xətalardan xalidir (mə'sumdur). Çünki, peyğəmbərlər yaranış aləminin həyata keçirdiyi "ümumi hidayət" proqramını reallaşdıran vasitələrdir. Bu vasitələr vəhyin Ilahi aləmdən

---

[1] Əl-Cinn-26-28.

qəbul edilməsində və onun insanlara çatdırılmasında hansısa səhvə yol versəydilər yaxud nəfsani istəklərə tabe olaraq vəhy yoluna xəyanət etsəydilər (təbii ki, onlar bu zaman əməli surətdə sözdə təbliğ etdiklərinə qarşı çıxmış olurlar), deməli, yaranış aləmi öz hidayət proqramını həyata keçirməkdə səhvə yol vermiş olardı ki, bu da qeyri-mümkün işdir. Allah-təala Qur'ani-Kərimdə buyurur: "Doğru yol (Islam) Allaha aiddir. Ondan (haqdan) kəc olan yol (və ya haqdan kənara çıxan) da vardır."[2]

## Vəhyin həqiqəti bizə namə'lum qalır

Adın oldu ki, insanın öz səadətinə yetişməsi üçün ilkin mərhələ və tə'limi yalnız yaranış öhdəsinə verilmiş həyat proqramı insana ağıl vasitəsilə çatdırıla bilməz. Insanın həyat proqramı biliklərini əldə etməsi üçün onun düşüncə tərzindən (təfəkkür yolundan) tamamilə fərqlənən başqa bir "qavrama yoluna" ehtiyac duyulur. Bu yol, vəhy yolu adlanır.

Dediklərimiz insan növündə belə bir qavrama yolunun mövcudluğu zərurətini

[2] Ən-Nəhl-9-cu ayə.

doğurur. Lakin bu o demək deyil ki, hamı belə bir qavramaya (dərkə) malikdir. Əksinə, vəhyin qəbul edilməsi üçün hər bir nöqsandan xali olan düzgün düşüncəyə, xüsusi dərkə ehtiyac duyulur. Müşahidə etdiyimiz kimi, insanlar öz düşüncə tərzlərinə görə müxtəlif təbəqələrə ayrılır. Buna görə də, belə düşüncə (ilahi vəhyi dərk edərək, qəbul etməyə hazır olan düşüncə) tərzi çox nadir hallarda bir sıra insanlarda formalaşır. Qur'an bu insanları peyğəmbər adlandıraraq onların bir neçəsinin adını qeyd edir.[1]

Bütün bunlar Qur'anda adı çəkilmiş peyğəmbərlərdir. Elə peyğəmbərlər də vardır ki, Qur'anda onların adı çəkilməyib və yalnız işarə edilmişdir. Buna misal olaraq, ən-Nisa surəsinin 163-cü ayəsində Isbata, əl-Bəqərə surəsinin 246-cı ayəsində Samuilə (Uşmuilə), əl-Bəqərə surəsinin 258-ci ayəsində Nəmruda və Yasin surəsinin 14-cü ayəsində bir neçə peyğəmbərə işarə edilməsini göstərmək olar.

Vəhy həqiqətlərini dərk etmək qabiliyyətinə malik olmadığımıza görə bu prosesi tam mə'nası ilə anlamırıq və həqiqətləri bizə məchul olaraq

---

[1] Adəm, Nuh, Idris, Hud, Saleh, Ibrahim, Lut, Ismail, Əl-Yəsə, Zulkufl, Əl-Yə's, Yunus, Ishaq, Yə'qub, Yusif, Şü'eyb, Musa, Harun, Davud, Süleyman, Əyyub, Zəkəriyyə, Yəhya, Isa, Mühəmməd(s).

qalır. Biz bu prosesin Qur'ani-Kərim kimi bə'zi nəticələrinin şahidi olmuş və nübüvvət yolu ilə bizə yetişən bir sıra xüsusiyyətləri haqda mə'lumat əldə etmişik. Elə buna görə də vəhyin bizim bildiklərimizdən ibarət olduğunu deyə bilmərik. Çünki, vəhyin bizim bilmədiyimiz bir çox xüsusiyyətlərə malik olması istisna olunmur.

Qur'ani-Kərimin vəhyolunma keyfiyyəti, Qur'anın öz dili ilə desək, bu müqəddəs kitabın vəhyi dialoq şəklində həyata keçmişdir. Yə'ni, Allah-təala öz Peyğəmbəri ilə danışmışdır. Və O, bütün vücudu ilə (nəinki, tək qulağı ilə) Allahın sözünü dərk etmişdir. Allah-təala Qur'anda buyurur: "(Heç bir bəşər övladına Allahla danışmaq müyəssər olmaz, çünki bəşər övladı olan peyğəmbərlər maddi aləmdə, zaman və məkan daxilində olduqları halda, Allah qeyri-maddidir, zaman və məkan xaricindədir. Allahla onlar arasında minlərlə zülmət və nur pərdəsi vardır. Buna görə də, Allahın peyğəmbərlərlə bir yerdə qarşı-qarşıya durub danışması qeyri-mümkündür). Allah bəşər övladı ilə (Musanın anası ilə olduğu kimi) ancaq vəhylə (ilham və rö'ya ilə), yaxud (Musa kimi) pərdə arxasından danışar (Allahın kəlamı eşidilər, amma Özü görünməz). Və ya bir elçi (mələk) gönədərər ki,

o da Allahın iznilə (göndərildiyi kimsəyə Allahın) istədiyini vəhy edər. Həqiqətən O, (hər şeydən) ucadır, hikmət sahibidir!”.

(Ya Rəsulum! Əvvəlki peyğəmbərlərə vəhy nazil etdiyimiz kimi) sənə də beləcə əmrimizdən olan bir vəhy (mö’minlərə mə’nəvi həyat verən Qur’an) göndərdik. Sən (bundan əvvəl) kitab nədir, iman nədir bilməzdin. Lakin, Biz onu bəndələrimizdən dilədiyimizi haqq yola qovuşdurmağımız üçün bir nur etdik. Sən (onunla insanları) düz yola yönəldirsən (islam dininə də’vət edib, haqqa qovuşdurursan).”[1]

Ayələrdən anlaşılan mə’naya əsasən aydın olur ki, Allah-təalanın Peyğəmbərlə danışmasının üç müxtəlif forması vardır.

1.Allahın insanla arada heç bir vasitə olmadan danışması.

2.Allahın bəşər övladı ilə pərdə arxasından danışması (Musanın Tur ağacı tərəfdən Allahın kəlamını eşitməsi).

3.Mələklər vasitəsilə insana çatdırılan Allah kəlamı. Bu zaman Allah kəlamını bəşər övladına çatdıran vəhy mələyinin səsi eşidilir.

Ikinci ayə qeyd edir ki, Qur’ani-Kərim məhz bu yolla Rəsuli-Əkrəmə(s) yetişmişdir.

---

[1] Əş-Şüəra-51-52-ci ayələr.

Beləliklə, aydın olur ki, Qur'anın vəhy olunması danışıq yolu ilə həyata keçmişdir.

Allah-təala başqa bir ayədə buyurur: "Onu Cəbraili (Ruhül-Əmin) endirdi.

(Günahkarları Allahın əzabı ilə) qorxudan peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi).

Özü də, açıq-aydın ərəb dilində."[2]

Başqa bir ayədə isə deyilir!

"(Ya Mühəmməd!) Cəbrailə düşmən olan kimsəyə de ki, onu (Qur'anı) özündən əvvəlkiləri (Tövratı və Incili) təsdiqləyici, mö'minlər üçün isə hidayət və müjdəçi olaraq Allahın izni ilə sənin qəlbinə o nazil etmişdir."[1]

Bu ayələrdən anlaşılır ki, Qur'an yaxud onun bir hissəsi vəhy mələyi olan Cəbrail-Ruhül-Əmin vasitəsi ilə göndərilmişdir (bu üsul yuxarıda qeyd etdiyimiz dialoqun 3-cü formasına aiddir).

Rəsuli-Əkrəmin(s) Qur'anı vəhy mələyindən qulağı ilə deyil, qəlbi və bütün varlığı ilə qəbul etməsi haqda deyilir: "Sonra (Cəbrail Allahın Öz) bəndəsinə (Mühəmmədə) vəhy buyurduğunu vəhy etdi.

---

[2] Əş-Şüəra-193-195-ci ayələr.

[1] Əl-Bəqərə-97-ci ayə.

Qəlb (Peyğəmbərin(s) qəlbi) gördüyünü yalan saymadı. (Mühəmməd əleyhissəlam gözü ilə gördüyünün Cəbrail olduğuna qəlbən inandı).

Siz onunla görüşdüyü barəsində mübahisəmi edirsiniz?”[2]

Başqa bir ayədə isə vəhyin qəbul olunması pak səhifələrin olması kimi təqdim edilmişdir.

(Bu açıq-aşkar dəlil isə) pak səhifələri onlara oxuyan, Allah tərəfindən göndərilmiş Peyğəmbərdir (Mühəmməd əleyhissəlamdır).”[3]

Sonda qeyd etməkliyik ki, vəhyin növləri, sifət və xüsusiyyətləri haqda Qur’andan bir çox məsələlər də anlaşılır ki, geniş izaha ehtiyac duyulduğundan onları bu kitaba daxil etmirik.

## DÖRDÜNCÜ FƏSIL

[2] Ən-Nəcm-10-12-ci ayələr.

[3] Ən-Bəyyinə-2 ayələr.

## Qur’anın müxtəlif alimlərlə əlaqəsi

1.Qur’ani-Kərimin elmə və onun təhsilinə verdiyi yüksək qiymət.

2.Qur’ani-Kərim insanları hansı elmləri öyrənməyə də’vət edir?

3.Qur’ani-Kərimə məxsus olan elmlər.

4.Qur’ani-Kərimin bir sıra elmlərin formalaşmasında rolu.

## Qur’ani-Kərimin elmə və onun təhsilinə verdiyi yüksək qiymət

Elm və biliyi Qur’ani-Kərim qiymətləndirdiyi kimi heç bir səmavi kitab qiymətləndirməmişdir. Təkcə bunu demək kifayətdir ki, Qur’an ərəblərin Islama qədərki dövrünü, cahiliyyət dövrü adlandırmışdır. Qur’ani-Kərim yüzlərlə ayədə müxtəlif yollarla elm və biliyin adını çəkərək, onun aliliyindən söhbət açmışdır. Allah-təala Qur’anda buyurur: “(O Rəbbin ki) insana bilmədiklərini öyrətdi![1]” “Eləcə də sizə: “Qalxın!”-deyildikdə, qalxın ki, Allah da sizdən iman gətirənlərin və (xüsusilə)

[1] Ən-Ələq-5-ci ayə.

elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın."[2]

"Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?![3]".

Bu barədə çoxlu Qur'an ayələri, Peyğəmbər (s) və Əhli-beyt (ə)-dan rəvayət edilən saysız-hesabsız hədislər vardır.

## Qur'ani-Kərim insanları hansı elmləri öyrənməyə də'vət edir?

Qur'ani-Kərim bir çox ayələrdə insanları səma cismlərinin, parlaq ulduzlarının, onlarda baş verən qəribə dəyişikliklərin və bu cismlərə hakim kəsilmiş dəqiq nizam-intizamın, habelə, Yerin, Göyün, dağların, dənizlərin, səhraların, bir sözlə, özü daxil olmaqla, onu əhatə edən hər bir şeyin yaranışı haqda düşünməyə də'vət edir. Deməli, Qur'an insanı bəşər fikrinin yetişə biləcəyi və insan cəmiyyətinə xoşbəxtlik gətirən hər bir elmin öyrənilməsinə də'vət edərək, onları yüksək qiymətləndirmişdir. Qeyd etmək lazımdır ki, bu elm insanın həqiqətə yetişməsi

[2] Əl-Mücadələ-11-ci ayə.
[3] Əz-Zumər-9-cu ayə.

üçün apardığı rola malikdirsə, qayəsi (sərlövhəsi) Allahı tanıma olan həqiqi dünya görüşünü əhatə edirsə, deməli, Qur'an insanı onların öyrənilməsinə də'vət edir. Ümumiyyətlə, insanı həqiqətdən sapındıran hər bir elm Qur'an ürfündə cəhalətə bərabər tutulmuşdur. Allah-təala Qur'ani-Kərimdə buyurur: "Onlar dünya həyatının zahirini (ticarət və əkinçilik işlərini, məişət məsələlərini) bilirlər, axirətdən isə xəbərsizdirlər."[1]

"(Ya Peyğəmbər!) Nəfsini özünə tanrı edən və Allahını bilərəkdən (onu hələ yaratmamışdan gələcəkdə kafir olacağını bildiyi üçün) yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allahdan başqa kim onu doğru yola sala bilər?!".[2]

Qur'ani-Kərim özü də müxtəlif elmlərin öyrənilməsinə etdiyi bu çağırışlarla yanaşı, ilahi bilikləri, Islam əxlaqını, fiqh[3] elmini tə'lim edən kamil bir vasitəyə çevrilmişdir.

---
[1] Ər-Rum-7-ci ayə.
[2] Əl-Casiyə-23-cü ayələr.
[3] Müsəlman hüququ.

## Qur'ani-Kərimə aid olan elmlər

Müsəlmanlar arasında elə elmlər də vardır ki, onların tədqiqat obyekti məhz Qur'anın özüdür. Bu elmlərin yaranma tarixi Qur'anın nazil olduğu ilk günlərlə bilavasitə əlaqədardır. Onlar tədricən, müsəlmanlar arasında yayılaraq müəyyən inkişaf yolu keçmiş, tam bir fənn kimi formalaşdıqdan sonra isə haqqında cildlərlə kitab yazılmış müstəqil elm sahələrinə verilmişdir. Bu elmlər şərti olaraq iki yerə ayrılır.

1.Qur'ani-Kərimin sözlərini tədqiq edən elmlər.

2.Qur'ani-Kərimin mə'na və məfhumlarını öyrənən elmlər.

Qur'anın sözlərini tədqiq edən elmlər təcvid[1] və qiraət fənnlərindən ibarətdir. Bunları aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür.

1.Ərəb hərflərinin tələffüzü, düşdüyü vəziyyətdən asılı olaraq bu hərflərdə idğam, vəqf, ibtida və s. kimi baş verən müxtəlif dəyişikliklər haqda söhbət açan elm sahəsi.

---

[1] Təcvid, Qur'ani-Kərimin ərəb dilinin qaydalarına müvafiq oxunmasını öyrədən elmdir.

2.Məşhur yeddi qiraət növünü, həmçinin, buna əlavə edilən üç qiraət növünü, səhabənin qiraətini və nadir qiraət növlərini öyrənən elm sahəsi.

3.Surələrin, onların ayələrinin, sözlərinin və hərflərinin sayılması ilə məşğul olan elm sahəsi.

4.Qur’ani-Kərimin özünəməxsus yazı formasını, həmçinin, bu yazı ilə adi ərəb yazısı arasındakı uyğunsuzluqları (ixtilafları) öyrənən fənn.

Qur’anın məna və məfhumunu tədqiq edən fənnlərə gəldikdə isə, onlar aşağıdakılardan ibarətdir.

1.Ayələrin tənzil, tə’vil, batin, zahir, möhkəm, mütəşabih, nasix və mənsux kimi mə’na toplularını tədqiq edən fənn.

2.Ayələrlə yanaşı, ilahi hökmləri tədqiq edən fənn. Əslində, bu sahə müsəlman hüququnun (fiqhin) bir şö’bəsidir.

3.Qur’an ayələrinin izahı ilə məşğul olan elm sahəsi. Bu elm sahəsi Qur’ani-Kərimin təfsiri adlanır.

Islam tədqiqatçıları Qur’ani-Kərimə xas olan bu elmlərin hər birinə dair saysız əsərlər həsr edərək, onların inkişafına öz töhfələrini bəxş etmişlər.

## Qur'ani-Kərimin bir sıra elmlərin formalaşmasında rolu

Şübhə yoxdur ki, bu gün müsəlmanlar arasında mövcud olan dini elmlərin yaranma tarixi Rəsuli-Əkrəmin(s) be'səti dövrünə, həmçinin, özü ilə şər'i qanunlar toplusunu gətirən Qur'anın nazil olduğu dövrə təsadüf edir. Bu elmlər hicrətin 1-ci yüzilliyində xilafət tərəfindən hədislərin qeydə alınaraq toplanmasına və s. qoyulmuş qadağan nəticəsində qeyri-mütəşəkkil formada səhabə və tabiin arasında tədris olunurdu. Fiqh, təfsir və hədis haqqında müxtəsər qeydlər aparan kiçik bir qrupu çıxmaq şərti ilə camaatın əksəriyyəti əzbərçilik yolu ilə bu elmləri nəsildən-nəsilə köçürdü.[1]

Hicrətin 2-ci əsrinin əvvələrində qadağa götürüldükdən sonra müsəlmanlar hədisləri qeydə almağa və müxtəlif elmlərə dair tədqiqat əsərləri yazmağa başladılar. Beləliklə, hədis,

---

[1] Bu qadağa hicrətin 99-101-ci illərində Əməvi xəlifələrindən olan Ömər ibn Əbdüləziz tərəfindən götürülmüşdür.

rical[2] Üsuli-fiqh (müsəlman hüququnun əsasları) fiqh və kəlam elmi meydana gəldi. Bu zaman yunan dilindən ərəb dilinə tərcümə olunmaqla Islam mühitinə daxil olan və bir müddət heç bir dəyişikliyə uğramayan fəlsəfə belə, qısa zaman fasiləsi keçdikdən sonra bu mühitin təfəkkür tərzinin tə'siri altına düşərək həm forma, həm də məzmun baxımından müəyyən dəyişikliklərə uğradı. Bu gün müsəlmanlar arasında mövcud olan fəlsəfədə irəli sürülmüş hər bir mühakimənin Qur'andan və hədisdən qaynaqlanması, yuxarıda qeyd etdiyimiz fikri bir daha sübut edir. Bütün bunları ərəb dili haqqında da söyləmək olar. Bildiyimiz kimi, ərəb dilinin morfologiyası, sintaksisi, fəsahət və bəlağəti, üslub gözəlliyi və s ərəb dilinin tədqiqat obyekti olmasına baxmayaraq, müsəlmanları bu dilin qayda-qanunlarını tədqiq etməyə vadar edən əsas amil, şübhəsiz ki, ilahi şah əsərin (Qur'ani-Kərimin) bu dildə nazil olmasıdır. Məhz, bu şah əsərin şirin ifadə tərzi, üslub gözəlliyi və ahəngdarlığı müsəlmanları özünə cəlb etmiş və onları bu dildəki cümlələrin tərkibi, sözlərin quruluşu və mə'nası, ifadələrin

[2] Hədislərin sənədini öyrənən, onların düzgün olub-olmadığını müəyyənləşdirən elm sahəsi.

fəsahət və bəlağəti ətrafındakı bilikləri artırmağa vadar etmişdir. Beləliklə, sərf (ərəb dilinin morfologiyası), nəhv (ərəb dilinin sintaksisi), lüğət elmləri və bəlağətə dair bir sıra başqa fənnlər formalaşaraq meydana gəldi.

Səhabə müfəssirlərindən olan Ibn Abbas ayələrin mə'nasını açıqlayarkən, ərəb şe'rindən istifadə edir. Bu şe'rlərin toplanmasını tövsiyə edərək deyirdi: "Şe'r ərəblərin divanıdır." Beləliklə, ərəb nəsri daxil olmaqla, ərəb şe'rinin gözəl nümunələri toplanaraq qeydə alındı. Belə ki, Xəlil ibn Əhməd Bəsri kimi məşhur şiə alimi lüğət sahəsində "Kitabü-l-eyn" adlı ilk ərəb lüğətini yazaraq, ərəb şe'rinin vəznlərini müəyyən etmək üçün əruz elmini tərtib etdi. Bir sıra başqaları da bu iki fənnə aid bir çox əsərlər yazmışdır.

Qeyd etməliyik ki, Islamda tarix fənni də hədis elmindən qaynaqlanaraq ilk öncə, peyğəmbərlərin, millətlərin və Rəsuli-Əkrəmi (s) həyatından başlamaqla inkişaf etmiş, sonra müxtəlif tarixi dövrlərə bölünmüşdür. Zaman keçdikcə, bu tarixi hadisələr qloballaşmış və dünya tarixi formasını alaraq Təbəri, Mə'sudi, Yə'qubi və Vaqidi kimi böyük tarixi irslər qoymuş tarixçilər yetişdirmişdir.

Tərcümə vasitəsilə müsəlmanlara keçmiş bir sıra elmlərdə yeniliklər edərək, bu elmlərin müsəlmanlar tərəfindən “özünküləşdirilməsi” prosesi məhz, Qur’ani-Kərimin müsəlmanlara bəxş etdiyi mədəniyyətin nəticəsidir. Ilk öncə, Xilafət tərəfindən bir sıra elmlər yunan, siryani və hind dillərindən ərəb dilinə tərcümə edilərək müxtəlif millətlərdən təşəkkül tapmış müsəlman ümmətinin istifadəsinə verildi. O gündən e’tibarən, bu elmlərin inkişafı daha da mütəşəkkil xarakter daşımağa başladı. Aydındır ki, Mühəmməd Peyğəmbərin(s) vəfatından az sonra dünyanın böyük bir hissəsini əhatə etmiş Islam mədəniyyəti, və bu gün bir milyarda yaxın insanın müsəlman adını daşıması, Qur’ani-Kərimin bu mühitə bəxş etdiyi tə’sirin bariz nümunəsidir (Biz şiə olaraq, bu mədəniyyətin xadimləri olan xəlifələrə və sair hökmdarlara dini həqiqətlərin açıqlanmasında və qanunların icrasında etdikləri güzəştlərə görə e’tirazımıza baxmayaraq, bu mədəniyyətin əsasında Qur’an dayanır). Həmçinin mə’lumdur ki, dünya hadisələri gedişatının bariz nümunəsi olan bu zaman (Islam dinin yaranması) kəsiyindəki dəyişikliklər, təbii ki, növbəti dövrlərə kifayət dərəcədə tə’sir göstərəcəkdir. Bu üzdən, tam

cəsarətlə deyə bilərik ki, bu günki, dəyişikliklərin dünya mədəniyyətinin inkişaf edərək genişlənməsinin əsas amillərindən biri də məhz, Qur'ani-Kərimdir. Əlbəttə, bu məsələyə lazımi səviyyədə aydınlıq gətirmək üçün daha geniş təhlilə ehtiyac duyulur. Lakin bu kitabın müxtəsər olması nəzərdə tutulduğundan qeyd etdiyimiz fikri ətraflı işıqlandırmaq imkanına malik deyilik.

# BEŞINCI FƏSIL

## Qur'ani-Kərimin nazil olma ardıcıllığı və müsəlmanlar arasında yayılması

1.Qur'ani-Kərimin ayələri hansı ardıcıllıqla nazil olmuşdur?

2.Səbəbi-nüzul (ayənin nazil olmasının səbəbi).

3.Ayənin nazil olma səbəbini müəyyənləşdirərkən hansı üsuldan istifadə olunmalıdır?

4.Surələrin nazil olma ardıcıllığı.

5.Rəvayətlərə bir baxış.

6.Qur'ani-Kərimin kitab halına salınması.

7.Qur'ani-Kərim Peyğəmbərin (s) vəfatından sonra.

8.Qur'ani-Kərim tərtib edilərkən müsəlmanların göstərdiyi diqqət və qayğı.

9.Qur'ani-Kərim hər cür təhrifdən xalidir.

10.Qur'ani-Kərimin qiraəti, əzbərlənməsi və rəvayəti.

11.Qarelərin təbəqələri.

12.Yeddi qare.

13.Qur'ani-Kərimin ayələrinin sayı.

14.Qur'ani-Kərimin surələrinin adları.

15.Qur'ani-Kərimin xətti və hərəkət.

## Qur'ani-Kərimin ayələri hansı ardıcıllıqla nazil olmuşdur?

Bildiyimiz kimi, Qur'ani-Kərimin surə və ayələri birlikdə deyil, tədricən və müəyyən ardıcıllıqla nazil olmuşdur. Qur'anın tədricən, 23 il ərzində nazil olmasını həm qəti tarixi faktlar, həm də Qur'an ayələri sübut edir. Məsələn, Əl-Isra surəsinin 106-cı ayəsində deyilir: "Insanlara aramla (yavaş-yavaş) oxuyasan deyə, Biz Qur'anı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik. Biz onu tədriclə, (iyirmi üç ilə yaxın bir müddət ərzində) nazil etdik."

Qeyd etdiyimiz kimi, Qur'an nasixə, mənsuxa malikdir və burada eyni zamanda baş verməsi mümkün olmayan (tarixi baxımdan müxtəlif vaxtlarda baş vermiş) hadisələrlə sıx bağlı olan ayələr vardır. Bütün bunlar Qur'an ayələrinin "bir dəfəyə" nazil olması fikrinin əsassız olduğunu bir daha sübut edir.

Həmçinin, Qur'ani-Kərimin ayə və surələri bu gün Qur'anda müşahidə etdiyimiz ardıcıllıqla nazil olmamışdır. Çünki, həm tarixi faktlar, həm də bir sıra ayələrin məzmunu sübut edir ki, əl-Ələq və Nur kimi be'sətin ilk dövrlərinə təsadüf edən (aid olan) bə'zi surə və ayələr Qur'ani-Kərimin sonunda, əl-Bəqərə, Ali-Imran, ən-Nisa, əl-Ənal, ət-Tövbə kimi məzmun e'tibarilə

hicrətdən sonrakı dövrə, həmçinin, Rəsuli-Əkrəmin(s) son dövrlərinə aid olan bir çox surə və ayələr Qur’ani-Kərimin əvvəllərində yerləşdirilmişdir.

Bunlarla yanaşı aydındır ki, nazil olma baxımından, Qur’ani-Kərimin ayə  və surələrinin məzmun müxtəlifliyi Rəsuli-Əkrəmin(s) Islama də’vət etdiyi müddət ərzində baş vermiş müxtəlif hadisələrlə qarşıya çıxan problemlərin aradan qaldırılması ilə bilavasitə əlaqədardır. Məsələn, Müşriklərin Islama də’vət olunmasına və bütpərəstliklə mübarizəyə aid olan surə və ayələr Rəsuli-Əkrəmin(s) Məkkə bütpərəstlərini Islama də’vət etdiyi hicrətdən əvvəlki dövrlərdə bir sıra döyüşlərin aparılması, dini hökmlərlə əlaqədar ayə və surələr isə Mədinə şəhərində güclü müsəlman dövlətinin yarandığı hicrətdən sonrakı dövrlərə aiddir.

Belə nəticə çıxarmaq olar ki, Qur’ani-Kərimin surə və ayələri nazil olduqları məkan, zaman, səbəb, habelə, onun nazil olmasını zəruri edən şərait baxımından aşağıdakı qruplara bölünür.

1.Qur’ani-Kərimin bə’zi surələri Məkki[1] digər bir qismi ilə Mədinidir.[2] Hicrətdən əvvəl

[1] Məkkədə nazil olmuş surələrə deyilir.

nazil olmuş surələri isə (Mədinədən kənarda, hətta Məkkədə nazil olmasına baxmayaraq) mədəni adlandırırlar. Qur'an surələrinin əksəriyyəti, xüsusilə də kiçik surələr Məkki surələrdir.

2.Bir sıra surə və ayələr səfər zamanı, digər bir qismi isə adi vaxtlarda nazil olmuşdur. Həmçinin, Qur'ani-Kərimin surə və ayələri gecə və ya gündüz, sülh zamanı və ya müharibə şəraitində, yerdə və ya göydə, xalq içində və ya təklikdə nazil olmasına görə də bir-birindən fərqlənir. Bütün bunları bilməyin bizim üçün nə dərəcədə faydalı olması haqda isə növbəti fəsillərdə söhbət açacağıq.

3.Bə'zi surə və ayələr bir neçə dəfə nazil olmuşdur. Məsələn, bir versiyaya görə, əl-Fatihə surəsi ki, dəfə nazil olmuşdur. Bir dəfə Məkkədə, bir dəfə də Mədinədə. “Belə olduqda, Rəbbinizin hansı ne'mətlərini yalan saya bilərsiniz?!”-ayəsi, ər-Rəhman surəsində otuz dəfə təkrar olunmuşdur. “Həqiqətən, bunda (Ibrahimin bu hekayətində) bir ibrət vardır. Halbuki, onların (Ibrahim qövmünün yaxud əhvalata qulaq asanların) əksəriyyəti iman

[2] Mədinədə nazil olmuş surələrə deyilir.

gətirmədi" ayəsi ilə "Həqiqətən, sənin Rəbbin yenilməz qüvvət, mərhəmət sahibidir! (kafirlərdən intiqam alar, tövbədən bəndələrini bağışlayar!)"- ayəsi əş-Şüəra surəsində səkkiz dəfə birlikdə təkrar olunmuşdur. Bə'zi hallarda bir ayənin bir neçə surədə təkrar olunmasının şahidi oluruq. Məsələn: "Onlar, əgər doğru danışırsınızsa, (bir xəbər verin görək) bu və'd (Qiyamət günü) nə vaxt yerinə yetəcək?"- deyərlər-ayəsi altı müxtəlif surədə təkrar edilmişdir.

Qur'anı diqqətlə nəzərdən keçirdikdə elə cümlələrlə rastlaşırıq ki, onlar bə'zi məqamlarda müstəqil ayə formasında, bə'zən isə başqa bir ayənin tərkib hissəsi kimi qeyd olunmuşdur. Məsələn: "Allahdan başqa heç bir tanrı yoxdur. Əzəm, əbədi varlıq odur" ayəsi, Ali-Imran surəsinin əvvəlində müstəqil ayə kimi işlənmişdir. Ümumiyyətlə, Qur'ani-Kərimin surə və ayələrinin əksəriyyəti bir dəfə nazil olmuş və əsasən Qur'anın bir yerində qeyd olunmuşdur.

Qur'ani-Kərimin surə və ayələrini bir-birindən fərqləndirən digər bir cəhət isə onların uzun və qısa olmasıdır. Qur'anda ən qısa surə əl-Kövsər, ən uzun surə isə əl-Bəqərədir. Həmçinin, Qur'anın ən qısa ayəsi ər-Rəhman

surəsinin 64-cü ayəsi, ən uzun ayəsi isə əl-Bəqərə surəsinin 282-ci ayəsi-“Ayətud”-deyəndir (borc ayəsi). Bu ayə otuzdan artıq cümləni əhatə edir. Qur’anın ayə və surələri arasındakı bu müxtəliflik, təbii ki, onlar nazil olduğu şəraitdən-bəyan məqamından irəli gəlir.

Ayələr arasında nəzərə çarpan digər bir fərq isə onların müxtəsər (lokanik) və müfəssəl (nisbətən geniş) olmasıdır. Əl-Leyl surəsinin ayələri ilə müqayisə etdikdə bu cəhət açıq-aydın özünü biruzə verir. Qeyd etməliyik ki, Məkki surələrinin əksəriyyəti müxtəsər üslubda, Mədəni surələrin əksəriyyəti isə müfəssəl kontekstlə nazil olmuşdur.

Yeri gəlmişkən, Rəsuli-Əkrəmə(s) nazil olan ilk ayələr əl-Ələq surəsi (yaxud əl-Ələq surəsinin ilk 5 ayəsi), sonuncu ayə isə əl-Bəqərə[1] surəsinin 281-ci ayəsi olmuşdur.

## Səbəbi-nüzul
## (ayənin nazil olmasının səbəbi)

[1] Əl-Bəqərə (inək) surəsi hicrətin 1-ci ilində Mədinədə nazil olmuşdur. Ayələrin bir hissəsi Islamın inkişafına xəyanət edən yəhudilərin tənqidinə, digər qismi isə qiblənin dəyişdirilməsi, oruc, həcc və s. aid olan dini hökmlərə həsr edilmişdir.

Qeyd etdiyimiz kimi, surə və ayələrin nazil olması Rəsuli-Əkrəmin(s) fəaliyyəti dövründə qarşıya çıxan müxtəlif hadisələrlə, çətinliklər və ehtiyacların aradan qaldırılması ilə bilavasitə əlaqədardır. Dini hökmlərin, Islam qanunlarının açıqlanması istiqamətində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün məhz, bu hökmləri izah edən ayələr nazil oldu. Buna misal olaraq, ən-Nisa, əl-Ənfal, ət-Talaq və s. surələri misal göstərmək olar.[2] Hər hansı hadisə, faktla əlaqədar surə yaxud ayənin nazil olmasını şərtləndirən motivlərə, səbəbi-nüzul (ayəni nazil olmasının səbəbi) deyilir. Bu motivləri bilmək, ayənin nəyə əsasən nazil olmasını müəyyənləşdirməkdə yardımçı rolunu oynayır. Elə buna görə də Islamın çiçəkləndiyi ilk dövrlərdə bir çox səhabə və tabiin mühəddisləri[1] ayələrin nazilolma səbəblərinin toplanaraq qələmə alınmasında çox böyük zəhmətlər çəkmiş və bu barədə saysız rəvayətlər nəql etmişlər. Sünnü mühəddislərin bu barədə rəvayət etdiyi hədislər bir neçə mindən artıq olduğu

---

[2] Ən-Nisa (qadınlar) surəsi nigah və irslə, əl-Ənfal (qənimət) surəsi müharibədə tutulan əsirlər və toplanmış qənimətlərlə, ət-Talaq (boşanma) surəsi isə boşanma ilə əlaqədar olan dini hökmləri əhatə edir.

[1] Hədislərin toplanması, qələmə alınması və növbəti nəsillərə ötürülməsi ilə məşğul olan şəxslərə deyilir. Leksik mə'nası hekayəçi, rəvayət edən deməkdir (mütərcimin əlavəsi).

halda, şiə mühəddislərinin nəql etdiyi hədislər bir neçə yüzə yaxındır. Qeyd etməliyik ki, bu hədislərin əksəriyyəti zəif hədislərdir. Onların yalnız kiçik bir hissəsini səhih (düzgün, həqiqi) hesab etək olar. Bu hədislərə diqqətlə etdikdə onların zəifliyini şərtləndirən mövcud qüsurları sezmək olur. Bu qüsurları aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

1.Bu hədislərin əksəriyyətinin ümumi məzmunundan aydın olur ki, mühəddis (rəvayət edən) ayə haqqında qeyd etdiyi səbəbi nüzumun canlı şahidi olaraq onu qələmə almamışdır. Bu hədislərlə tanışlıq zamanı görürük ki, mühəddis hansısa hadisəni danışır, sonra isə mə’na baxımından bu hadisəyə uyğun ayələri onunla əlaqələndirir. Beləliklə aydın olur ki, ayə üçün hədisdə qeyd olunmuş səbəbi-nüzul müşahidə yolu ilə deyil, subyektiv fikrə əsasən çıxarılmış nəticə əsasında əldə edilmişdir. Fikrimizi əsaslandırmaq üçün qeyd etmək kifayətdir ki, bu hədislər arasında çoxlu ziddiyyətlər müşahidə olunmaqdadır. Belə ki, Qur’an ayələrinin əksəriyyətində hər ayənin altında bir-birinə zidd olan bir neçə səbəbi-nüzul qeyd olunmuşdur. Hətta bə’zi məqamlarda bir nəfərdən (Ibn Abbas

kimi) müəyyən ayə haqqında bir neçə səbəbi nüzul rəvayət edilmişdir.

Ayələrin nazilolma səbəbləri arasındakı bu ziddiyyətlərin yaranması iki haldan xaric deyil.

I. Bu nazilolma səbəbləri nəqli deyil, nəzəridir. Bu o deməkdir ki, mühəddis ayənin nazil olma səbəbinin yerindəcə şahidi olaraq, onu rəvayət etmir. Yə'ni, mühəddislərin hər biri ayənin nazil olma səbəbi haqqındakı zidiyyətli hadisələrdən uyğun hesab etdiyini qeyd edir və təbii ki, bir mühəddisin uyğun sayıb, ayənin nazilolma səbəbi kimi göstərdiyi hadisə, digər mühəddisin fikri ilə (qeyd etdiyi hadisə ilə) üst-üstə düşmür.

II. Bu hədislərin hamısı yaxud bir qismi saxtadır.

Təbii ki, belə ehtimalların mövcudluğu şəraitində nazilolma səbəblərinin hədisləri öz mö'təbərliyini itirəcəkdir. Elə buna görə də hədisin səhih (həqiqi, düzgün) olması da heç bir fayda vermir. Çünki, hədisin səhih olması, onun sənəd baxımından düzgünlüyünü sübuta yetirərək söyləyən şəxslərin yalan danışması ehtimalını aradan qaldırır yaxud bu ehtimalı zəiflədir. Lakin hədisin saxta olması ehtimalı isə hələ də mövcud olur.

2.Bildiyimiz kimi, Islamın ilk dövrlərində hədislərin toplanaraq qələmə alınması xilafət tərəfindən qadağan edilmişdi və hədis yazılmış vərəqi tapdıqda onu yandırırdılar. Bu qadağan hicrətin I yüzilliyinin sonuna qədər, yə’ni, təqribən 90 il davam etdi. Beləliklə də, zəruriliyi gözləmədən mə’naya əsaslanaraq hədis söyləmək üçün bütün qapılar mühəddislərin üzünə açıq e’lan edildi. Hər dəfə hədisi söyləyərkən edilən kiçik əlavələr toplanaraq bə’zi məqamlarda əsas mövzunu yaddan çıxarırdı. Bunu bir hadisə haqqında müxtəlif vasitələrlə nəql olunmuş hədislərə müraciət etdikdə, tam aydınlığı ilə müşahidə etmək olur. Bə’zən eyni hadisəni şərh edən lakin tamamilə bir-birindən fərqlənən hədislərlə rastlaşırıq. Təbii ki, mə’naya əsaslanaraq hədis söyləməyin bu qədər geniş yayılması ayələrin nazil olma səbəblərinin mö’təbərliyini şübhə altına alır. Bu dövrdə müsəlmanlar içərisində şəxsən tapılmayan, Islamın inkişafına hər cür maneçilik törədən şəxslərin etdiyi saxtarkalıqların hədislər içərisinə daxilolma səbələrinə heç bir inam qalmayacaqdır.

### Ayənin nazilolma səbəbini müəyyənləşdirərkən

**hansı üsuldan istifadə etmək lazımdır?**

Qeyd etməliyik ki, hansısa hədis “Mö’təbər hədis” statusunu qazanmaq üçün Qur’an tərəfindən təsdiqlənməlidir. Buna əsasən, Rəsuli-Əkrəmdən (s) və Əhli-beytdən (ə) rəvayət edilən hər bir hədisi Qur’anla müqayisə etmək, Qur’an vasitəsilə şərh etmək lazımdır (yə’ni, hədisin Qur’andakı dini hökmlərlə, ümumiyyətlə, Qur’anın gətirdiyi qanunlarla uyğun gəlib-gəlmədiyini yoxlamaq lazımdır). Buna görə də hansısa ayə haqqında qeyd olunan səbəbi-nüzul e’tibarlı və səhih olmadıqda, onu ayə ilə müqayisə etmək lazımdır. Əgər ayənin məzmunu və ayə ətrafındakı digər əlamətlər ona uyğun gəlirsə, qeyd olunmuş səbəbi-nüzulu e’tibarlı hesab etmək olar. Başqa sözlə, ayə rəvayət vasitəsilə deyil, rəvayət ayə vasitəsilə əsaslandırılmalı, təsdiq olunmalıdır. Bu üsulla ayələrin bir çox nazilolma səbəbləri öz “statusunu” itirsə də, yerdə qalan hissənin e’tibarlı olması şübhə doğurmur. Bunu da qeyd etməliyik ki, əbədi və dünya maarifindən ibarət olan Qur’ani-Kərimin ali məqsədlərinin dərk olunmasında heç də ayələrin nazilolma səbəblərinə ehtiyac duyulmur.

## Surələrin nazil olma ardıcıllığı

Dediyimiz kimi, Qur'ani-Kərimdə surə və ayələr Peyğəmbərə (s) nazil olduğu ardıcıllıqla qeyd olunmamışdır. Bir çox əvvəlki müsəlman alimləri, xüsusilə də sünni təriqətinə mənsub alimlər surə və ayələrin ardıcıllığını müəyyən edərkən hədislərə istinad edirdilər. O cümlədən, bu barədə olan hədislərdən birinin də Ibn Abbasa mənsubluğu qeyd olunur.[1] Hədisdə deyilir: "Məkkədə nazil olan hər bir surənin əvvəli yerindəcə qələmə alınırdı. Sonra isə Allah istədiyini ona əlavə edirdi."

Qur'an aşağıdakı ardıcıllıqla nazil olunmuşdur.

1.Əl-Ələq.
2.Ən-Nun.
3.Əl-Muzzəmmil.
4.Əl-Müddəssir.
5.Əbu-Ləhəb.
6.Ət-Təkvir.
7.Əl-Ə'la.

---

[1] Itqan c 1, səh 10, Qahirə 1370, Ibn Düreysin "Fəzail-Qur'an" kitabına istinadən.

8.Əl-Leyl.
9.Əl-Fəcr.
10.Əz-Zuha.
11.Əl-Inşirah.
12.Əl-Əsr.
13.Əl-Adiyat.
14.Əl-Kövsər.
15.Ət-Təkasur.
16.Əl-Maun.
17.Əl-Kafirun.
18.Əl-Fil.
19.Əl-Fələq.
20.Ən-Nas.
21Əl-Ixlas.
22.Ən-Nəcm.
23.Əbəsə.
24.Əl-Qədr.
25.Əş-Şəms.
26.Əl-Buruc.
27.Ət-Tin.
28.Əl-Qüreyş.
29.Əl-Qariə.
30.Əl-Qiyamə.
31.Əl-Huməzə.
32.Əl-Mursəlat.
33.Qaf.

34.Əl-Bələd.
35.Ət-Tariq.
36.Əl-Qəmər.
37.Sad.
38.Əl-Ə’raf.
39.Əl-Cinn.
40.Yasin.
41.Əl-Furqan.
42.Əl-Məlaikə.
43.Məryəm.
44.Taha.
45.Əl-Vaqiə.
46.Əş-Şüəra.
47.Ən-Nəml.
48.Əl-Qəsəs.
49.Əl-Isra.
50.Yunus
51.Hud.
52.Yusif.
53.Əl-Hicr.
54.Əl-Ən’am
55.Əs-Saffat.
56.Loğman.
57.Səba.
58.Əz-Zumər.
59.Əl-Mu’min.

60.Fussilət.
61.Əş-Şura.
62.Əz-Zuxruf.
63.Əd-Duxan.
64.Əl-Casiyə.
65.Əl-Əhqaf
66.Əz-Zariyat.
67.Əl-Casiyə.
68.Əl-Kəhf.
69.Ən-Nəhl.
70.Nuh.
71.Ibrahim.
72.Əl-Ənbiya.
73.Əl-Mu'minun.
74.Əs-Səcdə.
75.Ət-Tur.
76.Əl-Mülk.
77.Əl-Haqqə.
78.Əl-Məaric.
79.Ən-Nəbə'.
80.Ən-Naziat.
81.Əl-Infitar.
82.Əl-Inşiqaq.
83.Ər-Rum.
84.Əl-Ənkəbut.
85.Əl-Mutəffifin.

Allah-təalanın Məkkədə nazil etdiyi surə və ayələr bunlardan ibarət idi. Sonra isə surələr Mədinədə nazil olmağa başladı.

86.Əl-Bəqərə.
87.Əl-Ənfal.
88.Ali-Imran.
89.Əl-Əhzab.
90.Əl-Mumtəhənə.
91.Ən-Nisa.
92.Əz-Zilzal.
93.Əl-Hədid.
94.Qital.
95.Ər-Rə’d.
96.Ər-Rəhman.
97.Əl-Insan.
98.Ət-Talaq.
99.Əl-Bəyyinə.
100.Əl-Həşr.
101.Ən-Nəsr.
102.Ən-Nur.
103.Əl-Həcc.
104.Əl-Munafiqun.
105.Əl-Mucadələ.
106.Əl-Hücurat.
107.Ət-Təhrim.
108.Əl-Cumuə.

109.Ət-Təğabun.
110.Əs-Səff.
111.Əl-Fəth.
112.Əl-Maidə.
113.Ət-Tövbə.

## Rəvayətlərə bir baxış

Gördüyünüz kimi, Ibn Abbasa mənsub edilən yuxarıdakı hədisdə Əl-Fatihə surəsini çıxmaqla, Qur'ani-Kərimin 113 surəsinin adı çəkilmişdir. Rəsuli-Əkrəmə(s) istinadən söylədiyi hədisdə isə Əl-Ə'raf, Əş-Şüəra və Əl-Fatihə surələrini çıxmaqla, 111 surənin adı çəkilir. Beyhəqinin[1] ibn Abbasa istinadən söylədiyi hədis isə Qur'ani-Kərimin 114 surəsinin hamısını əhatə edir. Lakin Beyhəqinin hər iki hədisi yuxarıda Ibn Abbasa istinadən qeyd olunmuş hədisin əksinə olaraq, Əl-Mutəffifin surəsini mədəni-Mədinədə nazil olan surə hesab etmişdir. Habelə, Beyhəqinin bu iki hədisində məkki və mədəni surələr üçün göstərilən ardıcıllığı da yuxarıda qeyd etdiyimiz ardıcıllıqla uyğun gəlmir.

---

[1].Əl-Itqan c-1, səh10.

Əli ibn Əbu Təlhədən nəql olunan başqa hədisdə deyilir.[2]

Əl-Bəqərə, Ali-Imran, Ən-Nisa, Əl-Maidə, Əl-Ənfal, Ət-Tövbə, Əl-Həcc, Ən-Nur, Əl-Əhzab, Əlləzinə kəfəru, Əl-Fəth, Əl-Hədid, Əl-Mucadələ, Əl-Həşr, Əl-Mumtəhənə, Əs-Səff, Ət-Təğabun, Ət-Talaq, Ət-Təhrim, Əl-Fəcr, Əl-Leyl, Əl-Qədr, Əl-Bəyyinə, Əz-Zilzal, və Ən-Nəsr surəsi Mədinədə sair surələr isə Məkkədə nazil olmuşdur.

Bu hədis surələrin nazilolma ardıcıllığını deyil, onların məkki-mədəni olmalarını müəyyənləşdirir. Bunu əl-Maidə və ət-Tövbə surələrinin hədisdə qeyd olunan yerinə nəzər saldıqda çox asanlıqla başa düşmək olar. Çünki, bu surələr ən-Nisa surəsindən çox sonra nazil olmuşdur. Lakin, hədisdə isə onlar yanaşı işlənmişdir.

Qeyd etdiyimiz hədislər Əl-Fəcr, Əl-Leyl və Əl-Qədr surəsini məkki (Məkkədə nazil olan) surələrin tərkibinə daxil etdiyi halda, bu hədisdə onlar mədəni surələrdən hesab edilmişdir. Habelə, bundan əvvəlki hədislər ər-Rə'd, ər-Rəhman, əl-Insan, əl-Cumuə və əl-Hucurat

[2] Əvvəlki şənbə.

surəsini mədəni surələrdən hesab etdiyi halda, bu hədis onları məkki surələri kimi təqdim edir.

Qətadədən nəql edilən digər bir hədisdə[1] isə O, deyir:

Qur'ani-Kərimin Əl-Bəqərə, Ali-Imran, Ən-Nisa, Əl-Maidə, Ət-Tövbə, Ər-Rə'd, Ən-Nəhl, Əl-Həcc, Ən-Nur, Əl-Əhzab, Məhəmməd Əl-Fəth, Əl-Hücurat, Əl-Hədid, Ər-Rəhman, Əl-Mucadilə, Əl-Həşr, Əl-Muştəhinə, Əs-Səff, Əl-Cumuə, Əl-Munafiqun, Ət-Təğəbun, Ət-Talaq, Ət-Təhrim surəsinin 13 ayəsi, Əz-Zilzal və Ən-Nəsr surəsi Mədinədə digər surələr isə Məkkədə nazil olmuşdur. Bu hədis də, yuxarıdakı qeyd etdiyimiz hədislərlə, xüsusilə də Qətadənin əl-Mutəffifin, əl-Insan və Əl-Bəyyinə surəsi ilə əlaqədar öz hədisinə uyğun gəlmir.

Qeyd etməliyik ki, bu hədislər həm dini bir hədis kimi, həm də tarixi baxımdan e'tibarlı deyil. Dini hədis olaraq ona görə deyil ki, onların sənədi Peyğəmbərə(s) gedib çatmır. Bundan başqa, ibn Abbasın bu ardıcıllığı Rəsuli-Əkrəmin(s) özündən, yoxsa, mö'təbərliyi mə'lum olmayan digər şəxslərdən öyrənməsi hələ də tam aydınlaşmayıb. Bu hədislərin tarixi baxımdan heç bir əhəmiyyət kəsb etməməsi isə

---

[1] Əl-Itqan c-1, səh-11.

onunla izah olunur ki, Ibn Abbas çox qısa zaman çərçivəsində Peyğəmbəri (s) dərk etmiş, onun səhabəsi olmuşdur. Aydındır ki, o, bu qısa dövr ərzində surələrin nazil olmasının yerindəcə şahidi olmamışdır. Deməli, o, bu ardıcıllığı kimdənsə eşidərək qələmə almışdır. Lakin hədisi kimə istinadən söylədiyini, ümumiyyətlə, hədisin mənbəyini Ibn Abbas qeyd etmir. Mənbəyi göstərilməyən belə bir tarixi nəql heç bir əhəmiyyət kəsb etmir.

Bundan başqa, bütün bu hədislər "Xəbərül-vahididir" (tək xəbər, yalnız bir şəxs tərəfindən söylənilən hədis). Üsul[1] elmində təsbit olunduğu kimi belə hədislər şər'i hökmləri çıxmaq şərtilə, digər məqamlarda e'tibarsız sayılır.

Dediklərimizdən aydın oldu ki, Qur'ani-Kərimin surələrinin ardıcıllığını, habelə, onların məkki yaxud mədəni olmasını müəyyənləşdirmək üçün yeganə yol, surələrin məzmunu ətrafında dərindən düşünmək, onu hicrətdən əvvəlki və sonrakı vəziyyətə tətbiq etmək və bu məzmunu hər iki dövrün özünəməxsus şəraiti ilə yanaşı öyrənməkdən ibarətdir. Məhz, bu yol surələr arasında bölgü aparmaqda, onların ardıcıllığını

---

[1] Dinin əsaslarını öyrənən elm sahəsi.

müəyyənləşdirməkdə daha faydalıdır. Məsələn, Əl-Insan, Əl-Adiyat, Əl-Mutəffifin surələrinin bə'zi hədislərdə məkki surələr sırasına daxil edilməsinə baxmayaraq, bu surələrin məzmunu onların mədəni olduğunu sübut edir.

## Qur'ani-Kərimin kitab halına salınması

(Qur'an Rəsuli-Əkrəmin(s) vəfatından qabaq) Qur'ani-Kərimin bəlağət və fəsahəti, onun fövqəl'adə bir kəlam olması, bəlağət vurğunu ərəblərin Qur'ana qarşı olan meylini gündən-günə artırırdı. Qur'anın necə bir kəlam olmasını eşitmək üçün uzaq məsafələri qət edərək Peyğəmbərin (s) yanına gəlir, mübarək ayələrin qiraətinə qulaq asıb əzbərləyirdilər. Qüreyşin bütpərəst, nüfuzlu şəxsləri isə, "Qur'an sehrdir"- deyərək, ərəbləri Peyğəmbərə (s) yaxınlaşmağa qoymurdular. Lakin buna baxmayaraq qaranlıq gecələrdə bir-birindən xəbərsiz olaraq Peyğəmbərin(s) evinə yaxınlaşır, onun oxuduğu Qur'an ayələrinə qulaq asırdılar.[1]

[1] Durrul-Mənsur c-4, səh-187.

Müsəlmanlar Qur’anın Allah kəlamı və dinin mənbəyi olmasını, habelə, Rəsuli-Əkrəmin(s) risalətinin əsasını təşkil etməsini çox gözəl başa düşdüklərinə görə, Qur’an surələrinin əzbərlənməsinə, toplanmasına və qələmə alınmasına çox böyük qayğı ilə yanaşırdılar. Rəsuli-Əkrəmin Mədinəyə hicrətindən sonra bu diqqət və qayğı daha da artdı. Belə ki, Peyğəmbərin (s) fərmanı ilə Qur’anın, həmçinin, dini elmlərin tədrisi ilə məşğul olan xüsusi bir qrup təşkil edildi. Bu qrup tərkibinə daxil olan şəxslər müharibələrdə iştirakdan belə azad edilmişdilər.[2]

Peyğəmbərin (s) səhabələrinin əksəriyyəti, xüsusilə də Məkkədən Peyğəmbərlə (s) mühacirət etmiş səhabələr savadsız (yazıb-oxumağı bacarmayan) olduqlarına görə, Rəsuli-Əkrəmin(s) əmrilə onlara yazıb oxumağı öyrətmək üçün yəhudi əsirlərindən istifadə edilirdi. Beləliklə də, qısa müddət ərzində savadlı bir təbəqə yarandı. Bu təbəqəyə daxil olan müsəlmanlar içərisində Qur’anın əzbərlənməsi, surə və ayələrin toplanması və qiraəti ilə məşğul olan şəxsləri “Qurra”[3]

---

[2] Ət-Tövbə surəsi, ayə 122.

[3] Leksik mə’nası oxuyanlar deməkdir. Qur’anı oxuyan şəxsləri belə adlandırırlar.

adlandırırdılar. Onların 40 (yaxud 70) nəfərindən Məunə hadisəsində şəhid oldu.

Qur'ani-Kərimin surələri nazil olduqca, onları xüsusi lövhələrdə, dəvə sümüklərinin üzərində və s yazırdılar. Qeyd etməliyik ki, Rəsuli-Əkrəmin(s) vəfatından əvvəl Qur'an surələrinin əksəriyyətinin müsəlmanlar içərisində məşhur olması inkarolunmaz haldır. Peyğəmbərin (s) və onun əshabələrinin Islamı təbliğ etməsini, Peyğəmbərin (s) Qur'an oxumasını, namaz qılmasını vəsf edən sünni və şiələrin söylədiyi yüzlərlə hədislərdə bu surələrin adları çəkilmişdir.

## Qur'ani-Kərim Peyğəmbərin(s) vəfatından sonra

Rəsuli-Əkrəmin(s) vəfatından sonra Peyğəmbərin (s) təsdiq etdiyi kimi, bu dövrdə Qur'anı hamıdan yaxşı bilən Əli (ə) surələrin nazilolma ardıcıllığını gözləməklə, təqribən, vəfatından 6 ay sonra onları kitab halına salır. Əli (ə) tərtib etdiyi bu müqəddəs kitabı bir dəvəyə yükləyib camaat içərisinə gətirərək, onu müsəlmanlara göstərdi. Rəsuli-Əkrəmin(s)

vəfatından 14-15 ay keçəndən sonra Yəmamə müharibəsi başlandı və bu müharibə zamanı qarelərdən[1] 70 nəfəri öldürüldü. Növbəti döyüşlər zamanı digər qarelərin də öldürülməsinin mümkünlüyünü nəzərə alan, beləliklə, Qur'anın aradan getməsinin qorxusuna düşən xilafət nümayəndələri Qur'anın kitab halına salınması fikrinə düşdülər. Xilafət tərəfindən verilən əmrə əsasən, Zeyd ibn Sabitin başçılığı ilə səhabə qarelərindən ibarət dəstə Qur'ani-Kərimin surə və ayələrini Peyğəmbərin (s) evindəki lövhələrdən və səhabə qarelərdən toplayaraq, onları kitab halına saldılar. Onlar tərtib etdikləri bu kitabı bir neçə nüsxə edərək ətrafa yaydılar.

Üçüncü xəlifə Osmanın zamanında ona xəbər verilir ki, Qur'an nüsxələrinin surətini çıxararkən, Qur'an oxuyarkən camaatın yol verdiyi səhvlər nəticəsində bir çox ixtilaflar yaranmışdır və belə gedərsə, Qur'anın təhrif olunması ehtimalı yaranacaqdır. Bu təhlükəni aradan qaldırmaq üçün I xəlifənin göstərişi ilə I xəlifə Əbu Bəkrin əmri ilə qələmə alınmış ilk nüsxəsəsi Peyğəmbər (s)-in həyat yoldaşı II

[1] Lüğəti mə'nası oxuyanlar deməkdir. Qur'anı əzbər bilən, oxuyan, ümumiyyətlə, onun tədrisi ilə məşğul olan şəxslər belə adlanırdı.

xəlifə Ömərin qızı Həfsədən əmanət olaraq aldılar. Sonra isə I nüsxənin hazırlanmasında Zeyd ibn Sabitlə yanaşı iştirak etmiş bir qare daxil olmaqla, səhabələrdən olmuş 5 qareyə göstəriş verilir ki, Həfsədən alınmış nüsxədən digər nüsxələrin əsasını təşkil edə biləcək bir nüsxə tərtib etsinlər. Müsəlmanların istifadəsində olan digər nüsxələri isə yığıb, Mədinəyə göndərmək göstərişi verilir. Mədinəyə göndərilmiş bütün nüsxələr xəlifənin əmrinə əsasən yandırıldı.

Beləliklə, bir neçə nüsxə tərtib edildi. Bu nüsxələrdən biri Mədinədə saxlanıldı. Məkkə, Şam, Kufə və Bəsrə şəhərlərinə bir nüsxə göndərildi. Digər versiyaya əsasən, bu beş nüxsədən başqa, bir nüsxə Yəmənə, bir nüsxə də Bəhreynə göndərilmişdir. Imam müshəfi (imamın tərtib etdiyi nüsxə) adlanan bu iki nüsxə digər nüsxələrin orjinalı hesab edilir.

Bu nüsxələrlə birinci dəfə tərtib olunmuş nüsxə arasında yeganə fərq bundan ibarətdir ki, I nüsxədə ət-Tövbə surəsi Muin, ən-Ənfal surəsi isə məsani surələrin tərkibinə daxil edilmişdir. Imamın nüsxəsində isə əl-Ənfal və ət-Tövbə surəsi ilə birlikdə, əl-Ə’raf və Yunis surələrinin arasında yerləşdirilmişdir.

## Qur'ani-Kərim tərtib edilərkən müsəlmanların göstərdiyi diqqət və qayğı

Qeyd etdiyimiz kimi, Qur'anı 1-ci və 2-ci dəfə tərtib edərkən surə və ayələr onları göz bəbəyi kimi qoruyan müsəlmanların əlində idi. Qur'ani-Kərimin (bu formada) tərtib olunması bir çox səhabə və tabiinin qarelərinin önündə həyata keçirilirdi. Onlar hamılıqla tərtib olunmuş bu nüsxəni qəbul edərək, onun çoxaldılmasına heç bir e'tiraz etmədilər.

Qur'ani-Kərimin 2-ci dəfə tərtibi zamanı (Osmanın tərtibində) (burada ərəbcə yazılmalıdır) ayəsindəki "vav" hərfini yazmaq istəmirdilər. Vəziyyətin belə olduğunu görən səhabə Əbu ibn Kə'b[1] "bu hərfi yazmasanız, qılınc çəkərək sizinlə döyüşəcəyəm"-deyə, and içdi. Beləliklə də bu hərf qeydə alındı.

Bir gün II xəlifə[2] (ərəbcə) cümləsini əlavəni bildirən vav hərfini tələffüz etmədən oxudu.

---

[1] Dürrul-Mənsur, III hissə, səh 232.
[2] Dürrul-Mənsur, III hissə, səh 369

Müsəlmanların e’tirazına səbəb olduğunu görən xəlifə vav hərfini tələffüz etməli oldu.

Əlinin (ə) qeyd etdiyi nazilolma ardıcıllığına riayət edərək Qur’anın tərtib edilib müsəlmanlara göstərilməsinə baxamayaraq, onun tərtibi olan bu nüsxə qəbul edilmədi. Habelə, növbəti (I və II) nüsxələri tərtib edərkən Əli (ə) işçi qrupunun tərkibinə daxil edilmədi. Bütün bunlara baxmayaraq, Əli (ə) heç bir müqavimət göstərmədən tərtib olunmuş nüsxəni qəbul etdi və ömrü boyu, həta öz xilafəti dövründə belə, bu mövzuya bir də qayıtmadı. Habelə, Əlinin (ə) canişinləri olan Əhli-beyt(ə) də bu barədə öz davamçılarına heç nə deməyiblər. Əksinə, onlar öz davamçılarına əhalinin qiraət tərzinə itaət etmək əmrini vermiş, özləri də söhbət zamanı ona istinad etmişlər. Əlinin (ə) tərtib etdiyi nüsxə ilə sonradan tərtib olunmuş nüsxələr arasında fərqli cəhətlərin və uyğunsuzluqların mövcudluğunu baxmayaraq, Əlinin (ə) susması bununla izah olunur ki, Əhli-beytin(ə) baxımından, ən e’tibarlı amil Qur’anın Qur’an vasitəsilə təfsir olunmasıdır. Bu təfsir metodunun reallaşdırmasında surələrin ardıcıllığı, onların məkki və ya mədəni olması Qur’ani-Kərimin ali məqsədlərinin açıqlanması

istiqamətində heç bir əhəmiyyət kəsb etmir və bir ayənin təfsiri üçün bütün Qur'an ayələri nəzərə alınmalıdır. Bu onunla izah olunur ki, bəşər övladına göndərilmiş əbədi Allah kəlamının məqsədlər toplusunu səbəbi-nüzul adlandırılan zaman, məkan və nazilolma vaxtındakı hadisələr heç bir tə'sir göstərməməlidir.

Təbii ki, bütün xüsusiyyətləri bilməyin Islam maarifinin, dini hökmlərin yaranmasına, həmçinin, 23 il ərzində Islamın inkişaf prosesinə və s gətirdiyi aydınlıq kimi bir sıra faydalı cəhətləri vardır. Lakin Islam birliyinin qorunması (qeyd etməliyik ki, Əhli-beytin (ə) əsas qayəsi də məhz, bu birlik olmuşdur) isə bu kiçik faydalarla müqayisədə, daha mühüm, daha əhəmiyyətlidir.

Qur'ani-Kərim hər cür təhrifdən xalidir. Nazil olduğu gündən bu günədək, müsəlmanlar arasında dillər əzbəri olmuş Qur'ani-Kərimin şanlı tarixi tamamilə aydındır və hamı bilir ki, bu gün əlimizdə olan Qur'ani-Kərim 14 əsr bundan əvvəl Rəsuli-Əkrəmə (s) nazil olmuş həmin Qur'andır. Tarixi baxımdan aydın olmasına baxmayaraq, Qur'ani-Kərimin öz həqiqiliyini sübut etməsi üçün tarixə belə

ehtiyacı yoxdur. Çünki Allah kəlamı olmasını iddia edən, bu iddiasında məhz öz mətninə əsaslanan və bütün ins-cinsi özü kimi bir kitab gətirməkdə aciz hesab edən bir kitabın Allah kəlamı olaraq heç bir dəyişikliyə uğramamasını sübut etməsi üçün özündən başqa digər sübut axtarması məntiqə uyğun deyil. Bu gün Qur'anın 14 əsr bundan qabaq Peyğəmbərə (s) nazil olmuş həmin Qur'an olduğunu və heç bir dəyişikliyə uğramadığını sübuta yetirmək üçün əlimizdəki ən aydın dəlil bu müqəddəs kitabın özü haqqında buyurduğu məziyyətlərdən ibarətdir.

Qur'ani-Kərim buyurur: "Mən nur və hidayət kitabıyam. Mən bəşəriyyəti haqqa və həqiqətə doğru hidayət edirəm. Mən iki şeyi (iki məsələni) izah edən bir kitabam. Mən bəşər övladının ehtiyacı olduğu və insan fitrətinə uyğun gələn hər bir şeyə aydınlıq gətirirəm. Mən Allahın kəlamıyam. Əgər buna inanmırsansa, bütün məxluqat (ins-cins) yığılaraq belə bir kəlam gətirsin yaxud yazıb-oxumağı bacarmayan, cəhalətin hökm sürdüyü bir yerdə heç bir müəllimi olmayan atasız böyümüş Rəsuli-Əkrəm kimi bir şəxs bu kəlama bənzər bir kəlam gətirsin." Habelə, Qur'anda belə iddia irəli sürülür ki, əgər bacarırsansa, bu kitabın

üslubunda, müsəlmanlara izah etdiyi dini hökmlərdə bəşər övladının sözündə oluğu kimi, bir uyğunsuzluq və ixtilaf tapın. Qur'ani-Kərim yuxarıda göstərilən bütün bu xüsusiyyətləri əhatə edir. Bu gün əlimizdə olan Qur'ani-Kərim əqli dəlillərə əsaslanan, insan xoşbəxtliyinin əsasını təşkil edən dünya görüşünün nədən ibarət olduğuna aydınlıq gətirərək, insanları imanlı olmağa səsləyir. Tövhid məsələsini Qur'ani-Kərim öz əsas məsələsinə çevirərək, dini e'tiqadla əlaqədar maarifi onun nəticəsi kimi əldə edir. Qeyd etmək lazımdır ki, bu mərhələdə ən kiçik məqamlar belə, Qur'ani-Kərimin diqqətindən yayınmamışdır.

Qur'ani-Kərim insanın gözəl əxlaqi keyfiyyətlərini sadalayaraq, onun fərdi və ictimai vəzifələrini qeyd edir, onların icrası zamanı Rəsuli-Əkrəmin(s) sünnətindən istifadənin zəruriliyindən danışır.

Kitab (Qur'an) və sünnətin çulğalaşması nəticəsində həmişəlik olaraq həyatının fərdi və ictimai yönümlərini zərgər dəqiqliyi ilə əhatə edən bir din, Islam dini yaranmışdır. Bu elə bir dindir ki, onun əhatə etdiyi məsələləri təsəvvür etmək üçün ən güclü hüquqşünasların belə, ömrü kifayət etmir.

Qur'ani-Kərimin üslub gözəlliyi, fikir yetkinliyi ilə əlaqədar mö'cüzəsinə gəlincə isə qeyd etməliyik ki, bu gözəllik ərəblərə və ərəb dilinə xas olan fəsahət və bəlağətin nəticəsidir. Ümumiyyətlə, Qur'anın nazil olduğu dövr ərəb dili (və dinlər) tarixində parlaq bir dövrdür. Bu dil hicrətin I yüzilliyində baş vermiş fütuhat zamanı digər dillərə qarışaraq öz əvvəlki mövqeyindən uzaqlaşmışdır. Lakin nəzərdən qaçırmamalıyıq ki, Qur'ani-Kərim təkcə leksik üslubu deyil, həm də mə'nəvi yönümləri ilə mö'cüzə olduğunu bildirərək dünya məxluqatını belə bir kəlam gətirməyə səsləyir.

Ərəb dilini bilən, bu dilin nəzm və nəsrinin incəliklərinə yaxından bələd olan şəxslər Qur'an ləhcəsinin öz gözəlliyi ilə insan ağlını heyrətə gətirən, vəsf edilməsi insan kəlamının fövqündə duran şirin bir ləhcə olduğunu yaxşı bilirlər. Bu onunla izah olunur ki, Qur'ani-Kərim şe'r və nəsr fövqündə duran səlistliyə malik bir üslubda yazılmışdır. Qur'ani-Kərim elə bir ilahi gözəlliyə malikdir ki, nitq söyləyərkən, xütbə oxuyarkən yaxud şe'r yazarkən, hansısa ayənin qeyd olunması, deyilən fikrə mə'na dərinliyi bəxş edərək ona yeni bir aydınlıq gətirir.

Nazil olduğu ilk dövrlərdə e’tibarən Qur’ani-Kərim mə’nəvi mö’cüzələrə malikdir. Bu onunla izah olunur ki, Qur’anda toplum halında öz əksini tapmış əxlaqi, əqidəvi, əməli, fərdi və ictimai qanunlar sisteminin tənzim edilməsi (tərtib olunması) bəşər övladının, xüsusilə də Peyğəmbərin (s) yaşadığı bir şəraitdə yaşayan bəşər övladının imkanlarından xaricdir.

Bütün bunlara əsasən cəsarətlə deyə bilərik ki, Qur’ani-Kərim heç bir təhrifə və dəyişikliyə uğramamışdır. Allah-təala özü də Qur’ani-Kərimin toxunulmazlığı haqda xəbər verərək belə buyurur: “Şübhəsiz ki, Qur’anı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!”[1].

“O (Qur’an), şübhəsiz ki, çox dəyərli (qiymətli) bir kitabdır. Nə öncə, nə də sonra batil ona yol tapa bilməz (şeytan onun bir sözünü, bir hərfini belə dəyişə bilməz). O, hikmət sahibi, şükrə (tə’rifə) layiq olan (bütün işləri bəyənilən Allah) tərəfindən nazil edilmişdir.”[2]

Ayələrin ifadə etdiyi mə’nadan aydın olur ki, Qur’ani-Kərim bilavasitə ilahi aləm

---

[1] Əl-Hicr-9.

[2] Fussilət-41-42.

tərəfindən qorunur. Məhz bu məntiqin nəticəsidir ki, 14 əsr bundan qabaq nazil olmasına, habelə, bir çox missionerlərin sə'ylərinə baxmayraq, Qur'ani-Kərim olduğu kimi qorunub saxlanılmışdır. Qur'ani-Kərim bu xüsusiyyəti baxımından, yeganə səmavi kitabdır.

## Qur'ani-Kərimin qiraəti, əzbərlənməsi və rəvayəti

Qeyd etdiyimiz kimi, Peyğəmbərin (s) dövründə Mədinədə bir dəstə müsəlman Qur'anın tə'limi və tədrisi ilə məşğul idi. Onlar tədricən nazil olan Qur'an ayələrini Peyğəmbərin(s) dilindən eşidir, bə'zən isə özləri bu ayələri Peyğəmbər (s) üçün oxuyurdular. Bə'zi müsəlmanlar Qur'anın düzgün qiraət olunmasında "Əsas qaynaq" rolunu oynayırdılar. Qiraəti onlardan öyrənən şəxslər öz qiraət tərzlərinin kimə aid olduğunu hədisdə qeyd edərək, əxz etdikləri qiraət formalarını qoruyub saxlayırdılar. O dövrdəki mövcud şərait belə hədislərin yaranmasını zəruri edirdi. Çünki, bu dövrdə əsasən heç bir nöqtə və hərəkəsi olmayan kufi xəttindən istifadə olunurdu və hər kəlməni

bir neçə cür oxumaq mümkün idi. Digər tərəfdən də müsəlmanların əksəriyyəti savadsız olduğuna görə, nazil olan ayələri əzbərləməkdən, onların oxunuş (qiraət) tərzini rəvayət şəklində qələmə almaqdan başqa, heç bir çarə yox idi. Beləliklə də, hədislər formalaşaraq gələcək nəsillərin yadigarına çevrildi.

## Qarelərin təbəqələri

Qarelərin I təbəqəsini Qur'ani-Kərimin tədris olunması ilə məşğul olan Rəsuli-Əkrəmin(s) səhabələri təşkil edir. Bu səhabələrin bir qrupu Qur'anın toplanmasında iştirak edirdi. O cümlədən, Abdullah ibn Harisin qızı Ümmi Vərəqə adlı bir qadın da bu qrupun tərkibinə daxil idi. (Qur'ani-Kərimin toplanması[1] dedikdə, surə və ayələrin nüsxə halında tərtib olunması deyil, onların öyrənilməsi və bütün Qur'anın əzbərlənməsi nəzərdə tutulur. Çünki Qur'ani-Kərim bu zaman nüsxə halında tərtib olunsaydı, I və III Xəlifənin dövründə onun tərtib olunmasına ehtiyac qalmazdı.

[1] Qur'ani-Kərimin surə və ayələrini toplayan (bütün surələri öyrənən və əzbərləyən) şəxslərin sayı hədislərdə müxtəlif cür qeyd olunub. Belə ki, bir sıra hədislərdə onların 4,5, 6 və ya daha çox olduğu göstərilir.

“Qur’ani-Kərimin surə və ayələrinin yeri Peyğəmbər (s) tərəfindən müəyyənləşdirilmişdir”- fikri bir çox digər hədislər tərəfindən təkzib edilib.

Bir sıra alimlərin fikrincə, Qur’ani-Kərimin tədris olunmasında Osman, Əli(ə), Ubəyy ibn Kə’b, Zeyd ibn Sabit, Abdullah ibn Mə’sud və Əbu Musa Əş’əri kimi bir neçə səhabə daha fəal iştirak edərək, məhşurlaşan şəxslərdən idilər.

Ikinci təbəqə, birinci təbəqənin şagirdlərindən (tabiinlərdən) ibarətdir. Bu təbəqənin nümayəndələri içərisində nisbətən tanınmış qarelər Məkkə, Mədinə, Kufə, Bəsrə və Şam şəhərlərində qiraət məktəbləri açaraq, Qur’anın tədrisi ilə məşğul olurdular. Bu şəhərlərdə əsasən, Osmanın nüsxəsindən istifadə olnurdu. Übeyd ibn Ümeyr, Ətta ibn Əbu Ribah (Rəbbah), Tavus, Mücahid, Əkrəmə, ibn Əbu Məlikə və Məlkədə, ibn Müsəyyib, Urvə, Salim, Ömər ibn Əbdül-Əziz, Süleyman ibn Yəsar, Ətta bin Yəsar, Məazqare, Abdullah ibn Ə’rəc, ibn Şəhab Zühəri, Müslüm ibn Cündəb və Zeyd ibn Əsləm Mədinədə, Əlqəmə, Əsvəd, Məsruq, Übeydə, Ömər ibn Şərhəbil, Haris ibn Qeys, Rəbi ibn Xüseym, Əmr ibn Meymun, Əbu Əbdür-Rəhman Səlmi, Zər ibn Hübeyş, Übeyd

ibn Nəzlə, Səid ibn Cübeyr, Nəxi və Şə’bi Kufədə, Əbu Aliyə, Əbu Rica, Nəsr ibn Asim, Yəhya ibn Yə’mur, Həsən Bəsri, ibn Sirin və Qətadə Bəsrədə Osmanın səhabələrindən olan Müğeyrə ibn Əbu Şihab və Əbu Dərda səhabənin səhabələrindən olan Xəlifə ibn Sə’d isə Şamda Qur’ani-Kərimin tədrisi ilə məşğul idilər.

Üçüncü təbəqə, hicrətin II yüzilliyinin I yarsına təsadüf edən bu təbəqənin şagirdlərindən ibarətdir. Bu təbəqənin nümayəndələrindən Abdullah ibn Kəsir (7 qaredən biri), Həmid ibn Qeys Ə’rəc və Məhəmməd ibn Əbu Muheysin Məkkədə, Əbu Cəfər Yəzid ibn Qə’qa, Şeybə ibn Nəssah və Nafe ibn Nəim (7 qaredən biri) Mədinədə, Yəhya ibn Visab, Asim ibn Əbin-Nücüd (7 qaredən biri), Süleyman Ə’məş, Həmzə (7 qaredən biri) və Kəsai (7 qaredən biri) Kufədə, Abdullah ibn Əbi Ishaq, Isa ibn Əmr, Əbu Əmr ibn Əla (7 qaredən biri), Asim Cəhdəri və Yə’qub Həzrəmi Bəsrədə, Abdullah ibn Amir (7 qaredən biri), Ətiyyə ibn Qeys Kilabi, Ismayıl ibn Abdullah ibn Muhacir, Yəhya ibn Haris və Şər’ih Şüreyh ibn Yəzid Həzrəmi isə Şamda Qur’ani-Kərimin tədrisi ilə məşğul idilər.

Dördüncü təbəqə, üçüncü təbəqənin şagirdlərindən və III təbəqədən hədis söyləyən şəxslərdən ibarətdir. Bu nümayəndələrə misal olaraq ibn Əyyaşı, Həfsi və Xələfi göstərmək olar. Dördüncü təbəqənin ən məşhur nümayəndələri haqda növbəti fəsildə söhbət açacağıq.

Beşinci təbəqə: Bu təbəqənin nümayəndələri müəlliflərdən və tədqiqatçılardan ibarətdir. Qur'ani-Kərimin qiraəti haqqında əsər yazan ilk müəllif Əbu Übeyd Qasim ibn Səlam olmuşdur. Sonra isə Əhməd ibn Cübeyr Kufi, Ismayıl ibn Ishaq Maliki (Mühəddis Qalunun səhabələrindəndir), Əbu Cə'fər ibn Cərir Qəbəri, Dağuni və Müchid göstərilən ardıcıllıqla (biri digərindən sonra) qiraət haqqında əsər yazmışdır. Məhz bu nümayəndələrdən sonra Qur'ani-Kərim haqqında tədqiqat əsərlərinin yazılması geniş vüs'ət aldı. Belə ki, sonralar Dani və Şatibi kimiləri həm nəsrlə, həm də nəzmlə saysız risalələr yazdılar.[1]

---

[1] Dani-Əbu Əmr Osman ibn Səid Əndəlusi məşhur qarelərdən olmuş, bu sahədə bir çox əsərlər yazmışdır. O, hicrətin 444-cü ilində vəfat etmişdir.

Hatibi -ən məşhur qare və hafizlərdən olmuşdur. Qur'ani-Kərimin qiraəti haqqında Hatibiyyə adlı böyük bir qəsidə yazmışdır. Kəhfuz-zunun (şübhə, rəf etmə) əsərinin müəllifinin dediyinə əsasən, bu qəsidə 1120 beytdən ibarətdir. Hatibi hicrətin 590-cı ilində (miladi 1212) Qahirədə vəfat etmişdir.

## Yeddi qare

Üçüncü təbəqənin nümayəndələrindən yeddisi müsəlmanlar arasında digər qarelərə nisbətən, daha çox şöhrət qazanmışdı. Bu şəxslər Qur'ani-Kərimin qiraət olunmasında "əsas qaynaq" hesab edilir. Yeddi qarədən nəql edən mühəddislər çox olmuşdur. Lakin hər bir qare üçün əsasən iki mühəddis (hədis nəql edən) müəyyən edilmişdir. Yeddi qare və mühəddislər aşağıdakılardan ibarətdir:

1.Məkkəli ibn Kəsir. Mühəddisləri (yə'ni ondan hədis nəql edən şəxslər) Qünbəl və Bəzzi olmuşdur.

2.Mədinəli Nafe ibn Əbdür-Rəhman. Mühəddisləri Qalun və Vərş olmuşdur.

3.Kufəli Asim ibn Əbin-Nucud. Mühəddisləri Əbu Bəkr Şö'bə ibn Əyyaş və Həfs olmuşdur. Bu gün xalqın istifadəsinə verlmiş Qur'ani-Kərim Həfsin Asimdən nəql etdiyi qiraət növünə uyğundur.

4.Kufəli Həmzə ibn Həbib Zəyyat tə'limi. Mühəddisləri Xələf və Xəllad olmuşdur.

5.Kufəli Kəsai. Mühəddisləri Dövri və Əbul-Haris olmuşdur.

6.Bəsrəli Əbu Əmr Zəbban ibn Əla. Mühəddisləri Dövri və Susi olmuşdur.

7.Dəməşqli Abdullah ibn Amir Şafii. Mühəddisləri Hişam və Zəkvan olmuşdur. Bu yeddi qaredə başqa, daha üç məşhur qare vardır:

1.Mədinəli Əbu Cə'fər Yəzid ibn Qə'qa.

2.Bəsrəli Yə'qub ibn Ishaq Həzrəmi.

3.Xələf ibn Hişam Bəzzaz.

Bu qiraət növlərindən başqa, bir sıra digər (nadir) qiraət növləri də vardır. Lakin bu qiraət növlərindən istifadə olunmur. Çünki Əhli-beytdən (ə) nəql edilən hədislərdə qeyd olunur ki, məşhur qiraət növlərindən istifadə etmək lazımdır. Sünni alimlərinin hamısı yeddi qiraət növünün mütəvatir olduğunu qeyd edir. Hətta onların bə'zisi Peyğəmbərin (s) məşhur (Ərəbcə yazılmalıdır) -"Qur'an yeddi hərf üzərində nazil olmuşdur" hədisini[1] yeddi qiraət növü ilə izah etmişlər. Qeyd etməliyik ki, yeddi qiraət mütəvatir[2] deyil, məşhurdur.

Zərkeşi "Bürhan" kitabında deyir[3] ki, "yeddi" qiraət növünün e'tibarlı yollarla bizə gəlib çatması bir həqiqətdir. Lakin, bu qiraət

---

[1] Suyuti "Itqan" kitabında bu hədisi 21 səhabədən nəql etmişdir. Əl-Itqan c-1, səh 47.

[2] Bir çox vasitələrlə nəql edilən hədislərə mütəvatir hədis deyilir.

[3] Əl-Itqan c-1, səh 82.

növlərinin mütəvatir yolla məhz, Rəsuli-Əkrəmdən (s) nəql edilməsi şübhəlidir. Çünki, "Qiraət" kitabında bu qiraət növlərinin 7 qareyə aid olan bütün sənədləri mövcuddur və bu sənədlərin hamısı nəqli vahid tək xəbərdir."[1]

Məkki[2] öz kitabında deyir: "Hər kim yeddi qiraət növünün Rəsuli-Əkrəmin (s) məşhur hədisindəki yeddi hərf olduğunu güman edirsə, çox böyük səhvə yol vermişdir. Əgər biz həmin fikrin düzgün olduğunu qəbul etsək, onda belə çıxır ki, yeddi qiraət növündən başqa, Qur'anın qiraət olunması üçün digər qirat növləri mövcud deyil. Bir halda ki, Əbu Əbid Qasim ibn Səlam, Əbu Hatəm Sicistani, Əbu Cə'fər Təbəri və Ismayıl Qazi kimi alimlər 7 qiraət növündən bir neçə dəfə artıq qiraət növü mövcud olduğunu qeyd etmişlər.

Hicrətin I yüzilliyində Bəsrədə Əbu Əmr Yə'qubun, Kufədə Həmzə və Asimin, Şamda ibn Amirin, Məkkədə ibn Kəsirin, Mədinədə isə Nafinin qiraətindən istifadə olunurdu. Bu III yüzilliyiə qədər daavm etdi. Üçüncü yüzilliyin əvvələrində Ibn Mucahid Yə'qubun adını Kəsainin adı ilə əvəz etdi.

---

[1] Qeyd etmək lazımdır ki, tək xəbərlər yalnız hər'i hökmlərdə e'tibarlı sayılır.

[2] Əl-Itqan c-1, səh 82.

Yeddi qare kimi digər qarelərin və ya onlardan daha yaxşı qarelərin mövcudluğuna baxmayaraq müsəlmanların məhz, bu yeddi qareni seçməsinin səbəbi bu idi ki, qiraətlə əlaqədar hədisləri nəql edən mühəddislərin sayı, həddən artıq çox olduğundan, bütün bu hədislərin qələmə alınmasının qeyri-mümkünlüyünü görən müsəlmanlar Qur'ani-Kərimin xəttinə uyğun gələn və əzbərlənməsi daha asan olan qiraət növündən istifadə etmək qərarına gəldilər. Buna görə də xəlifə Osmanın Məkkə, Mədinə, Kufə, Bəsrə və Şam şəhərlərinə göndərdiyi beş nüsxənin sayına uyğun olaraq hər şəhərdən bir qare seçib, onun qiraətindən istifadəyə başladılar.

Ibn Müxahid kimi, ibn Cəbir də qiraətlər haqqında yazdığı kitabda yeddi qaredən yalnız beşinin yuxarıdakı beş şəhərdən olduğunu qeyd etmişdir. Bundan sonra ibn Mucahid və başqaları Xəlifə Osmanın Bəhreyn və Yəmənə də Qur'an nüsxəsi göndərməsini (Xəlifə Osmanın tərtib etdirdiyi nüsxələrin sayı yeddidir) qeyd edən xəbərə əsaslanaraq, qarelərdən yeddi nəfəri müəyyən etdilər. Bəhreyn və Yəmənə göndərilmiş bu nüsxələr haqında ətraflı mə'lumat olmadığına görə, sayı

düzəltmək üçün kufəli qarelərdən iki nəfəri seçərək əvvəlki beş nəfərin üzərinə əlavə etdilər. Beləliklə də, qarelərin sayı yeddi oldu. Təsadüfən bu rəqəm Rəsuli-Əkrəmin (s) hədisindəki Qur’an yeddi hərf üzərində nazil olmuşdur.” Yeddi hərflə üst-üstə düşdüyündən, məsələnin mahiyyətindən xəbərsiz olan şəxslər çarəsiz qalaraq “yeddi hərfdə məqsəd yeddi qiraət növüdür” deyə güman etdilər. Hər halda ərəb dilinin qaydalarına, Qur’ani-Kərimin xətt qanunlarına uyğun gələn və rəvayətinin sənədi səhih (düzgün, həqiqi) olan hər qiraət növü e’tibarlıdır”.

Qurab[1] “Məsani” kitabında bu haqda belə deyir: “Başqa qiraət növlərindən deyil, yalnız yeddi qarenin qiraətindən istifadə etməliyik” fikrinin heç bir elmi əsası yoxdur. Çünki bir sıra qiraət mütəxəssislərinin yeddi qiraət növünü toplaması nəticəsində, onlar məhşurlaşmışdır. Belə bir fikrin formalaşdığı hiss olunur ki, guya, başqa qiraət növündən istifadə etmək olmaz. Bir halda ki, heç kim belə bir söz deməmişdir. Yə’ni, mütəxəsislərin heç biri “başqa qiraət növlərindən istifadə etmək olmaz”-fikrini təsdiq etməmişdir.

[1] Əl-Itqan c-1, səh-83.

## Qur’ani-Kərimin ayələrinin sayı

Qur’an ayələrinin sayı da bilavasitə Peyğəmbərin (s) dövrü ilə əlaqədardır. Rəsuli-Əkrəmdən (s) nəql edilən hədislərdə bə’zi surələrin ayələrinin sayı qeyd olunmuşdur. Məsələn, bu hədislərdə əl-Fatihə[2] surəsinin yeddi ayə, ən-Mülk[3] surəsinin isə otuz ayə olduğu göstərilmişdir.

Əbu Əmr Donidən[1] nəql etdiyi kimi Qur’an ayələrinin sayı haqda altı müxtəlif versiya mövcuddur.

Onlar aşağıdakılardan ibarətdir.

1.6000 ayə. 2.6204 ayə. 3.6214 ayə.

4.6219 ayə. 5.6225 ayə. 6.6236 ayə.

Qeyd etdiyimiz 6 versiyanın ikisi Mədinə qarelərinə, dördü isə Osman nüsxəsinə malik olan Məkkə, Kufə, Bəsrə və Şam qarelərinə aiddir. Bu versiyaların müəlliflərinin hər biri qeyd etdiyi sayı rəvayət vasitəsilə səhabə əsrinə çatdıraraq onu Mövqufə[2] hədis hesab etmiş və

---

[2] Əl-Itqan c-1, səh-68.
[3] Əl-Itqan c-1, səh-68.
[1] Əl-Itqan c-1, səh-69.
[2] O rəvayətə deyilir ki, onun kimdən nəql olunması (istinad) qeyd olunmur.

onun Rəsuli-Əkrəmə (s) mənsub olduğunu bildirmişdir (ərəbcə).

Mədinə qarelərinə mənsub olan iki versiyadan biri Əbu Cə'fər Yezid ibn Qə'qa və Şeybə ibn Nəssaha, digəri isə Ismayıl ibn Cə'fər ibn Əbu Kəsir Ənsariyə aiddir. Məkkə versiyası Ibn Kəsirin Mucahiddən, Mucahidin ibn Abbasdan və ibn Abbasın Əbu ibn Kə'bdən nəql etdiyi saydan ibarətdir. Kufə versiyası Həmzə, Kəsai və Xələfə aiddir. Bu versiyanı Həmzə ibn Əbu Leyladan, Ibn Əbu Leyla Əbu Əbdür-Rəhman Sələmidən, Sələmi isə Əlidən (ə) nəql edir. Bəsrə versiyası Asim ibn Əccac Cəhdərinin qeyd etdiyi saydan ibarətdir. Onlar bu versiyanın Əbu Dərdaya mənsub olduğunu göstərirlər.

Qur'an ayələrinin ümumi sayı ətrafında müxtəlif versiyaların formalaşması bilavasitə Qur'an surələrinin ayələrinin hesablanması və bu zaman qarşıya çıxan müxtəlif fikirlərlə əlaqədardır.

Qur'ani-Kərimin söz və hərflərinin sayı haqda qeyd edilməsi o qədər də mühüm olmayan bir çox statistik mə'lumatlar mövcuddur.

## Qur’ani-Kərimin surələrinin adları

Qur’ani-Kərimin surələrə bölünməsi Qur’ana məxsus köklərə malikdir. Allah-təala bir neçə yerdə “surə” sözünü işlətmişdir. Məsələn: “Bu (səmadan) nazil edib (hökmlərini) vacib buyurduğumuz bir surədir.[1]“Allaha iman gətirin, Onun Peyğəmbəri ilə birlikdə vuruşun!”-deyən bir surə nazil edildiyi zaman: “Aralarında sərvət sahibi olanlar səndən izn istəyib: “Qoy biz də (döyüşə çıxmayıb evdə) oturanlarla bir yerdə qalaq!”-deyərlər.[2] Əgər bəndəmizə (Mühəmmədə) nazil etdiyimizə (Qur’ana) şəkkiniz varsa, siz də (fəsahətdə və bəlağətdə) ona bənzər bir surə gətirin.”[3]

Surələrin adlandırılması bilavasitə onun müzakirə etdiyi mövzu ilə yaxud surədə qeyd olunan adla əlaqədardır. Məsələn, Əl-Bəqərə, Ali-Imran, Əl-Isra, Əl-Ixlas surələrini buna misal göstərmək olar. Qədim Qur’anlarda surələrin əvvəlində belə yazılır. (Ərəbcə) - Bəqərənin (inəyin) xatırladığı (qeyd olunduğu)

---

[1] Ən-Nur-1.
[2] Ət-Tövbə-86.
[3] Əl-Bəqərə-23.

surə (ərəbcə) -Ali-Imranın xatırladığı surə. Bə'zi hallarda surənin əvvəlindən bir cümlə işlətməklə, onun hansı surə olduğunu müəyyənləşdirirlər. Məsələn, (ərəbcə) (Ya Peyğəmbər! Qur'ani-Kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) "oxu" surəsi, (ərəbcə) Həqiqətən, Biz onu (Qur'anı) Qədr gecəsi nazil etdik!"-surəsi və s.

Bə'zi hallarda isə surənin malik olduğu hər hansı özəlliyə əsasən, onu tanıtmaq mümkün olur. Məsələn, (Ərəbcə) -Kitabı açan surəsi (ərəbcə) -Kitabın anası və yeddi ayə surəsi (ərəbcə) -Yalnız Allaha məxsus olanlar-surəsi, (ərəbcə) -Allaha mənsub olanlar surəsi və s.

Tarixi faktlar sübut edir ki, surələrin adlandırılmasında istifadə olunan bu üsullardan Islamın ilk dövrlərində istifadə olunmuşdur. Çünki, Peyğəmbərə (s) aid olan hədislərdə biz, əl-Bəqərə, Ali-Imran, Hud, əl-Vaqiə kimi bir çox surələrin adlarının qeyd olunduğunun şahidi oluruq. Buna görə də tam cəsarətlə deyə bilərik ki, bu adların əksəriyyəti Peyğəmbərin (s) dövründə çox işləndiyinə görə müəyyən edilmiş və heç bir şər'i yönümə malik deyil.

## Qur'ani-Kərimin xətti və hərəkəsi

Rəsuli-Əkrəmin(s) dövründə, habelə, hicrətin I və II yüzilliyində Qur'an kufi xətlə qələmə alınırdı. Kufi xəttindəki mövcud anlaşılmazlıqlar, Qur'anın əzbərlənməsini, qiraətini və rəvayətini (rəvayət şəklində nəql olunmasının) zəruri edirdi. Lakin buna baxmayaraq, bu anlaşılmazlıqlar yenə də bütünlüklə aradan qaldırılmırdı. Çünki yalnız hafizlər (Qur'anı əzbər bilən şəxslər) və mühəddislər (Qur'anın oxunuşunu rəvayət şəklində nəql edən şəxslər) Qur'anın düzgün oxunuşunu bilirdilər. Qur'anı oxumaq istəyən hər bir şəxs üçün isə düzgün qiraət etmək heç də asan deyildi. Elə buna görə də hicrətin I yüzilliyinin sonunda Əlinin (ə) səhabələrindən olan və onun başçılığı altında ərəb dilinin qrammatikasını yazmış Əbül Əsvəd Duəli[1] Əməvi xəlifələrindən olan Əbdülməlikin əmri ilə hərflər üzərinə nöqtə qoymaqla, bu xətdəki mövcud anlaşılmazlıqları müəyyən dərəcə olsa da aradan qaldırdı. Lakin bu anlaşılmazlıqlar yenə də tamamilə aradan qaldırılmamışdı. Bu

[1] Əl-Itqan c-2, səh 171.

vəziyyət əruz elminin banisi məşhur qrammatik Xəlil ibn Əhmədin[2] hərflərin tələffüzü üçün məd, təşdid, fəthə, kəsrə, dammə, sükun və tənvin kimi əlamətləri tərtib edənə qədər davam etdi. Xəlil ibn Əhmədin bu kəşfindən sonra qiraət zamanı qarşıya çıxan bütün çətinliklər, anlaşılmazlıqlar aradan qaldırıldı. Bundan əvvəl isə bir müddət hərəkələri nöqtələr əvəz edirdi. Məsələn, fəthənin yerinə hərfin yuxarısında (hərfin əvvəlində) bir nöqtə qoyulurdu, kəsrənin yerinə hərfin aşağısında (əvvəldə), damm ənin yerinə isə hərfin üstündə (hərfin sonunda) bir nöqtə qoyulurdu.

Qur'anın dəryasından bir qətrəni izah edə bilmişəmsə, özümü xoşbəxt hesab edirəm.

[2] Əl-Itqan c-2, səh 171.

# MÜNDƏRICAT

## BIRINCI FƏSIL

Qurani-Kərimin müsəlmanlar üçün qiymət və əhəmiyyəti .......................................................3
Qurani-Kərim nübüvvəti təsdiq edən sənəddir 10

## IKINCI FƏSIL

Qurani-Kərimin təlimi ....................................13
Qurani-Kərim bütün dünya xalqlarının kitabıdır ...........................................................14
Qurani-Kərim kamil bir kitabdır .....................15
Qurani-Kərim əbədi bir kitabdır ......................16
Qurani-Kərimin zahiri və batini vardır............19
Nə üçün Quran zahir və batin haqda söhbət açır? ........................................................... 20
Quran ayələri möhkəm və mütəşabih olaraq iki yerə bölünür...........................................................24
Müfəssirlərin möhkəm və mütəşabih barədə fikirləri...........................................................25
Əhli-beytin (ə) Quranın möhkəm və mütəşabih ayələri barəsində fikirləri ..............29
Qurani-Kərim təvil və tənzilə malikdir ...........30
Müfəssirlərin təvilin mənalarına fikirləri ........31
Quran terminologiyasında təvilin mənası yoxdur?...........................................................34

Qurani-Kərimdə nasix və mənsux ayələr vardır
........................................................................37
Qurani-Kərimdə cəry və intibaq......................39
Qurani-Kərimin təfsiri, onun yaranması..........40
Təfsir elmi və müfəssirlərin təbəqələri............40
Şiə müfəssirlərin özünəməxsus təfsir üslubu, onların
Təbəqələri.....................................................44
Qurani-Kərimin özü hansı təfsiri qəbul edir....46
Bəhsin nəticəsi................................................47
Quranın Quran vasiatəsilə təfsirinə dair nümunələr.......................................................50
Peyğəmbərin (s) və Əhli-beytin (ə) söylədiklərinin hüccət olmasının mənası........54

**ÜÇÜNCÜ FƏSIL**

Qurani-Kərimin vəhyi ....................................55
Quranın vəhy olunmasına müsəlmanların münasibəti......................................................55
Bir sıra müasir mütəxəssislərin vəhy və nübüvvət haqda fikirləri .................................56
Qurani-Kərim bu barədə nə deyir?..................57
Allahın sözü....................................................58
Ruhül-Əmin (Cəbrail) ....................................60
Mələklər və şeytan..........................................62
Cin .................................................................64

Vicdanın səsi ................................................65
Ikinci mülahizələr haqqında ...........................66
Qurani - Kərim vəhy və nübüvvətin mənası haqda
nə deyir? .......................................................67
Insanın üstünlüyü..........................................68
Insan növü hansı ictimai mənanı kəsb edir......69
Qanun zərurəti və ziddiyyətin meydana gəlməsi
........................................................................70
Insanın qanuna tərəf sövq (hidayət) olunması üçün təkcə
ağıl kifayət etmir............................................71
Insanın düzgün yola hidayəti üçün yeganə yol, vəhy
yoludur..........................................................73
Sual və cavab..................................................74
Vəhy yolu bütün səhvlərdən xali və
toxunulmazdır................................................78
Vəhyin həqiqəti bizə naməlum qalır................79

**DÖRDÜNCÜ FƏSIL**

Quranın müxtəlif alimlərlə əlaqəsi..................83
Qurani-Kərimin elmə və onun təhsilinə verdiyi yüksək
Qiymət..........................................................83

Qurani – Kərim insanları hansı elmləri öyrənməyə dəvət edir?......84
Qurani-Kərimə aid olan elmlər......85
Qurani-Kərimin bir sıra elmlərin formalaşmasınada rolu......86

**BEŞINCI FƏSIL**

Qurani-Kərimin nazil olma ardıcıllığı və müsəlmanlar arasında yayılması......89
Səbəbi nuzul (ayənin nazil olmasının səbəbi).92
Ayənin nazilolma səbəbini müəyyənləşdirərkən hansı üslubdan istifadə etmək lazımdır?......95
Rəvayətlərə bir baxış......99
Qurani-Kərimin kitab halına salınması......101
Qurani-Kərim Peyğəmbərin(s) vəfatından sonra......103
Qurani-Kərim tərtib edilərkən müsəlmanların göstərdiyi diqqət və qayğı......104
Qurani-Kərimin qiraəti, əzbərlənməsi və rəvayəti......108
Qarelərin təbəqələri......109
Yeddi qare......111
Qurani-Kərimin ayələrinin sayı......114
Qurani-Kərimin surələrinin adları......116

Qurani-Kərimin xətti və hərəkəsi ..................117

**Bədii redaktor: Ceyhun Cəfərov**

**Texniki redaktor: Mais Ağaverdiyev**

**Korrektor: Elman Fərzəliyev**

**Operator və dizayner: Polad Zərbəliyev**

**Yığılmağa verilib: 18.09.02, Qeydiyyat tarixi: 21.11.02 Qeydiyyat nömrəsi: DK-979/d, Çapa imzalanıb**

**02.04. 03, Kağız formatı: 60x84 $^1/_{16}$**

**şərti çap vərəqi: 7,625 Tiraj: 300**

**Kitab “Qələm” poliqrafiya müəssisəsində yığılmış, səhifələnmiş və çap olunmuşdur.**

**Ünvan: Hüsü Hacıyev, 1.**

**Tel: (50) 352 52 06, 352 52 55**

**Kitabın çap və s. hüquqları qorunur.**